www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 iyul 2014-cü il Cümə № 182 (5891) Qiymәti 40 qәpik

**Xəbər**

## Ukraynada sərnişin təyyarəsi vuruldu

yazısı səh.2-də

**Gündəm**

### Girov vətəndaşlarımızla bağlı mətbuat konfransında müəmma



Yarımçıq saxlanılan tədbirdə beynəlxalq təşkilatlara müraciət olunub, BMT-yə çağırış edilib

yazısı səh.6-da

### Elmar Hüseynovun ad günü qeyd olundu

yazısı səh.3-də

### Müxalifətin "100 illik müharibəsi" səngimir

yazısı səh.7-də

### Gürcüstanın Vergi Xidməti düzəliş verdi

"3 ton heroin Azərbaycandan keçib"

yazısı səh.4-də

### İŞİD-in əsas komandirləri Səddam Hüseyn ordusunun keçmiş zabitləridir

yazısı səh.13-də

### Rauf Mirqədirovla bağlı bəyanata reaksiyalar - jurnalistin Türkiyəyə köçməsinin sirri

yazısı səh.3-də

### Gizli evində öldürülən məşhur həkimin atasından sensasion açıqlamalar

yazısı səh.15-də

### USAİD-lə bağlı qrant qalmaqalı böyüyür

Deputat Əli Hüseynlinin təşkilatına maliyyə yardımı dayandırılıb

yazısı səh.8-də

### Rəhim Qazıyevin ittihamlarına sərt cavab verildi

yazısı səh.9-da

**Ramazan ayının 17-ci günü**

Ramazan ayının 20-ci günü

İftar 21.24. İmsaq (azan) 4.59 (QMİ-nin cədvəli)

20-ci günün duası: "İlahi, bu gün mənim üçün behişt qapılarını aç və cəhənnəm qapılarını bağla! Belə bir gündə məni Quran oxumağa müvəffəq et! Ey möminlərin qəlblərini sakitləşdirib Aram Edən!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Bakı-Ankara münasibətlərinə qəfil "U" dönüşü təhdidi

# ƏRDOĞANDAN BAKIYA QARABAĞ ŞANTAJI - İDDİA

Rusiyanın regionda yeni müharibə panlarını Qərbin pozmaq istəyi ABŞ-ın müəllifi olduğu yeni "Yol xəritəsi"ni aktual edib; AKP namizədinin seçkilərdə qələbəsi okeanın o tayında neçə vaxtdır hazırlanan layihəyə nəfəs verə, sərhədlərin açılması tezləşə bilər; Sürix protokollarının gündəmə qayıdacağı gün uzaqda deyil...

yazısı səh.8-də

Şahin Sultanov



# Vitse-admiralın həbs müddəti uzadıldı

Şahin Sultanov "Yeni Müsavat"a məktub yazdı; sabiq komandan barəsindəki istintaqın obyektiv araşdırılması üçün prezidentə müraciət etdi; "Çingiz Məmmədov HDQ-yə gəldi, öncə mənə "Qüsursuz xidmətlərə görə" birinci dərəcəli medalı təqdim etdi, sonra isə müdafiə nazirinin əmrini verdi ki, "xidməti uyğunsuzluğa görə" təqaüdə göndərilirəm"

yazısı səh.10-da



*Tural Abbaslı:*

### "AXCP-nin tədbirinə getməmək tapşırığı verilsəydi, tabe olardım"

yazısı səh.7-də



### Zahid Oruca görə İran nota verməyə hazırlaşır

yazısı səh.4-də



*Maksim Musayev:*

### "Əli Əhmədovla bir kənddən olsam, pasportumu cırardım"

yazısı səh.5-də

**18 iyul 2014**

YENİ MÜSAVAT
N 182 (5891) 18 iyul 2014

# QHT-lər banklar üçün arzuolunmaz müştəriyə çevrilib

## Ekspert həyəcan təbili çaldı: "Bank sektoruna inam itə bilər"


Samir Əliyev

**"QHT-lər banklar üçün arzuolunmaz müştəriyə çevrilib". Bunu "Yeni Müsavat"a açıqlamasında iqtisadçı-ekspert Samir Əliyev bildirib. Onun sözlərinə görə, qanunvericiliyə, o cümlədən "Qrant haqqında" Qanuna edilmiş son dəyişiklik QHT-lərlə banklar arasında gərginlik yaradıb. Bu gərginlik təkcə bəzi hesabların dondurulması və bildirişi olmayan təşkilatların bank əməliyyatı aparmasına qadağanın qoyulmasından ibarət deyil.**

"Problem ondadır ki, hətta bildirişləri olan QHT-lər üçün bank əməliyyatı aparmaq çətinləşib. Banklar hər dəfə əməliyyat aparmaq üçün müvafiq dövlət qurumlarından qeyri-rəsmi icazə almalıdır. Bütün bunlar bankların əlavə xərclərin və vaxt itkisi hesabına başa gəlir. Buna görə də banklar onlar üçün "səmərəli" olmayan QHT-lərdən boyun qaçırmaq barədə düşünürlər. Bunun yollarından biri də QHT-lərə münasibətdə şərtlərin ağırlaşdırılması, yeni qeydiyyatdan keçən QHT-lərin isə hesab açmasına müxtəlif bəhanələrlə boyun qaçırılmasıdır",- deyə o bildirib.

**S.Əliyevin sözlərinə görə, bu işdə Mərkəzi Bankın üzərinə böyük məsuliyyət düşür.** "Mərkəzi Bank bank sektoruna 90-cı illərin əvvəli itirilmiş inamı qaytarmağa müvəffəq olub. Son aylar baş verən hadisələr bu inamı itirə bilər. Ən başlıcası burda vətəndaş cəmiyyəti ilə bankların üz-üzə qoyulması müşahidə olunur. Mərkəzi Bank bu məsələyə müdaxilə etməlidir. Əks halda, bank sektoruna inam itirilə bilər",- deyə ekspert vurğulayıb.

❑ RÖYA

## Başsağlığı!

**Müsavat Partiyasının başqanı İsa Qəmbər və partiyanın Divanı Səftər Nəhmətliyə qardaşı Mədət həkimin vaxtsız vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Müsavat Partiyasının başqanı İsa Qəmbər və partiyanın Divanı Qubadlı rayon müsavatçısı Nəriman Məmmədovun vəfatından kədərləndiyini bildirir, ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.**

***

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi "Trend"in baş direktoru İlqar Hüseynova anasının vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Arzu Nağıyev və Ehtiram İlham "Trend"in baş direktoru İlqar Hüseynova anasının vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbest seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

# Hacıbala Abutalıbov Bakıda restoranı sökdürüb pulunu vermir

## "Yüksel" firmasına aid restorana görə Babayevlər ailəsinə kompensasiya ödənmir

**Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun göstərişi ilə sökülən "Yüksəl" firmasına aid restorana görə Babayevlər ailəsi 8 ildir kompensasiya ala bilmir. Firmaya aid torpaq sahəsi Bakı meri tərəfindən özəlləşdirilib.**



Bu barədə məlumatı "Yeni Müsavat"a İnsan Hüquqları üzrə Maarifləndirmə İctimai Birliyinin rəhbəri İradə Cavadova verib. Hüquq müdafiəçisinin sözlərinə görə, 2008-ci ildə Babayevlər ailəsinə atalarından vərəsəlik qaydasında keçən Nərimanov rayonu, Nəvai küç. 24 ünvanda yerləşən rəsmi 136 ,7 kv.m *(istifadə olan 3 sot torpaq sahəsi ilə)* olan restoran Bakı Şəhər İcra Hakimiyyətinin tapşırığı ilə prezident iqamətgahının tikilməsinə görə sökülüb: "Vərəsələrə tez bir zamanda kompensasiyanın veriləcəyi vəd olunub. Lakin uzun müddət keçməsinə baxmayaraq, indiyədək heç bir kompensasiya ödənilməyib. Ailə üzvləri həmin restoranı icarəyə verməklə qazanc əldə edirdi. Tələbə olduqlarını üçün başqa qazanc yerləri də yox idi".

**İ.Cavadovanın sözlərinə görə, məsələ ilə əlaqədar çoxsaylı müraciətlərə Bakı Şəhər İcra Hakimiyyəti, Maliyyə Nazirliyi və Əmlak Komitəsi heç bir münasibət bildirməyib:** "Əldə etdiyimiz məlumata görə, həmin ünvanda sökülən yaşayış yerləri ilə bağlı məsələ həll olunub. Lakin valideynsiz və köməksiz qalan Babayevlər ailəsinin mülkiyyət hüquqları kobud surətdə pozulub. 2008-ci il tarixində sahibkarlıq obyektinə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı və köməkçiləri gələrək baxış keçirib. Şifahi olaraq bildiriblər ki, dövlət ehtiyacları üçün aparılacaq tikinti səbəbi ilə restoran sökülməlidir. 2009-cu ilin may ayında restoran tamamilə söküldüyü halda mülkiyyətçilərə indiyə qədər heç bir ödəniş həyata keçirilməyib".

Məsələ ilə bağlı zəng etdiyimiz Bakı Şəhər İcra Hakimiyyətindən ittihamlara cavab verən olmadı. Qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.

❑ Fərahim İLQAROĞLU




# Göyçay sakinləri yolu bağladılar

**Göyçayda yolların qazılaraq bərbad hala salınmasına etiraz edən bir qrup rayon sakini Bakı -Yevlax yolunun 218-ci kilometrində yolu bağlayıb.**

Avropa.info xəbər verir ki, Göyçay sakinləri pis hala salınmış yollara görə icra başçısı Mənsur Məmmədovu ittiham edirlər. Əraziyə polis qüvvələrinin cəlb olunduğu və 2 nəfərin saxlanıldığı bildirilir.

# Bakıda qatar qadının üstündən keçdi

**Bakıda dəhşətli hadisə baş verib. Lent.az-ın məlumatına görə, Binəqədi rayonu ərazisində qatar yaşlı qadının üstündən keçib.**

Dəmir yolu xəttinin Biləcəri-Heybət hissəsində hərəkət edən qatarın altında qalaraq ölən qadının 1944-cü il təvəllüdlü Bayramova Lyudmila Timofeyevna olduğu məlum olub. Hadisənin intihar və ya bədbəxt olayın nəticəsi olması məlum deyil.

Müvafiq qurumlar araşdırma aparır.

# Ermənistan səfirlikləri qarşısında aksiya çağırışı

**Qarabağ Azadlıq Təşkilatı (QAT) Kəlbəcərdə girov götürülən azərbaycanlılarla bağlı Azərbaycanın xaricdə fəaliyyət göstərən səfirliklərinə, diaspor təşkilatlarına müraciət ünvanlayıb. Müraciətdə bu hadisə ilə bağlı dünya birliyinin məlumatlandırılması, Ermənistan səfirlikləri qarşısında etiraz aksiyalarının keçirilməsi təklif olunur:**

"Kəlbəcər rayonu ərazisində azərbaycanlıların erməni işğalçı qüvvələri tərəfindən girov götürülməsi hamımızı narahat edir, hamı bu hadisə ilə bağlı qəzəb içərisindədir. Belə bir gündə əlaqəli şəkildə fəaliyyət göstərməyimizə, baş vermiş hadisə ilə bağlı dünya birliyinin, beynəlxalq təşkilatların obyektiv məlumatlandırılmasına, beynəlxalq ictimaiyyətin diqqətinin bir daha erməni işğalçılığı, vəhşiliklərinə yönəldilməsinə ehtiyac var. Kəlbəcər və Cəbrayıl rayonlarından olan məcburi köçkünlər Dilqəm Əhmədov, Şahbaz Quliyev və Həsən Həsənov öz ata-baba yurdlarına gediblər. Buna görə onlara İşğalçı Ermənistan rejimi heç cür qadağa qoya bilməz. Onlara qarşı xüsusi qəddarlıqla davranılması, divan tutulması, indi isə onların üzərində məhkəmə qurmaq cəhdləri insanlığa, bəşəriyyətə qarşı işğalçı Ermənistan rejiminin növbəti cinayətlərindən başqa bir şey deyildir.

Biz Sizləri dünyanın bütün ölkələrində, beynəlxalq təşkilatlarda baş vermiş hadisə ilə bağlı dolğun məlumatları yaymağa, Ermənistanın səfirlikləri qarşısında, uyğun beynəlxalq təşkilatlar qarşısında aksiyalar keçirməyə, Beynəlxalq Qırmızı Xaç Komitəsinin mərkəzi ofisi ilə əlaqələr quraraq məsələyə ciddi yanaşmalarına nail olmaq üçün müxtəlif vasitələrdən istifadə etməyə çağırırıq. Hər bir azərbaycanlı bu məsələdə fəal olmalı, öz üzərinə düşən işləri yerinə yetirməlidir".

❑ Cavìd TURAN

# Ukraynada sərnişin təyyarəsi vuruldu

Donetsk vilayətində Malayziyaya məxsus «Boeing» təyyarəsi qəzaya uğrayıb. APA-nın Ukrayna KİV-lərinə istinadən verdiyi məlumata görə, təyyarə antiterror əməliyyatı zonasında vurulub.

İlkin məlumata görə, təyyarənin göyərtəsində 295 nəfər olub. Təyyarə Donetsk vilayətinin Qrabovo yaşayış məntəqəsi yaxınlığında yerə düşüb.

Təyyarənin Amsterdam - Kuala-Lumpur marşrutu ilə uçduğu bildirilir.

Təyyarə "Buk" kompleksi ilə vurulub. Anspress-in məlumatına görə, bu haqda informasiyanı Ukrayna daxili işlər nazirinin məsləhətcisi Anton Qeraşenko facebook səhifəsində yazıb.

Onun sözlərinə gorə, Amsterdam - Kuala-Lumpur reysini yerinə yetirən təyyarə Torez yaşayış məntəqəsi üzərində, Donetsk vilayətinin, Şaxtyorsk rayonunun, Qrabovo kəndi yaxınlığında "Buk" zenit raket komleksi ilə vurulub.

Qəza zamanı 280 sərnişin və 15 ekipaj üzvünün öldüyü bildirilir.

# Tanınmış jurnalistin ailəsində faciə

**Bakıda tanınmış jurnalistin oğlu bədbəxt hadisə nəticəsində vəfat edib. Jurnalist Ayaz Nizamioğlunun 3 yaşlı övladı Maqsud srağagün yaşadığı dördüncü mərtəbədəki mənzilin eyvanından yıxılıb. Azyaşlı Respublika Neyrocərrahiyyə Xəstəxanasına yerləşdirilsə də, onu xilas etmək mümkün olmayıb. Nizami Rayon Polis İdarəsindən verilən məlumata görə, hadisə iyulun 16-da saat 19.40-da Qara Qarayev prospekti 23, mənzil 48-də qeydə alınıb. Bakı şəhər sakini, 3 yaşlı Maqsud Ayaz oğlu Mirzəyev yaşadığı binanın dördüncü mərtəbəsindən yıxılaraq ölüb.**

Qeyd edək ki, əvvəllər ANS kanalında çalışan Ayaz Nizamioğlu hazırda Azərbaycan Jurnalistlər Şəbəkəsinin və Beynəlxalq Avrasiya Mətbuat Fondunun departament rəhbəridir.



# Şeyx Əbdül meriyanı uddu

**İyulun 17-də Ali Məhkəmə tanınmış sənətçi Şeyx Əbdül Mahmudbəyovun Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hasıbala Abutalıbova qarşı iddiasına baxıb. Sənətçinin AzadlıqRadiosuna bildirdiyinə görə, məhkəmə bundan əvvəlki instansiya məhkəmələrinin onun xeyrinə çıxardığı qərarları qüvvədə saxlayıb:**

«2 il əvvəl «Qış Bulvarı» parkı tikilərkən, mənim evimə ciddi ziyan dəymişdi. Tələb etsəm də, Bakı Şəhər İcra Hakimiyyəti mənə dəymiş ziyanı ödəmək istəmirdi. Bu işlərin başında Hacıbala Abutalıbov dururdu. Ona görə də onu məhkəməyə verdim. Nəsimi Rayon Məhkəməsi mənim xeyrimə qərar çıxardı ki, mənə dəymiş ziyanı icra hakimiyyəti ödəməlidir. Hacıbala Abutalıbov bu qərardan apelyasiya şikayəti verdi, bu məhkəməni də uddum. İyulun 17-də Ali Məhkəmə də əvvəlki qərarları qüvvədə saxladı. Mən fikirləşirdim ki, Hacıbala Abutalıbov məhkəmələrə təzyiq göstərər deyə onun xeyrinə qərar çıxaracaqlar. Bu belə olmadı, qərarlar ədalətli oldu».

Şeyx Əbdül Mahmudbəyov yaxın müddətdə qərarın icra olunacağını bildirdi.

# Məmmədovların ətrafındakı müəmmalı qətllər

## Nəqliyyat nazirinin oğlu Anar Məmmədovun xanım işçisinin qatili hələ tapılmayıb

**Evində amansızlıqla öldürülən "Qarant Sığorta" ASC-nin İdarə Heyətinin üzvü Natəvan Əliyevanın qatili tapılmayıb. İstintaq 1 həftədir ki, yerində sayır.**

Bu günə məlum olan odur ki, N.Əliyeva iyulun 11-də işə çıxmayıb. İş yoldaşlarının zənglərinə cavab verməməsi şübhələrə əsas yaradıb. Nəsimi rayonunda tək yaşayan 31 yaşlı N.Əliyevanın iş yoldaşları Fövqəladə Hallar Nazirliyinə müraciət ediblər. Nazirliyin xilasediciləri mənzilə daxil olaraq onu qan içərisində öldürülmüş vəziyyətdə aşkarlayıblar. Subay olan N.Əliyevanın valideynləri rayonda yaşadığından o, Bakıdakı mənzildə tək yaşayırmış. Bu səbəbdən onun evinə kimin gəlib-getməsi, qatilin onu haradan tanıması sualları açıq qalır. N.Əliyeva nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun rəhbəri olduğu "Qarant Holdinq"ə daxil olan ASC üzvüdür. Cinayət işinin istintaqını Bakı Şəhər Prokurorluğu araşdırır. Daha bir diqqətçəkən məqam odur ki, N.Əliyeva Məmmədovların ətrafında olan ikinci şəxsdir ki, öldürülür. Bir neçə il öncə Ziya Məmmədovun mühafizəçisi olmuş Eldəniz Qurbanov yaşadığı binanın qarşısında güllələnərək qətlə yetirilib. Onun qətlinin üstü indiyədək açılmayıb. N.Əliyevanın qətlindən ötən günlər onun qatilinin də azadlıqda qalacağı haqda məlumatların yayılmasına səbəb olub.

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 182 (5891) 18 iyul 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# "Monitor" jurnalının mərhum baş redaktorunun ad günü qeyd olundu





**İyulun 17-də "Monitor" jurnalının mərhum baş redaktoru Elmar Hüseynovun ad günü qeyd olundu. Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun təşkilatçılığı ilə baş tutan anım yürüşünə mərhumun yaxınları, dostları və jurnalist həmkarları qatılmışdılar.**



**Çıxış edən RATİ-nin rəhbəri Emin Hüseynov** bildirdi ki, Elmar Hüseynovun ölümündən 9 il ötməsinə baxmayaraq, hələ də qətli törədənlər və sifarişçilər tapılmayıb: "Getdikcə dövlətin bu məsələyə marağı azalır. Elmar mövzusunu birdəfəlik bağlamaq istəyirlər. Hər il Elmarın doğum və qətl günlərində yalnız azad media təmsilçiləri anım təbirləri keçirərək hökumətdən qatillərin tapılmasını tələb edir. Hər il deyirlər ki, guya qatillər tapılıb, lakin Gürcüstan tərəfi onları bizə vermir. Elə davranış sərgiləyirlər ki, sanki bu adam heç olmayıb".

**E.Hüseynov bildirdi ki, gənc jurnalistlərə Elmarın ideyalarını göstərmək, onun yaradıcılığı ilə yaxından tanış etmək və jurnalistika sahəsinə marağı olan gəncləri yetişdirmək məqsədilə Elmar Hüseynov Fondunun fəaliyyəti yenidən bərpa olunacaq:** "Fondun təsisçiləri ilə danışmışıq. Fond bir neçə ildir fəaliyyətini davam etdirmir. Biz istəyirik ki, fond fəaliyyətini bərpa etsin və əvvəlkindən də güclü olsun. Elmar Hüseynovun adına mükafatlar təsis etmək fikrimiz var. Eyni zamanda hər il yazı müsabiqəsi elan edərək, gənc jurnalistlərə stimul vermək, onları bu peşə üzrə daha yaxşı yetişdirmək istəyirik. Elmar Hüseynov Fondunun bütün sənədləri hazırda Ədliyyə Nazirliyindədir. Fondun təsisçisi Şahbaz Xuduoğlunun ofisinə basqın edilən zaman həmin sənədlər götürülüb və hələ də qaytarılmayıb. Sənədlərin qaytarılması ilə bağlı tələblərimiz var. Yalnız bundan sonra fondun fəaliyyətini bərpa etmək olar".

**E.Hüseynov bildirdi ki, indiki hakimiyyətin dövründə Elmar Hüseynovun qatillərinin tapılacağı inandırıcı deyil:** "9 il keçib, məsələ ilə bağlı heç bir irəliləyiş yoxdur, olmayacaq da. Açıq-aşkar görünür ki, indiki hakimiyyətin Elmarın qatillərini və sifarişçiləri tapmaq fikri yoxdur".

Məlumat üçün qeyd edək ki, E.Hüseynov 2005-ci il martın 2-də Bakıda, yaşadığı evin blokunda odlu silahla qətlə yetirilib. İstintaq işini Milli Təhlükəsizlik Nazirliyi araşdırır. Azərbaycanın hüquq-mühafizə orqanları qətldə şübhəli bilinən şəxslərdən ikisinin adını açıqlayıb: Gürcüstan vətəndaşları Teymuraz Əliyev və Tahir Xubanov. İndiyədək onlar tapılmayıb. Qətldən az sonra - 2005-ci il martın sonlarında Turqay Bayramov adlı şəxs saxlanıb. O, qətldə şübhəli bilinən Teymuraz Əliyev və Tahir Xubanova *(Turqay Bayramov Teymuraz Əliyevin xalası oğludur)* saxta sənədlərlə telefon nömrəsi almaqda təqsirləndirilib və Cinayət Məcəlləsinin 320.1 *(sənədlərin saxtalaşdırılması)* maddəsi ilə iki il müddətinə azadlıqdan məhrum edilib. Hüquq-mühafizə orqanlarının versiyasına görə, T.Bayramovun aldığı telefon nömrələrindən Elmarın qətlində istifadə olunub. T.Bayramov 2007-ci ilin martında cəzasını başa vuraraq azadlığa çıxıb.

1967-ci ildə Bakıda anadan olan E.Hüseynov İnşaat Mühəndisləri Universitetini bitirib. Jurnalistikaya 1990-cı illərin əvvəllərində gəlib. Bir neçə rusdilli media quruluşunda çalışan jurnalist daha sonra "Monitor" jurnalını təsis edib. Jurnal əvvəl ayda bir dəfə, daha sonra həftədə bir dəfə nəşr olunub.

Ölümündən sonra Azərbaycanda Elmar Hüseynovun adını daşıyan ictimai qurum - fond yaradılıb. Fondun rəhbəri mərhum jurnalistin xanımı Ruşaniyyə Hüseynovadır. Ruşaniyyə Hüseynova 2006-cı ilin sonlarında oğlu Aslanla birgə Norveçə mühacirət edib.

**❑ Fərahìm İLQAROĞLU**
**Fotolar müəllìfindìr**

# Rauf Mirqədirovla bağlı bəyanata reaksiyalar - jurnalistin Türkiyəyə köçməsinin sirri

**Mehman Əliyev:** "Bəyanat siyasi sənəddir və jurnalist məqaləsinə bənzəyir"
**Azər Rəşidoğlu:** "Rauf ikinci dəfə ailə qurduğu üçün Türkiyəyə köçdü"
**Elçin Şıxlı:** "Mənim razılığım olmasaydı, Rauf Mirqədirov ölkəni tərk edə bilməzdi"

**İyulun 15-də "Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovun istintaqı 4 ay uzadılıb. Ardınca Baş Prokurorluq və Milli Təhlükəsizlik Nazirliyi jurnalistlə bağlı birgə açıqlama yayıblar. Hər iki qurum istintaq zamanı yeni təfərrüatlar meydana çıxdığına görə, ictimaiyyətə geniş açıqlama verməyi məqsədəuyğun olduğunu bildiriblər.**

Bəyanatda istintaq zamanı əldə edilmiş diskə baxış keçirərkən, jurnalistin Laura Baqdasaryan və Araik Şirvanyan adlı şəxslərlə iş birliyinə girərək, dövlətimiz əleyhinə çıxdığı, casusluq etdiyi bildirilib. Bundan əlavə, açıqlamada göstərilir ki, Rauf Mirqədirov 2008-ci ildə "Fridrix Nauman" Fondunun təşkilatçılığı ilə Türkiyədə Gürcüstanın və Ermənistanın nümayəndələrinin də iştirak etdikləri konfransda olan zaman Ermənistanın sabiq mili təhlükəsizlik naziri David Şahnazaryan onunla qapalı görüş keçirib. Həmin görüşdən sonra Rauf Mirqədirovun öz internet yazışmalarında Laura Baqdasaryana Dağlıq Qarabağ probleminin həlli perspektivləri ilə bağlı David Şahnazaryanın fikirləri ilə razılaşdığını bildirdiyi deyilir.

"Rauf Mirqədirov 2008-ci ildən başlayaraq yuxarıda adıçəkilən Baqdasaryan Laura Stepanovnanın rəhbərlik etdiyi "Region" Tədqiqat Mərkəzi ilə əməkdaşlığa başlayıb. "Region" Tədqiqat Mərkəzi tərəfindən jurnalist fəaliyyəti pərdəsi altında 2002-ci ildən başlayaraq, Leyla Yunusovanın təsisçisi və direktoru olduğu, hüquqi qeydiyyatı olmayan Sülh və Demokratiya İnstitutu adlı qurumla əlaqələr yaradılıb" kimi sözlər açıqlamada yer alıb".

**Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunus sözügedən bəyanatla bağlı musavat.com-a bunları dedi:** "Bildiyimiz kimi, Baş Prokurorluq və MTN Rauf Mirqədirovun işi ilə bağlı açıqlama yayıb. Guya ki, Mirqədirov ermənilərə bizim hərbi, energetik-texniki sahələrdə koordinatları, sxemləri barədə bilgilər verib. Bəyanatda gülməli məqamlardan biri odur ki, guya Azərbaycan hakimiyyəti ABŞ-a icazə verib ki, bizim ərazidən İranı vursun. Raufun quru, hava, donanma haqqında məlumatlar ötürdüyü bildirilir. Bütün bunlar heç bir reallığa uyğun deyil".

**"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev açıqlamanın siyasi sənəd olduğunu bildirdi:** "Mənim üçün hər iki qurumun yaydığı sənəd siyasidir. Hüquqi sənəd deyil. İctimai-siyasi vəziyyət haqqında hansı gizli məlumat var ki, onu demək olmaz? Ümumiyyətlə, ictimai-siyasi durumun dövlət sirrinə heç bir dəxli yoxdur. Kimsə bu barədə tədqiqat apara bilər. İndi onları kəşfiyyatçı adlandırmalıyıq? Bu bəyanatı oxuyanda adama elə gəlir ki, hansısa jurnalist bir məqalə yazıb, onu da açıqlama adı ilə mətbuata veriblər".

**Açıqlamanın əsas maraq yaradan hissəsi Rauf Mirqədirovun ölkəni tərk etməsi ilə bağlıdır. Baş Prokurorluqla MTN-in birgə bəyanatında deyilir:** "Casusluq fəaliyyətinin ifşa edildiyini güman edərək 2010-cu il iyulun 29-da təcili olaraq Azərbaycanı birdəfəlik tərk etməklə Türkiyəyə getməsi, həmin ölkədə yaşaması və işləməsini təmin etmək məqsədilə əməkdaşı olduğu "Ayna-Zerkalo" qəzetinin rəhbərliyinin vasitəsilə Türkiyədə akkreditasiya olunması və 2014-cü il 19 aprel, yəni Türkiyədən deportasiya olunduğu tarixədək Azərbaycana qayıtmayıb. Hətta Türkiyənin müvafiq qurumları tərəfindən akkreditasiyası ləğv edildikdən sonra belə Azərbaycana qayıtmaq niyyətində olmayıb. David Şahnazaryanla əlaqə saxlayaraq ailəsinin qayğısına qalınmasını xahiş etməsi əməkdaşlıq etdiyi erməni dairələrinə sığındığını ehtimal etməyə əsas verir".

**Uzun illər Rauf Mirqədirovla bir yerdə işləmiş siyasi şərhçi Azər Rəşidoğlu açıqlamada "Ayna-Zerkalo"nun əməkdaşının Azərbaycanı tərk etməsi ilə bağlı göstərilən fikirlərlə razılaşmadığını bildirərək, onun ölkəmizi tərk etməsi ilə əlaqədar heç yerdə olmayan faktlar açıqladı:** "Rauf Mirqədirovun Azərbaycandan getməsi "casusluq fəaliyyətinin ifşa edildiyini güman etməsi" ilə bağlı deyil. 4 ildir ki, bu barədə susuram. Lakin indi ortada ciddi ittihamlar olduğu üçün açıqlama verməyə məcburam. Rauf ikinci dəfə ailə həyatı qurmuşdu. Bu zəmində müxtəlif ailə münaqişələri olurdu. Rauf istəmirdi ki, söz-söhbətlər uşaqlarının psixi durumuna təsir göstərsin, övladları bu söz-söhbətdən əziyyət çəksin. Odur ki, ikinci ailəsi ilə birlikdə ölkəni tərk elədi. Onun Türkiyəyə getməsinin yeganə səbəbi bu idi. Bunu dəqiq bilirəm".

**"Ayna-Zerkalo" qəzetinin baş redaktoru Elçin Şıxlı R.Mirqədirovun 2010-cu ilin iyulunda Azərbaycanı tərk etməsi ilə bağlı açıqlamada göstərilən fikirləri mənasız hesab etdiyini bildirdi:** "Mən açıq şəkildə etiraf edirəm ki, bilavasitə mənim razılığımla Rauf Mirqədirov ölkəni tərk edib. Razılığım olmadan o, gedə bilməzdi. Dünən yayılan açıqlamada isə guya Raufun əvvəlcədən ifşa ediləcəyini bildiyinə görə ölkəni tərk etdiyi göstərilir. Hər kəsi əmin edirəm ki, bunların hamısı boş söhbətlərdir".




**Onu da qeyd edək ki, Baş Prokurorluğun və MTN-in yaydığı açıqlama ilə bağlı iyulun 17-də Rauf Mirqədirovun müdafiəçiləri bəyanat veriblər. Bəyanatda hər iki qurumun verdiyi açıqlama dəlil sübutlarla ifşa edilib. Bəyanatın əsas diqqət çəkən hissəsi bunlardır:** "Avropa İnsan Hüquqları Məhkəməsi dəfələrlə Azərbaycan Respublikasına qarşı şikayətlər üzrə İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi haqqında Konvensiyanın 6 (2) maddəsinin, yəni təqsirsizlik prezumpsiyası hüququnun pozulmasını müəyyən etmişdir. Buna əsas ölkənin hüquq-mühafizə orqanlarının məhkəmə hökmü olmadan insanları müxtəlif cinayətlər törətməkdə təqsirli göstərən bəyanatlar verməklə, ictimaiyyəti yanıltma, işə gələcəkdə baxacaq məhkəmələrə isə nəticənin hansı şəkildə olacağına dair ismarışlar vermələri olmuşdur. Dəlil və sübutların vətəndaşların təqsirliliyini deyil, təqsirsizliyini təsdiq etməsini görən prokurorluq və başqa orqanlar öz səhvlərini etiraf etmək, aylarla, bəzən illərlə əsassız məhbus həyatı keçirən şəxsləri azad etdirərək onlardan üzr istəmək əvəzinə tez-tez bu yola - insanı məhkəmədən öncə faktiki məhkum etmə yoluna üstünlük verirlər".

R.Mirqədirov bu il aprelin 19-da Türkiyədə saxlanılaraq Azərbaycana deportasiya olunub. Əvvəlcə onun barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçilsə də, iyulun 15-də bu müddət daha 4 ay uzadılıb. O, Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsinə əsasən ittiham olunur. Bu maddə üzrə onu ömürlük, yaxud 15 ilə qədər azadlıqdan məhrum etmə cəzası gözləyir.

**❑ Cavanşìr ABBASLI**

YENİ MÜSAVAT
N 182 (5891) 18 iyul 2014

**Gürcüstanda tutulan 3 ton heroin məsələsi İran və Azərbaycan arasında xoşagəlməz söz-söhbətin yaranmasına səbəb olub. Belə ki, İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin mətbuat xidmətinin rəhbəri Seyid Məhəmməd Ayətullahi Azərbaycan parlamentinin təhlükəsizlik və müdafiə komitəsinin üzvü Zahid Orucun İranı narkotik maddələrin tranzitinə kömək etməkdə ittiham etməsinə etiraz bildirib.**

# Zahid Oruca görə İran nota verməyə hazırlaşır

## Deputat İran səfirliyinin bəyanatına cavab verdi


Zahid Oruc

**Səfirlikdən musavat.com-a daxil olan açıqlamanın mətnində bildirilir ki, səfir bu ittihamları əsassız sayaraq deyib:** "Təəssüflər olsun ki, bəzi ünsürlər İranı ittiham etməklə ümumi rəyi çaşdırmaq və diqqəti Azərbaycan Respublikası ərazisindən Gürcüstana narkotik maddələrin tranzit edənlərdən yayındırmaq niyyətindədirlər. İran İslam Respublikası narkotik qaçaqmalçılığı ilə mübarizədə ən bacarıqlı ölkələrdən biridir. Ölkəmiz dəfələrlə narkotik maddələrin Avropa ölkələrinə daşınmasının qarşısını almış və bu yolda çoxlu şəhidlər vermişdir. İran İslam Respublikası bir neçə dəfə narkotik maddələrin qaçaqmalçılığına qarşı birgə mübarizə aparmaq üçün Azərbaycan Respublikasına müraciət edib, lakin hələ də heç bir cavab almayıb".

Səfir əlavə edib ki, Zahid Oruc bu məsələdə İranı ittiham etdiyinə görə Azərbaycanın Xarici İşlər Nazirliyinə etiraz notası təqdim ediləcək.

**Zahid Oruc "Yeni Müsavat"a deyib ki, İran tərəfini təlaşa salan müsahibəsində bu dövlətin buna qədər həmin məsələ ilə bağlı yürütdüyü siyasətdən danışıb:** "Məsələ ilə bağlı daha gərəkən əməliyyatların, araşdırmaların aparılması, təhqiqat nəticəsində daha mötəbər məlumatların verilməsinə, hətta rəsmi açıqlamanın olacağına da işarə etmişdim. İran səfirliyinin bu cür tələm-tələsik nota ilə çıxış etməsi, bir parlament üzvünün çıxışından guya narahat olaraq hərəkətə gəlməsinin səbəbləri tamamilə başqadır. Məsələ ondadır ki, pərdələnən, illərlə Azərbaycan insanına qarşı həyata keçirilmiş "ağ ölüm" siyasətinin müəllifi İranın özüdür!"

**Z.Oruc son aylar ərzində İran səfirliyinin öz siyasi təmsilçisi vasitəsilə onunla görüş istədiyini və bu görüşün baş tutduğunu açıqladı:** "Açıq siyasət, demokratiya tərəfdarı olduğumuzdan hansısa İran parlamentinin üzvü, hökumət rəsmisinin ən yuxarı instansiyalardan icazə alaraq görüşə can atdığı halda mən bunu çox normal qarşıladım. İllərdir ki, bizlərə qarşı fərdi bir embarqo tətbiq edirdilər sanki. İran-Azərbaycan münasibətlərinə dair ilişkilər haqda fikirlərimizi, tövsiyələrimizi almaq istəyən tərəf məni nədəsə suçlamaqda məntiqsiz görünür. Axı olanlar prinsiplərlə işləməyən bir parlament üzvü ilə niyə görüşürdülər ki?!"

**Z.Oruc İran dövlətini bütövlükdə Azərbaycana qarşı qəsddə suçlandırmadığını dedi:** "Hərçənd keçmişdə buna dair də əsaslar olub. Mən ümumən arzumu ifadə etmişdim ki, qonşu dövlətlər, xüsusilə də böyük bir gücə malik olan İran dövləti ilə ölkəmiz arasında əlaqələr, münasibətlər yaxşı olsun. İranın siyasi çinovniklərindən ölkəmiz əleyhinə, xüsusilə ETTELAAT-ın əli ilə bizim respublikamızda casus axtarışları, hər bir yəhudi İrana qarşı potensial təhlükədir, Xəzər akvatoriyasında görülmüş bütün işlər İranın maraqlarına zərbədir formulundan çıxış edənlər olubsa, biz bunları ayrı cür necə qiymətləndirək?"

**Deputat deyir ki, son narkotranzit əməliyyatı ilə bağlı daha mötəbər məlumatlara malikdir. O, İranı uzun illər ərzində narkotik tranzitini əsas hədəf olaraq həm də Azərbaycana, Gürcüstan azərbaycanlılarına və digər ölkələrə yönəltməklə məşğul olmaqda suçladı. Z.Oruc deyir ki, İranda narkotik istifadəçilərinə qarşı sərt cəzalar tətbiq edildiyi bir vaxtda Əfqanıstandan İran üzərindən narkotik daşınmasına bunca "səxavətlilik" göstərilməsinin səbəbi başadüşülən deyil:** "Azərbaycan uzun illər ərzində İranın bu setini ifşa edib. Bu məsələlərlə bağlı hökumət xətti ilə getmiş gizli yazışmalara söykənərək deyirəm - İran bu məsələdə suçludur! Bu, sadəcə, özfəaliyyət deyil. İran Əfqanıstanda bu plantasiyaların salınmasında, sonradan Azərbaycan kimi ölkələrə, Avropaya göndərilməsində maraqlıdır!!! Bu maraq təkcə maddi fayda deyil, Azərbaycan insanına qarşı bir qəsd proqramları mövcuddur!!! Bu, İranın məxfi doktorinalarında ifadə olunub! Bu, Azərbaycan hakimiyyətinə bəlli məsələdir. Belə olan təqdirdə bir parlament üzvünün mövqeyinə qarşı nota ilə çıxış etmək, guya bununla Azərbaycandan sorğu tələb etmək prinsipsizlikdir. İranın notasını əsassız hesab edirəm. O notaya qarşı cildlərlə sənədləri təqdim edib İrana göndərmək mümkündür".

Z.Oruc Gürcüstan rəsmilərinin həmin yükün Ermənistandan ölkələrinə daxil olması haqda məlumatla tanış olduğunu və Gürcüstanda dövlət qurumları arasında koordinasiyanın son dərəcə bərbad vəziyyətdə olması qənaətinə gəldiyini də söylədi.

Qeyd edək ki, iyulun 11-də Gürcüstan Daxili İşlər Nazirliyi Əfqanıstandan İran və Azərbaycan üzərindən tranzitlə 2 ton 790 kiloqram saflaşdırılmış heroin daşınmasının qarşısının alındığını açıqlayıb. Azərbaycan Respublikası Parlamentinin üzvü Zahid Oruc "Yeni Müsavat" qəzetinə verdiyi müsahibəsində Azərbaycan Respublikası ərazisindən Gürcüstana keçən narkotik maddələrin tranzit edilməsində İran qurumlarını ittiham etmişdi.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Gürcüstanın Vergi Xidməti düzəliş verdi

## "3 ton heroin Azərbaycandan keçib"

**Gürcüstanın Vergi Xidməti bu ölkənin sərhədində tutulan 3 ton heroinlə bağlı açıqlamasında səhvə yol verildiyini və səhvin aradan qaldırıldığını bildirir. Virtualaz.org saytı gürcü qaynaqlarına istinadən xəbər verir ki, Vergi Xidməti 3 ton heroinin Gürcüstana Ermənistandan keçirildiyinə dair iyulun 11-də yaydığı press-relizin mətnində tərcümə səhvinə yol verildiyini açıqlayıb.**

Belə ki, press-relizin gürcü dilindəki variantında narkotikin Gürcüstana Azərbaycandan keçirildiyi göstərilib. İngilis dilinə tərcümədə isə texniki səhvə yol verilib və narkotikin Ermənistandan keçirildiyi yazılıb.

Vergi Xidməti səhvin aradan qaldırıldığını və 3 ton heroinin Gürcüstana Azərbaycandan daxil olduğunu bildirir.

Xatırladaq ki, Gürcüstanın Vergi Xidmətinin narkotikin Ermənistandan keçirildiyinə dair açıqlamasını xidmətin rəsmi saytında iyulun 11-də yayılmış ingilis dilində press-relizdə qeyd olunmuşdu. Bundan əvvəl Gürcüstanın daxili işlər naziri Aleksandr Çkeidze keçirdiyi mətbuat konfransında narkotikin əfqan mənşəli olduğunu, İran və Azərbaycandan keçərək Gürcüstana daxil olduğunu açıqlamışdı. Aleksandr Çkeidze demişdi ki, Azərbaycan tərəfinin "əməliyyat tədbirləri çərçivəsində" bu narkotikdən xəbəri olub.

❑ **E.HÜSEYNOV**

# Ekspertlər TQDK-nın qərarını dəyərləndirdilər

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) ali məktəblərə qəbulda müsabiqə şərtlərinə dəyişiklik edib. Belə ki, I ixtisas qrupu üzrə ixtisas seçimində ümumi balı 150-dən, hər hansı bir imtahan fənni istisna olmaqla qalan dörd imtahan fənninin hər biri üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan müsabiqə şərtlərini ödəmiş abituriyentlər iştirak edə bilərlər.**


**Məlahət Mürşüdlü:** "Keçid balının aşağı salınması birbaşa təhsilin səviyyəsi ilə bağlıdır"


**Etibar Əliyev:** "Bunun səbəbi abituriyentlərin aşağı nəticə göstərməsidir"

Ümumi balı 300 və daha çox olan abituriyentlərin ixtisas seçiminə buraxılmaları üçün onların fənlər üzrə cavablarına nisbi bal məhdudiyyəti tətbiq olunmur. Dövlət sifarişli ixtisasların müsabiqəsində ümumi balı 250-dən, hər bir imtahan fənni üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan abituriyentlər iştirak edə bilərlər. IV ixtisas qrupu üzrə ixtisas seçimində ümumi balı 150-dən, hər hansı bir imtahan fənni istisna olmaqla qalan dörd imtahan fənninin hər biri üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan abituriyentlər iştirak edə bilərlər. Ümumi balı 300 və daha çox olan abituriyentlərin ixtisas seçiminə buraxılmaları üçün onların fənlər üzrə cavablarına nisbi bal məhdudiyyəti tətbiq olunmur. Dövlət sifarişli ixtisasların müsabiqəsində ümumi balı 300-dən, hər bir imtahan fənni üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan abituriyentlər iştirak edə bilərlər. Azərbaycan Dövlət Aqrar Universitetinin I və IV qruplar üzrə ixtisaslarını ümumi balı 150-dən az olmayan abituriyentlər seçə bilərlər *(fənlər üzrə cavablara nisbi bal məhdudiyyəti tətbiq olunmur)*.

Artıq bir neçə ildir ki, qəbul imtahanlarında keçid balları aşağı salınır. Maraqlıdır, keçid ballarının aşağı salınması nədən xəbər verir? Təhsilin səviyyəsinin ildən-ilə pisləşdiyindənmi?

**Təhsil eksperti, Azad Müəllimlər Birliyinin sədri Məlahət Mürşüdlü hesab edir ki, keçid balının aşağı salınması birbaşa təhsilin səviyyəsi ilə bağlıdır:** "Biz artıq iki ildir ki, keçid ballarının 150-yə endirildiyini müşahidə edirik. Bu da sözsüz ki, orta məktəblərdə şagirdlərimizin bilik səviyyəsi ilə bağlıdır. Elə ixtisaslar var ki, onlarda mütləq keçid balının müəyyənləşdirilməsi vacibdir. 150 bal isə çox aşağı həddir. Bizim orta məktəblərdə şagirdlərimiz müəyyən fənlər üzrə yüksək nəticələr, hətta buraxılış imtahanlarında da yüksək nəticə göstərə bilmədilər. Bu da müəllim hazırlığı, təhsilin, təlimin məzmunu ilə bağlıdır. Təhsil Nazirliyi bu sadaladığımız istiqamətlərin keyfiyyətinin yaxşılaşdırılması üzərində çalışır və bu, Təhsil Nazirliyinin qarşısında duran əsas məsələdir. Bu istiqamətdə artıq müəyyən addımlar atılıb. Müəllimlərin sınaq qiymətləndirilməsi, dərsliklərin yeni qiymətləndirmə şurasının yaradılması, məktəb direktorlarının işə qəbulunda yeni üsullardan istifadə edilməsi birbaşa təhsilin keyfiyyətinə təsir edən amillərdir. Bir neçə ildən sonra biz bu tədbirlərin səmərəsini görəcəyik".

**Yüksək bal yığan abituriyentlərin təhsil almaq üçün xarici ölkələrə üz tutmasına gəlincə, ekspert yüksək səviyyəli uşaqların istedadlarının bizim universitetlərdə ala bilmədiyini dedi:** "Hər bir yüksək bal toplamış məzunun arzusudur ki, mükəmməl təhsil alsın. Onların xarici universitetlərə üz tutmasının səbəbi bizim universitetlərimizin Avropa standartlarına cavab verən kadr hazırlamaq səviyyəsində olmamasıdır. Bizim universitetlərdə professor, müəllim heyətinin də müasir tələblərə cavab verə bilməməsi, təhsil ocaqlarının müasir texniki bazasının olmaması da universitetlərin yüksək səviyyəli təhsil verməsinə mane olur. Buna görə də yüksək bal toplamış məzunları başa düşmək olar. Onlar 21-ci yüz ilin insanı, kadrı olmaq istəyirlər. Məsələn, bir nümunə çəkim ki, 4 il bundan əvvəl Tibb Universitetinə yüksək balla daxil olmuş bir gənc qız bir il bu universitetdə oxuya bilmədi. O dedi ki, mən istədiyim biliyi burada ala bilmirəm. Həmin qız universiteti tərk etdi. Türkiyəyə gedib yenidən imtahan verdi və təhsilini orada davam etdirdi. Yəni yüksək səviyyəli uşaqlar istədikləri təhsili bizim universitetlərdə ala bilmirlər. Biz uşaqlarla söhbətimizdə də bunun şahidi olmuşuq".

**Digər təhsil eksperti Etibar Əliyev isə "Azadlıq" qəzetinə verdiyi açıqlamada keçid ballarının aşağı salınmasının səbəbini abituriyentlərin aşağı nəticə göstərməsində gördüyünü deyib:** "I və IV qruplarda keçirilən qəbul imtahanlarından öncə keçirilən buraxılış imtahanlarının nəticələri burada özünü göstərməyə bilməzdi. Məzunların böyük əksəriyyəti ən sadə variantda keçirilən imtahanlarda "2" və "3" qiymətləndirilmişdilər. Bu amil sualların biləröəkdən çətinləşdirilməsi haqqında söz-söhbətlərə son qoyur. Yeni 8 suala cavab verib 3 qiymətini ala bilməyənlər, şübhəsiz ki, 25 suala, özü də bir qədər çətin suallara cavab verib yaxşı nəticələr qazana bilməzlər".

❑ **Günel MANAFLI**

# Qocaman YAP-çı partiya rəhbərliyindəki şəxslərə hücuma keçdi

## “Əli Əhmədovla bir kənddən olsam, pasportumu cırardım”

**“Maksim Musayev qocalıb. Əsl azərbaycanlılar yaşlandıqca müdrikləşirlər. Bəziləri isə yaşlandıqca ağıllarını itirir. Görünür, Maksim Musayev də müdrikləşənlərdən deyil”.**

Bu fikirləri aktual.az-a YAP icra katibinin müavini, deputat **Siyavuş Novruzov** Milli Məclisin və YAP Siyasi Şurasının keçmiş üzvü, Xızı rayonunun sabiq icra başçısı olan Maksim Musayevin son müsahibəsindəki tənqidlərə münasibət bildirərkən deyib. Onun sözlərinə görə, Maksim Musayevin Yeni Azərbaycan Partiyasında (YAP) heç bir rolu olmayıb:

“Maksim Musayev vaxtilə ümummilli lider Heydər Əliyevin Ali Sovetə namizədliyi irəli sürüləndə, ona alternativ olaraq, Etibar Məmmədovun namizədliyini dəstəkləyib. İndi də gəlib Heydər Əliyevdən danışır. Bütün bunlar Azərbaycan xalqının gözü qarşısında olan proseslərdir. Hətta 1998-ci ildə atası ilə bir yerdə Mehdiabadda təbliğat aparırdı ki, insanlar Etibar Məmmədova səs versin. Mehdiabadda olan qərbi azərbaycanlılar bunu döyüb oradan qovmuşdular. İndi elə bilir ki, bütün bunlar insanların yadından çıxıb”. **S.Novruzov qeyd edib ki, M.Musayevin haqqında danışdığı Eldar İbrahimov və Əli Əhmədov YAP yaranmamışdan qabaq Heydər Əliyevə müraciət edən insanlardır:** “Maksim Musayevin adı o siyahıda yoxdur. Mən özüm 90-cı illərdən ümummilli liderin yanında olan insanam. Açıqlamasında dünyasını dəyişmiş Fərəməz Maqsudovun, Rəfael Alahverdiyevin və Sirus Təbrizlinin adını çəkir. O insanlar bunu heç adam yerinə saymırdılar. Özünü onların cərgəsinə qoşmasın. Adlarını çəkdiyi insanlar partiyanın yaranmasında xidmətləri olan şəxsiyyətlərdir. Bir nəfər həyatda olan insanın adını çəksin və siz ondan soruşun ki, Maksim Musayevin partiyada rolu nədən ibarət olub?”

Xatırladaq ki, M. Musayev bildirib ki, o, heç vaxt YAP-ın özünə qarşı çıxmayıb, amma partiyanın rəhbərliyində yer alan şəxsləri, daha konkret desək, Əli Əhmədovu, Eldar İbrahimovu və Siyavuş Novruzovu tənqid edib.

*S.Novruzovun dediklərinə isə M.Musayev “Yeni Müsavat”da sərt reaksiya verdi və müsahibəsində YAP rəhbərliyini topa tutdu:*

- Mən Siyavuş Novruzov kimi adamların boş-boş danışmasına cavab verməyəcəyəm. Özümə layiq bilmirəm ki, belə bir adama cavab qaytaram.

***- Amma Siyavuş Novruzov deyib ki, Maksim Musayev vaxtilə Heydər Əliyevin Ali Sovetə namizədliyi irəli sürüləndə, ona alternativ olaraq, Etibar Məmmədovun namizədliyini dəstəkləyib, 1998-ci ildə atası ilə bir yerdə Mehdiabadda təbliğat aparıb ki, insanlar Etibar Məmmədova səs versin...***

- Onda bunu da yaz: bu, Əli Əhmədovun fırıldaqlarının bir variantıdır. Mənim atam Talıb Musayevlə Əziz Əliyev Moskvada bir yerdə oxuyub, münasibətləri də çox yaxşı olub. Bu barədə o da, mən də kitablarımızda yazmışıq. Heç bir vaxt biz nə Əziz Əliyevin, nə Heydər Əliyevin, nə də İlham Əliyevin əleyhinə gedə bilmərik, getməmişik. Bundan sonra da onların əleyhinə gedənlərlə mübarizə aparacağıq. Bu, Əli Əhmədovun uydurmasıdır. O, Siyavuş Novruzova deyib, o da çərənləməyə başlayır. İndi mən sizə olduğu kimi danışım. Ən yaşlı təəssübkeşlər mənim atam və anam olub. Çünki o vaxt gərək 1000 nəfər təəssübkeş olaydı ki, partiya yaransın. O dövrdə təəssübkeş tapmaq mümkün deyildi. Ona görə də bizim ailədən 10 nəfərə yaxın yazdıq və həmin sənəd bu dəqiqə də qalır, Şahlar Əsgərovun arxivindədir. O vaxt Əli Əhmədov yenə fırıldaq işlədirdi. Biz bunu bilirdik ki, o, fırıldaqçıdır, ancaq üstünü vurmurduq. Elə bir vəziyyət yarandı ki, 1998-ci ildə Etibar Məmmədovun da namizədliyini verdilər. O dövrdə bu, Mehdiabadda qurğu qurmuşdu ki, hər hansı vasitə ilə olursa-olsun - bu, ilk dəfə sizin qəzetdə səslənir - mənə və atama zərbə vursun. Çünki bunlar nəslən mərdiməzar, paxıl, xain və eyni zamanda tələqurandırlar...

***- Maksim müəllim, birtərəfli qaydada çox sərt, təhqiramiz ifadələr işlədirsiniz...***

- *(Yarımçıq kəsir)* Yox. Mən və mənim danışıqlarımda əgər Azərbaycan qrammatikasından, ensiklopediyasından, sinonimlərindən uzaq bir şey olsa, o, məni məhkəməyə də verər, cavabımı da qaytarar. Mən nə danışdığımı bilirəm.

***-Amma baxmayaraq ki, indiyə qədər kəskin ifadələr işlədibsiniz, amma Əli Əhmədov bir kəlmə də cavab verməyib, sizin ifadələrə qarşılıq verməyib, dinməyib...***

- O, dinə bilməz axı. O, təpədən-dırnağa kimi saxta və eyni zamanda fırıldaq bir adamdır. Özü də mən bilirəm kimin haqqında danışıram. Mən bilirəm ki, İlham Əliyevin sərəncamı ilə baş nazirin müavini təyin edilən adam haqqında fikir söyləyirəm. Xahiş edirəm bunu da yazın. Onun iç üzünü açıb göstərmək istəyirəm ki, gələcəkdə o adam İlham Əliyevə də zərbə vura biləsi şəxsdir.

***- Amma hətta 91-lərin üzvü Ariz Abduləliyev belə deyir ki, Maksim Musayev faktla danışmır və ittiham edir.***

- O adamı mən tanımıram. Amma mənim adımdan təşəkkürümü yazın ki, o, haqqımda çox yüksək fikirlər söyləyib. Hansı ki, onunla indiyədək söhbət belə etməmişəm, tanımıram. İnsanların sifətlərində dəyişiklik olduğu kimi fikirlərində də dəyişiklik olmalıdır. Amma mən faktlarla danışıram. Əgər o, ayrı faktları da eşitmək istəyirsə, gəlsin, söhbət eləyək. Özü də yaxşı ki, yazmısınız ki, Maksim Musayev cəbhədə tək qalsa da, mübarizə aparır. Heç mən düşünmürdüm ki, tək mübarizə aparıram. Amma siz bunu tapmısınız, sağ olun ki, qiymət verirsiniz.

***- Faktiki olaraq sizi müdafiə edən yoxdur. Tək qalmağınızın fərqindəsinizmi?***

- Mən mübarizə aparacağam. Hara kimi gedəcəyəm, bilmirəm. Ruslar deyir ki, müharibə meydanında bir əsgər də müharibə aparıb qələbə qazana bilər. Mən də Heydər Əliyevin əsgərlərindən biriyəm. Bu mübarizliyi mənə atam öyrədib. Hansı ki, uzun illər ermənilərin içində vitse-spiker işləyib, Mərkəzi Komitənin namizədi olub. İkincisi, mən Heydər Əliyevdən öyrənmişəm. Axıra kimi mübarizəmi aparacağam. Ancaq başqa metodlardan istifadə etsələr, ona da hazırlaşmışam. İstəyir gedib kimlərəsə nəsə desinlər. Bu “troyka” özlərini çox yırtıb, cırıb nəsə etməyə çalışacaq. Amma Əli Əhmədov üzə çıxa bilmir. Çox xahiş edirəm bunu da yazın, onda mərdlik, hünər varsa, çıxıb iki kəlmə desin. Eşitmişəm bir dənə Qarabağ əlilini də ortaya salıb. Ya Eldar İbrahimovu, başqasını qabağa verir. Əgər qabiliyyəti, dəyanəti varsa, özü qabağa çıxsın. İndi belə bir adamı Rasizadə kimi talantlı bir adama müavin vermək...Gör indi Rasizadə üçün nə qədər çətindir. Mən Artur Rasizadəni 1970-ci ildən bəri tanıyıram. Onu təsdiq edəndə mənim Milli Məclisdə 9 dəqiqə çıxışım olub. Rəhmətlik Murtuz müəllim söz verməsə də, mən icazə alıb çıxış etdim. İndi gör Rasizadə kimi bilikli, qabiliyyətli, təmkinli adama gətirib Əli Əhmədovu müavin təyin ediblər, gör baş nazir nə qədər ağır vəziyyətdədir.

***- Hər halda, onu ölkənin rəhbəri təyin edib. Siz də prezidentə sadiq olduğunuzu deyirsiniz...***

- Başa düşürəm, o təyin edib. Onun sərəncamına da həmişə baş əymişik. Ancaq bu məsələdə mən İlham Əliyevlə razılaşa bilmərəm. Müstəqil dövlətdə yaşayırıq, müstəqil əqidəli adamlarıq. Biz deyirik ki, demokratik dövlətik. Bəli, demokratik dövlətiksə, fikrimizi söyləməliyik. Əli Əhmədov, baş nazirin müavini tənqid oluna bilməz? Heydər Əliyev heç vaxt özünün nöqsanlarından danışmırdı. Ancaq o da çıxışında dedi ki, mən kadr siyasətində bəzi səhv buraxmışam. Mən də hesab edirəm ki, gərək Artur Rasizadə Əli Əhmədovla işlədiyi üçün ehtiyatlı olsun.

**“Məni prokurorluğa çağırıb 8 saat saxlayandan sonra İxtiyar Şirinov birbaşa sanksiya verəndə hardaydı bu Eldar İbrahimov, Siyavuş Novruzov?”**



**Maksim Musayev: “Gərək Artur Rasizadə Əli Əhmədovla işlədiyi üçün ehtiyatlı olsun”**

***- Bildiyimizə görə, Əli Əhmədovla bir kənddənsiniz...***

- Qətiyyən, Allah eləməsin. Onunla bir kənddən olsam, pasportumu cırardım. Biz İrəvan elinin oğullarındanıq. Onun öz əqidəsi var, mənim öz əqidəm. İstəməzdim ki, özüm, ya qohumlarım elə bir əqidəli insan olsun. Bunlar hamısı açılacaq.

***- Sizin nə bölünməyən malınız olub zamanında ki, münasibətlər belə kəskinləşib?***

- Mən belə bir adamı hesaba da almamışam. Sadəcə, Heydər Əliyevə və İlham Əliyevə görə dinməmişəm, danışmamışam. Ancaq YAP-dakı vəziyyət məni narahat edir. Çünki biz YAP-ı yaradanda, Azərbaycanı bu ağır vəziyyətdən çıxarmaq üçün çalışanda onlar yox idilər, əleyhimizə işləyirdilər. Biz Şahlar Əsgərovla üzbəüz yaşamışıq. Elə anlar olub... Sirus Təbrizlini tutmaq istəyiblər, 38 gün gizlənib, mənimlə Şahlar müəllim evimizdə soyuducuda olanı - o zaman onsuz da bir şey yox idi - aparmışıq, Sirus Təbrizli ilə görüşək ki, bazara-zada gedə bilməz, evdə çətinlik yaranar. Zahid müəllim *(Qaralov-E.P.)* çox yaxşı bilir, niyə susur? Heydər Əliyevi Müdafiə Komitəsi yaradanda Zahid müəllim də vəzifədə idi, mən də. Xızıda idim, dedilər Heydər Əliyevə sui-qəsd təşkil olunur. Öyrəndim, dedilər Zahid müəllim var, Hökumət Evinin arxasında institutun direktorudur. Getdim ora, pərdəli dövlət maşını ilə getdim. İçəri dolu idi, Zahid müəllim camaata danışırdı ki, Heydər Əliyevə qarşı olanlarla mübarizə aparmalıyıq. Mən də getdim, yer verdi oturdum. Dedim, Zahid müəllim, gəlsənə Heydər Əliyevi Müdafiə Komitəsi yaradaq. O dəqiqə götürüb yazdı ki, “başda birinci komitə sədri mənəm”. Mən, Munis Bayramov yazıldı. Bunlar onda hardaydılar? Məni prokurorluğa çağırıb 8 saat saxlayandan sonra İxtiyar Şirinov birbaşa sanksiya verəndə hardaydı bu Eldar İbrahimov, Siyavuş Novruzov? Sənədlər var. 1999-cu ildə baş prokuror Eldar Həsənova zəng etdim. Dedim, 1992-ci ilin aprelində məni çağırıb həbs etmək istəyirdilər. Onda izahatımda yazmışam ki, məni tutsanız da, öldürsəniz də Heydər Əliyevin arxasından qaçmayacağam. O sənədlər dururmu?

Dedi, Maksim müəllim, 1 saat vaxt verin, yoxlatdırım, sizə deyəcəyəm. Sonra zəng edib bir zarafat da elədi. Dedi, Maksim müəllim, sizdə şübhə var idi ki, prokurorluqda hansısa sənəd itə bilər? Həmin sənədlər mənim stolumun üstündədir. Sizin imkanınız varsa, o sənədi çıxarın, qoyun ortaya... Bunlar yatıblar, dünyadan xəbərləri yoxdur. Mən faktlarla danışıram.

***- Belə fikirlər var ki, Maksim Musayevin arxasında hansısa bir qüvvə var və ona arxalanıb danışır...***

- (Gülür) Mənim gücüm, qabiliyyətim, qüvvəm atamın, Heydər Əliyevin mənə verdiyi mübarizlikdir. Mənim gücüm, qüvvəm Azərbaycan xalqının milli ruhlu, vətənpərvər oğlanlarıdır, ay sənə quzu kəsim. Siyavuşlar, eldarlar, əli əhmədovlar deyil. Mən bilirəm arxamda hansı qüvvə dayanıb. Ona görə də baxmayaraq ki, vəzifələri də böyükdür, titulları çoxdur, amma mən onlarla mübarizəyə girişmişəm. Mən bilirəm nə danışıram. Özü də mən bu danışığımla yalnız İlham Əliyevi müdafiə etmək prinsipinə əsaslanıram. Çünki İlham Əliyevin arxasında dayanan, ona dəstək verən, xidmətində olan adamlardan biriyəm. Çünki İlham Əliyevin xidmətlərini bu günə qədər heç bir YAP-çı düzgün qiymətləndirib camaata çatdırmayıb. Qoy mənə bircə saatlıq imkan versinlər, televiziyaya çıxım, mən İlham Əliyevin Azərbaycan xalqı və dövləti üçün hansı işlər gördüyünü sadalayım. Onda qoy Siyavuş da, Eldar da, Əli Əhmədovu da utansın. Bunlarda o qabiliyyət yoxdur, ona görə də çalışırlar ki, düz, halal danışanın, İlham Əliyevin tərəfini saxlayan adamların ağzını “skoç”lasınlar, mumlasınlar, qorxutsunlar. 1998-ci il hadisələrini ki, açıb çıxartdı. Mən bundan sonra Əli Əhmədovun 90-cı illərdəki əməllərini açıb tökəcəyəm. İndi ilk dəfədir ki, bu sualı sən mənə verirsən, mən məcburam onun iç üzünü açım. Vaxt gələcək o, İlham Əliyevə qarşı da belə mənfi hərəkətlər edəcək.

***- Nədənsə mənə elə gəlir ki, sizin YAP-dan çıxarılmağınıza çox qalmayıb...***

- Məni YAP-dan uzaqlaşdıra bilərlər. Amma məni Heydər Əliyev partiyasından, Heydər Əliyevə, İlham Əliyevə sədaqətlilikdən uzaqlaşdıra bilməyəcəklər. Onların metodu nədən ibarətdir, onlar çalışırlar ki, respublikada gərginlik, söz-söhbət yaransın və həmin söz-söhbəti guya özləri aradan qaldırırlar və İlham Əliyevi müdafiəyə keçirlər. Əksinə, bu ölkədə söz-söhbəti də yaradan, gərginliyi də yaradan onlardır. Onların heç birinin siyasi cəhətdən üç qəpiklik savadı yoxdur. O çıxışlarımdan sonra küçədə görən kimi hamı mənə təşəkkür edir. Nə küçə-bazara, nə mağazaya çıxa bilmirəm. Görən kimi deyirlər nə yaxşı ki, o Siyavuşun cavabını vermisən. Onlardır mənim arxamda duran. Onlar məni məhkəməyə versələr məhkəməyə də hazıram. Əli Əhmədovda o sədaqət yoxdur. Nə olsun 91-lərin sırasındadır. 91-lər haqqında mənim deyiləsi sözlərim var. Lazım gəlsə, onları da deyəcəyəm...

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 182 (5891) 18 iyul 2014



# Permanent erməni hiylələri

**Samir SARI**

**Sanasan, biyaban əqrəbidirlər, hansı daşı qaldırırsan, altından çıxırlar. Biz bunlarla nə edək, nə qayıraq, hara köçək? 39-42-ci paralellərdən başımızı götürək hara qaçaq? Tundrayamı gedək, Alyaskayamı sığınaq?**

Budur, kimin ağlına gələrdi ki, 3 ton heroin məsələsi əslində ermənilərin işiymiş, amma bizim boynumuza atmaq istəyirmişlər. Özü də görün, bunlar bunu kimə edirlər? Nəinki regionda, hətta dünyada cibə nəşə atıb-tapmaq üzrə ad çıxaran bizə. 5 qram deyil, 10 qram deyil, heç cibə də 3 ton heroin atarlarmı?

Amma ermənilər bunu da etdi. Yox, bunların əlindən yaşamaq bizə haramdır.

Bir öz regionumuzda deyil, dünyanın hər tərəfində ermənilər bizə badalaq vururlar. Keçən il Meksikada ümummilli heykəlimizin parkdan götürülməsində, bişəkk, erməni barmağı vardı, uzaq olduğu üçün gedib araşdıra, ortalığı qarışdıra bilmədik.

Beş-altı il qabaq Avropa Şurası Parlament Assambleyasında Andreas Qrossun eyzən bizim əleyhimizə danışması erməni faktoru ilə bağlıydı, şanlı deputatımız Rəfael Hüseynov "Andronik Andreasın içində" başlıqlı yazı yazaraq onu vaxtında ifşa etdi.

Fransanın eks-prezidenti Sarkozinin Türkiyəyə və Azərbaycana qarşı atdığı addımlarda erməniləri rolu olduğu bütün dünyaya məlumdur, sübuta ehtiyacı yoxdur. Deyəsən, yeni prezident Ollandın böyür-başında da xeyli məkrli erməni var, o da arada "dra-dra" deyir.

Hələ tam araşdırmamışıq, amma keçən il Moskvada gənc rusu bıçaqlayan, hazırda məhkəməsi gedən Orxan Zeynalovun erməni fitnəsinin qurbanı olduğu versiyası üzərində işləmək lazımdır. Görərsiniz, bu işdən mütləq erməni barmağı çıxacaq.

Bütün bəlalarımızın günahı ermənilərdir. Türkiyə camaatının problemlərinin qaynağı masonlar olduğu kimi, bizimki də onlardır.

Düzdür, ermənilər də oturub-durub deyirlər ki, bütün dərd-bəlalarının səbəbkarı azərbaycanlılardır, amma göydə Allah var, məgər biz əlimizdə tutulan 3 ton heroini onların üstünə atırıq?

Xeyr. Amma onlar hər fürsətdə çalışırlar ki, iqtisadi inkişaf tempimizi ləngitsinlər, beynəlxalq arenada qazandığımız uğurlara kölgə salsınlar, demokratik ölkəmizin reputasiyasına xələl gətirsinlər, insan hüquqları sahəsindəki nailiyyətlərimizi ört-basdır eləsinlər və sair və ilaxır.

Təəssüf ki, öz ölkəmizdə də erməni dəyirmanına su tökənlər var. Əvvəllər onlar bunu vedrələrlə, sisternlərlə edirdilər, amma sonra erməni dəyirmanına boru xətti çəkməyə çalışdılar, amma ayıq-sayıq hökumətimiz kanalın qarşısını kəsərək erməni dəyirmanının daimi su ilə təchiz edilməsi planını pozdu.

25 ildir ki, vəziyyət bu cürdür. Rayonlarda camaat yerli İH başçılarından kəndarası yolların təmir edilməsini, içməli su xətti çəkilməsini tələb edəndə də ortaya çıxır ki, yeganə manеə erməni məsələsidir. Başçılar deyirlər, bilirsiniz, ölkəmiz müharibə şəraitindədir, 1 milyon qaçqınımız var, ərazimizin 20 faizi işğal olunub, bu şəraitdə yolların təmiri və içməli su xəttinin çəkilməsi mümkün deyil, inşallah, danışıqlar yolu ilə münaqişə həll olunacaq, ondan sonra həyat gözəl olacaq.

Bizim camaat da bir az utancaqdır axı, deyə bilmir, cənab başçı, bəs sən özün içində beşulduzlu hotellərin hovuzundan əskik olmayan hovuzu olan, qəsrə oxşayan villaları tikdirməyi nəyə görə sülh dövrünə saxlamırsan. Demək olmur. Bu sözü camaat içində deyən adama dərhal "erməni" deyərlər və basarlar meyxanaçı Bayram Kürdəxanılının yanına.

Yeri gəlmişkən, söhbət gəzir ki, Bayramı elə bu cür söhbətlərin üstündə tutublar, nəşə-məşə havayı söhbətdir. Heç demə, Bayram öz rayonunun İH başçısının iradəsi əleyhinə çıxıb və dərhal yada düşüb ki, adam nəşəxordur, deyiblər, bunu salın içəri, Allahdan təcridxana da öz kəndlərindədir.

Söz uzandı, hardan hara gəldi, 3 ton heroindən danışdığımız yerdə gəldik "istehlak tələbatından artıq həcmdə tutulan narkotik maddə"yə. *(Görəsən, narkotikin istehlak dərini kim müəyyən edib? Bəlkə biri bunu çəkənidir, çox istifadə edir?)*

Bəli, növbəti erməni hiyləsi ilə üz-üzəyik. Şübhəsiz, onlar da 3 ton heroinə yiyə durmayacaqlar. Beləcə, arada toz-duman əmələ gələcək, mal yiyəsi də malını götürüb aradan çıxacaq.

---

**İyulun 17-də öz torpaqlarımızda ermənilər tərəfindən girov götürülən Dilqəm Əsgərov, Şahbaz Quliyev və Həsən Həsənovun Hüquqlarını Müdafiə Komitəsi mətbuat konfransı keçirib. Tədbirdə iştirak edən əməkdaşımızın verdiyi məlumata görə, konfransın ilk dəqiqələrindən zalın işıqları söndürülüb və tədbirin təxirə salınması tələb edilib.**



# Girov vətəndaşlarımızla bağlı mətbuat konfransında müəmma

## Yarımçıq saxlanılan tədbirdə beynəlxalq təşkilatlara müraciət olunub, BMT-yə çağırış edilib

Təşkilatçılar bunu yaxınlıqda qəzanın baş verməsi ilə izah etsələr də, tədbirin keçirildiyi Beynəlxalq Mətbuat Mərkəzinin (BMM) işıqlarının yandığı diqqətdən yayınmayıb.

Tədbirə ictimai-siyasi xadimlər, vətəndaş cəmiyyətinin təmsilçiləri, mətbuat nümayəndələri və bir sıra millət vəkilləri dəvət edilsə də, məlum olub ki, əksəriyyət konfransa qatılmayıb. Tədbirdə millət vəkillərindən yalnız Aydın Mirzəzadə iştirak edib.

Müdafiə Komitəsinin sədri, jurnalist Elxan Salahov çıxışında bildirib ki, məqsədləri əsir düşmüş azərbaycanlıların hüquqlarını müdafiə etmək, onlara qarşı yol verilən zorakılıqları dünya ictimaiyyətinə çatdırmaqdır.

E.Salahov yerli mətbuatda da əsir düşmüş azərbaycanlılarla bağlı yer alan xəbərlərin bəzən həqiqəti əks etdirmədiyini və bu informasiyaların ictimaiyyətə çatdırılmasının yanlış olduğunu vurğulayıb. Onun sözlərinə görə, əsir düşən azərbaycanlıların Kəlbəcərə getməkdə məqsədləri yaxınlarının məzarlarını ziyarət etmək olub.

**Tədbirdə çıxış edən YAP-çı deputat Aydın Mirzəzadə ermənilərin bu əməlinin beynəlxalq hüquq normalarına sığmadığını vurğulayıb, həmçinin bildirib ki, azərbaycanlıların öz torpaqlarına getmək hüquqları var və onlar bu hüquqlarından istifadə ediblər:** "Əsir düşən Azərbaycan vətəndaşları sərhədi yox, sadəcə olaraq, cəbhə xəttini keçiblər. Heç kim bir azərbaycanlının öz torpaqlarını ziyarət etməsinə qadağa qoya bilməz". A.Mirzəzadə vətəndaşlarımızın bu addımını qəhrəmanlıq kimi qiymətləndirib. O, beynəlxalq qurumların, ATƏT nümayəndələrinin bu məsələyə münasibət bildirməsinin vacibliyini vurğulayıb. Həmçinin qeyd edib ki, vətəndaşlarımızın əsir düşməsinə dövlət səviyyəsində ciddi reaksiya veriləcək.

**Mətbuat konfransında çıxış edən hərbi ekspert Üzeyir Cəfərov** əsir düşən azərbaycanlılarla bağlı dövlət tərəfindən iş görülməsi sahəsində ləng addımlar atıldığını bildirib. İctimaiyyət təmsilçisi olan Əvəz Həsənov isə qeyd edib ki, vətəndaşlarımızın belə asanlıqla ələ keçməsi təəssüfedici haldır.

Qeyd edək ki, tədbir işıqların sönməsi ilə yarımçıq saxlanılıb. **Deputat Aydın Mirzəzadə** də tədbiri yarımçıq tərk edib. Əsirlərin yaxınları mətbuat konfransına gəlsələr də, onlar zaldan çıxarılıb və danışmalarına imkan verilməyib. Həmçinin tədbir iştirakçıları və jurnalistlər konfransın yarımçıq kəsilməsinə etiraz etsələr də, konfrans davam etdirilməyib. Təşkilatçılar bəyanatlarını da oxumadan zalı tərk ediblər. Onlar bildiriblər ki, bir neçə günə yenidən tədbir keçirməyə çalışacaqlar.

**Təşkilatçıların mediaya sonradan göndərdikləri bəyanatda isə əsir vətəndaşların Müdafiəsi Komitəsinin beynəlxalq təşkilatlara müraciət etdiyi bildirilir. Qeyd edək ki, müraciət Beynəlxalq Qızıl Xaç Komitəsinə, ATƏT-in Minsk Qrupunun Həmsədrlərinə və BMT-yə ünvanlanıb. Müraciətdə bildirilir:** "1990-cı illərin əvvəllərində Ermənistanın silahlı qüvvələri tərəfindən Azərbaycan torpaqlarının 20 faizini işğal edilməsi nəticəsində 1 milyondan artıq soydaşımız öz ata-baba yurdundan, ev-eşiyindən didərgin salınıb. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağda başlanan bu münaqişə zamanı Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon *(Kəlbəcər də daxil olmaqla)* 1992-1993-cü illərdə Ermənistan tərəfindən işğal olunub. Həmin 7 rayondan məcburi köçkün düşmüş 1 milyona yaxın Azərbaycan vətəndaşı 20 ildən artıqdır ki, öz ata-baba yurduna, doğulduğu torpaqlara qayıdıb orada sərbəst yaşayacağını səbirsizliklə gözləyir. Ancaq 1992-ci ildə münaqişə bölgəsində əldə edilmiş atəşkəs sazişi imzalanandan sonrakı dövr ərzində beynəlxalq səviyyədə aparılan sülh danışıqları nəticə vermir. Torpağından, ev-eşiyindən məcburi köçkün vəziyyətinə salınmış Azərbaycan vətəndaşları isə "nə hərb, nə sülh" vəziyyətinə dözə bilmir. Üstəlik, Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini tez-tez pozması səbəbindən qoşunların təmas xəttində insanlar həlak olur, yaralanır, cəbhəboyu kəndlərdə evlər dağıdılır. Çox təəssüf ki, beynəlxalq hüququn norma və prinsiplərinə, BMT-nin qəbul etdiyi 4 qətnaməyə əməl etməyən Ermənistan bu hərəkətlərinə görə cəzalandırılmır. Bu cəzasızlıq isə Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında vandalizm hərəkətləri törətmək üçün əl-qolunu açır. 2014-cü il iyul ayının 10-da Dilqəm Əsgərov, Şahbaz Quliyev və Həsən Həsənov adlı 3 Azərbaycan vətəndaşının öz dədə-baba yurdu olan Kəlbəcərdə doğmalarının qəbirlərini ziyarət edərkən Ermənistan tərəfindən girov götürülməsi bunu bir daha sübut edir. Halbuki Kəlbəcər rayonu ərazisində Ermənistan silahlı qüvvələrinin əməkdaşları tərəfindən girov götürülən bu mülki şəxslər Ermənistanın dövlət sərhədlərini pozmayıb, öz doğma torpaqlarında gəzib, yaxınlarının məzarlarını ziyarət ediblər. Onların hazırda Ermənistanın işğalı altında olan Kəlbəcər rayonuna getməkdə məqsədləri də elə bu idi və onlar Azərbaycanın dövlət sərhədlərindən kənara çıxmayıblar. Ancaq görünür ki, Ermənistan özünün işğalçılıq siyasəti nəticəsində doğma yurd-yuvasından zorla çıxarılmış soydaşlarımızın Azərbaycanın dövlət sərhədləri daxilində sərbəst hərəkət etmək, ev-eşiyini, yaxınlarının məzarını ziyarət etmək haqqını da pozur, onları girov götürür, işgəncə və təhdidlərə məruz qoyur. Bu azmış kimi, Ermənistan hökuməti öz torpağını ziyarətə getmiş Azərbaycan vətəndaşlarını "diversant" kimi qələmə verməklə ölkəmizin beynəlxalq imicinə zərbə vurmağa çalışır. Öz torpaqlarını ziyarətə gedən məcburi köçkün soydaşlarımızın Azərbaycanın dövlət sərhədləri daxilində - Kəlbəcər rayonu ərazisində Ermənistan tərəfindən girov götürülməsi hadisəsi işğalçı qonşumuzun Azərbaycana qarşı barışmaz mövqedə olduğunu bir daha sübut edir. Məhz bu hadisə ATƏT-in Minsk Qrupu tərəfindən aparılan uzunmüddətli sülh danışıqlarının perspektivlərini də şübhə altında qoyur. Biz bundan dərin təəssüf hissi və ciddi narahatlıq keçirdiyimizi bəyan edirik".

**Komitə Ermənistanın hərəkətlərini, Azərbaycana və Azərbaycan vətəndaşlarına qarşı düşmənçilik siyasətini pisləməklə yanaşı, beynəlxalq ictimaiyyəti baş verənlərə laqeyd qalmamağa çağırıb:** "Biz beynəlxalq qurumları və dünya ictimaiyyətini Ermənistanın insanlığa, beynəlxalq hüquq normalarına zidd hərəkət və davranışlarını pisləməyə, Kəlbəcər rayonu ərazisində girov saxlanılan Azərbaycan vətəndaşlarının tezliklə geri qaytarılması üçün ciddi addımlar atmağa çağırırıq".








**❑ Röya RƏFİYEVA**

**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 182 (5891) 18 iyul 2014

**Müsavat Partiyasının Divan üzvü Tural Abbaslı "Yeni Müsavat"ın suallarını cavablandırıb. T.Abbaslı AXC-nin 25 illik yubileyi ilə bağlı AXCP-nin tədbirində iştirak etməsindən, partiya daxilində fraksiya yaratmasından, başqanlığa namizədliyindən və digər aktual mövzulardan danışıb.**

# "Zəif Müsavatın başqanı olmaqdansa, güclü Müsavatın sıravi üzvü olmağa hazıram"

## Tural Abbaslı: "Müsavatda AXCP-nin tədbirinə getməməklə bağlı tapşırıq verilsəydi, tabe olardım"

***- Tural bəy, AXCP-dən yubiley tədbirinə şəxsən dəvət edilmişdiniz, yoxsa partiya olaraq?***

- Mənə şəxsən dəvətnamə göndərilmişdi. Bildiyimə görə, İsa Qəmbər, Arzu Səmədbəyli, Vurğun Əyyuba da dəvətnamə göndərilmişdi. Partiya olaraq dəvətnamə yox idi. Mən dəvət edilən yerdə iştirakın tərəfdarıyam. Təbii ki, haradan və kimdən dəvət gəlməsi önəmlidir. Amma bu məsələlərdə siyasi biliyimiz və təcrübəmiz var, hansı dəvəti qəbul edəcəyimizi yaxşı bilirik.

Ona görə tədbirdə iştirak etmişəm. Müsavatda bu tədbirə getməməklə bağlı diskussiya olmayıb, qeyri-rəsmi şəkildə tapşırıq verilməyib. Xalq Cəbhəsi xalqın əməyi ilə yaranmış təşkilatdır. Bu tarixi qeyd etməliyik.

***- Amma AXCP Müsavatda keçirilən tədbirə getmədi...***

- Onların Müsavatda iştirak etməməsi ilə maraqlandım. Düzdür, AXCP-dən kimsə yox idi. Halbuki dəvət göndərilmişdi. Ancaq bunu texniki səbəblərlə izah etdilər. Lap elə deyək ki, qeyri-səmimidirlər, bu, mənim AXCP-nin tədbirində iştirak etməməyimə əsas vermir.

Çünki hər kəs öz hərəkətinə cavabdehdir. Bu hərəkətlərin müsbət və mənfilikləri onların özünə aiddir. Biz birgə mübarizədən danışırıq, çıxış yollarından söz açırıq, sonra belə xırda işlərdə prinsip aparsaq gülməli olar.

Azərbaycanın Qarabağ, gəncliyinin məhv olma, təhsil, səhiyyəsinin uçuruma yuvarlanma problemi var, siyasi, iqtisadi azadlıqlar problemi var. Bu problemlər qalaqlanıb, biz isə tədbirdə kiminsə iştirak edib - etmədiyini müzakirə edirik.

Bizim rəqibimiz bu iqtidar və onu idarə edənlərdir, gəncləri zindanlarda çürüdənlərdir. Adi vətəndaş üçün kiminsə hansı tədbirdə iştirakı maraqlı deyil, əksinə, əhalini onun problemlərinin həlli, rifah halı maraqlandırır.

***- Sizcə, bu iki partiya arasında münasibətlərin yaxşı olmadığı, İsa Qəmbərin həmin tədbirə getmədiyi halda, Tural Abbaslının iştirakı başqana qarşı jestdir?***

- Müsavatla AXCP-nin münasibətlərinin yaxşı olmadığını deməyə əsas yoxdur. Sadəcə, Milli Şuradan ayrıldığımız zaman bir gərginlik olub, partiyamıza hücumlar edildi. Sonra dərk etdilər ki, hər bir partiya qərarlar qəbul etməkdə müstəqildir. Ondan sonra bir gərginlik yoxdur. Əgər kimsə süni gərginlik yaratmaq istəyirsə, bu başqa məsələdir. O adamlar mətbuatın gündəmində qalmaq istəyənlərdir. Müsavatla Cəbhə arasında bir gərginlik görmürəm və tədbirdə iştirakımı İsa Qəmbərə hörmətsizlik, ona qarşı jest kimi qiymətləndirmirəm. Yenə deyirəm ki, partiyada rəsmi qərar olmayıb, müzakirə getməyib. Partiya tapşırığı olsaydı ki, AXCP-nin tədbirinə getməyək, o halda Divan üzvü kimi qərara tabe olardım.

Ancaq bu məsələdə rəsmi qərar verilməyibsə, mənim tədbirə gedişim haqda səslənən fikirlər subyektiv xarakter daşıyır. Biz İsa bəyə qarşı addım atmamışıq. İsa Qəmbərin özü həmin tədbirdə niyə iştirak etmədiyini açıqlamayıb. Ola bilsin ki, işi çıxıb, vaxtı olmayıb.



### "İsa bəyə qarşı addım atmamışıq"

***- Sizin bu addımınız, başqanlığa namizədliyiniz, ətrafınızdakıların çıxışları belə rəy yaradır ki, partiya daxilində fraksiya yaratmısınız. Bu fikirləri bölüşürsünüzmü?***

- Əvvəla, hakimiyyətin yaratdığı sistemdən irəli gəlir ki, dünya səviyyəli, müasir partiyaların standartları anlayışı bizə gəlib çıxmayıb. Bu da qapalı, avtoritar idarəçilikdən yaranıb. Fraksiya yaratmağı partiyanı zəifləmək, parçalamaq kimi qəbul etmək olmaz. Amerikada Respublikaçılar, Demokratlar partiyalarında fraksiyalar var. Partiyaların daxilində loyallar, bir də radikallar olur. Bu da partiyadaxili rəqabətdir, inkişafdır, demokratiyadır. Rəqabət olmayanda inkişaf olmur. Biz yaşlı və gənc nəsil ayrı-seçkiliyi yaratmamışıq. Bizim yanaşma tərzimiz var. Bizimlə eyni fikirdə olanlarla birgə addımlar atırıqsa, heç də bölücülükdən, dağıdıcılıqdan söhbət gedə bilməz. Fraksiya varsa bunun nəyi ziyandır ?

Ona görə də fraksiya məsələsini istisna etmirəm. Bakıda, regionlarda görüşlər keçirirk, fikirlərimizi bölüşürük. Bizim kimi düşünənlər yanımızda olur.

***- Ancaq başqanlığa namizədliyinizi qəbul etməyənlər yaş faktorunu önə çəkir, yəni partiyada veteran siyasətçilər var...***

- Birincisi, 32 yaşım var. Normal dövlətləri idarə edənlər 30-40 yaşındadırlar. Yada salım ki, milli hökumətimizdə rəhbər strukturlarda 25-35 yaş arasında olan şəxslər təmsil olunurdu. Yaş faktoru arqument deyil. Bu fikri deyənlər siyasi biliyi olmayan adamlardır.

Artıq 14 ildir Müsavatın üzvüyəm. Partiyanın özək sədrliyindən gənclər təşkilatına, Məclisindən Divan üzvlüyünə qədər yol keçmişəm və bütün strukturlarda da layiqincə təmsil olunmuşam. Bilik və təcrübəmə inanıram. Oxucular dediklərimi təkəbbürlülük əlaməti kimi qəbul etməsin.

Öz potensialına inanmayan siyasətçi ola bilməz. Başqanlığa namizədliyimi verməklə istəyirik ki, cəmiyyətdə bir nümunə olsun, partiya daxilində presedent yaransın. Görsünlər ki, gənc nəslin məsuliyyəti öz üzərinə götürmək vaxtı çatıb. Namizədliyimlə bağlı əks fikirlərə də hörmətlə yanaşıram.

***- Rayonlardakı görüşlərinizlə belə demək olarmı ki, artıq başqanlıqla bağlı təbliğat-təşviqata başlamısız ?***

- Biz görüşlərimizi keçiririk. Qalib olmaq üçün işlər görürük. Başqanlığa namizədliyimiz kimlərinsə siyasi maraqlarına cavab vermir. Amma bu, partiyadaxili rəqabətdir. O fikirdəyəm ki, rəqabət partiyanın gücdən düşməsinə yox, inkişafına xidmət etməlidir. Bu qurucu bir rəqabətdir.

Yoxsa namizədliyimi kimsə dəstəkləmirsə, ona qarşı qara piar aparım, gözdən salım, o halda hərəkətimiz dağıdıcılıq olar. Bu, heç bir təşkilata fayda vermir. Təbii ki, namizədlər arasında bloklaşma, cəmləşmə, fraksiyalaşma olacaq. Amma mən zəif Müsavatın başqanı olmaqdansa, güclü Müsavatın sıravi üzvü olmağa hazıram.

Siyasət ümumilikdə təbliğat - təşviqat işidir. İnsanlar sənin qabiliyyətini görürlər. Bu da təbliğata çevrilir. Çıxışlarımız, görüşlərimiz, dediyimiz sözlər hədəfə çatmaqdır. Gördüyümüz işlər Müsavatda bir posta yiyələnmək üçün məqsəd deyil, hakimiyyətə gəlmək üçün bir vasitədir.

O baxımdan görüşlərimizi namizədliklə bağlı təbliğat kimi qiymətləndirmək olar. Əgər bunu təkzib etsəm qeyri-səmimilik olar. Mən ad çəkməyəcəyəm. Amma facebookda 1 saatlıq müşahidənizlə görmək olar ki, təbliğat işini aparan tək mən deyiləm.

❑ **Emil SALAMOĞLU**

# Müxalifətin "100 illik müharibəsi" səngimir

**Müxalifət partiyaları arasında "100 ilik müharibə" davam edir. Seçkidən seçkiyə blok, birlik yaradan bu təşkilatlar ya dalaşıb ayrılırlar, ya da bir-birini seçkini uduzdurmaqda ittiham edirlər. Kimisi qarşı tərəfi satqınlıqda ittiham edir, kimisi 20 il əvvəlki hadisələri yada salaraq köhnəlmiş məsələləri qaldırır, kimisi də hakimiyyətə işləməkdə suçlanır.**

Partiyaların arasındakı münasibətlər qarşıdurma səviyyəsindən düşmənçilik həddinə çatıb. İndi elə bir situasiya hökm sürür ki, müxalif düşərgənin iki aparıcı qanadı - Müsavat və AXCP bir-birinin tədbirlərini belə boykot edirlər.

Bu, həm zindanda olan partiya üzvlərini məyus edir, həm cəmiyyətin gözündə partiyaların nüfuzunu azaldır. Müsavat və AXCP nəyin davasını edirlər, hansı ambisiyalar üstündə bir-birini qırırlar, nə üçün tədbirlərini boykot edirlər, aydın deyil.



**Seyran Səxavət:**
"Onlar uğurlu şəkildə intihar ediblər"



**Mehriban Vəzir:**
"Yaranmış siyasi mənzərə yalnız təəssüf doğura bilər"



**Azər Rəşidoğlu:**
"Bu, artıq psixoloqların araşdırma predmetidir"

Göz qabağında olan danılmaz yeganə fakt budur ki, bu iki müxalif təşkilatın illərə gedib çıxan davası bitmək bilmir.

Ən azından hörmət naminə partiyalar bir-birinin dəvətlərini qəbul etməli, tədbirlərində iştirak etməlidirlər.

**Yazıçı Seyran Səxavət bu davanın səbəbini bilmir. Onun fikrincə, ortada bir ciddi səbəb var:** "Amma bu mühüm səbəb nə "Yeni Müsavat"a, nə Seyran Səxavətə, nə də xalqa agahdır. Amma yəqin ki, özləri bilirlər əslində nə üstündə savaş gedir.

Adətən iki nəfər dalaşandan sonra sakitləşir. Bu davanın səbəbini bilməyən adam gəlib soruşur ki, nə üstündə bir-birini qırırlar. İndi biz də bilmirik ki, nəyin davası gedir. Onlar öz çıxışları və hərəkətləri ilə özləri haqda ən dəqiq olanı deyirlər. Müxalifət uğurlu şəkildə intihar edib. Nə iqtidara gəlmək üçün ümid yeri qalıb, nə cəmiyyətin onlara inamı".

**S.Səxavət sağlam müxalifətin gənclikdən yaranacağına ümidlidir:** "Mən bu müxalifətlə maraqlanmıram. Onlar kəsdikləri çörəyi belə unudub, dalaşırlar, bir-birinə olmazın sözlərini deyirlər. Çox pis bir mənzərədir. Əgər bir ağsaqqal kimi fikrimi soruşursunuzsa deyim ki, xalqın mənəvi anbarına, tərəzisinə bələdəm. Gəncliyə baxmaq lazımdır. Sağlam birlik və müxalifət gənclikdə olmalıdır. Ümumiyyətlə, mənim üçün Azərbaycan, ədəbiyyat və söz var".

**Milli Şura üzvü, publisist Mehriban Vəzir yaranmış vəziyyətə təəssüf edir:** "Bu siyasi mənzərə yalnız təəssüf doğura bilər. Biz milli hərəkatdan çıxmış, eyni siyasi həyatı keçmiş, birlikdə fəaliyyətdə olmuş insanlarıq. Eyni şəkildə repressiyalara, siyasi işgəncələrə məruz qalmışıq. Bu yaşadıqlarımız, keçdiyimiz yol bizim bir yoldaş kimi mübarizəni birlikdə davam etməli olduğumuzu tələb edir. Ancaq əfsuslar olsun ki, mühüm tarixi hadisələrin qeyd olunmasında da ayrılıq olur. İctimaiyyət bizdən birlikdə hərəkət etməyi gözləyir. Ancaq belə mənzərə nagümanlığı, ümidsizliyi artırır".

**Siyasi icmalçı Azər Rəşidoğlunun fikrincə, müxalifət liderlərinin siyasi ambisiyaları və hikkələri olduqca böyükdür:** "Bir çox hallarda, bu iddialar gerçəkliklə uyğunlaşmır. Bu, artıq psixoloqların araşdırma predmetidir. Düşünürəm ki, böyük iddialarda olduğunu nümayiş etdirməklə siyasi liderlər öz daralmaqda olan elektoratlarını qorumaq niyyəti güdürlər".

**A.Rəşidoğlu deyir ki, bu bir texnologiyadır, amma zəif və mənasız metoddur:** "Digər tərəfdən, müxalifət nümayəndələri arasında səmimiyyət çatışmazlığı mövcuddur. Bu dərəcədə qeyri-səmimi olmaq olmaz. Bunun bədəli ağır olur. Bütün didişmələr, daxili "razborka"ların kökündə məhz səmimiyyətin çatışmazlığı dayanır".

**Siyasi şərhçi hesab edir ki, müxalifət bir - birinə hücum etməklə narazı elektoratı parçalayır:** "Bu isə hakimiyyətin maraqlarına cavab verir. Bəlkə də müxalifət düşərgəsindəki qarşıdurmalar da elə buna hesablanıb. Müxalifət 2003-cü ildə bu didişmələrin qurbanı oldu. Odur ki, günahı kənarda axtarmaq da yanlışdır".

❑ **E.SALAMOĞLU**

YENİ MÜSAVAT
N 182 (5891) 18 iyul 2014

# Dərnəgül yolunda Amerika təyyarələri!



Zamin HACI
zaminhaci@gmail.com

## Vay-vay, məxfi məlumat yaydıq!

**İyul ayında biz qətlə yetirilmiş Elmar Hüseynovun doğum gününü qeyd edirik. Yapistlər onun qatillərini tapmayıblar, ola bilsin 2005-ci ildən bəri - jurnalist öldürüləndən sonra güzgüyə baxmırlar. Ölkədə guya gizli qalan, əslində səbəblərini hər kəsin bildiyi və qatillərini isə az qala barmaqla göstərdiyi belə ölüm hadisələri çoxdur. Dövləti sarsıdan, onu oyuncağa çevirən, banan-badımcan dövlətinə döndərən əlamətlərdən biri də siyasi-ictimai qətllərin törədilməsidir. Bu baxımdan, adında "milli təhlükəsizlik" kimi cah-cəlallı ifadə daşıyan qurum dövlətin banan dövlətinə çevrilməsinin əsas günahkarlarından biridir, bəlkə birincisidir.**

Jurnalist həmkarımız Rauf Mirqədirovu şərləyib zindana salıblar, bugünlərdə MTN və Baş Prokurorluğun adından həmin həbs haqda növbəti cəfəngiyyat açıqlanıb. Guya "cinayət işinin icraatı zamanı yeni xüsusatlar ortaya çıxdığından ictimaiyyətə məlumat vermək zərurəti" ortaya çıxıbmış. Bəs bu yeni xüsusatlar nədir və yapistlərin xüsusi xidmət orqanları ölkədə repressiyanı gücləndirmək, cəmiyyəti qorxutmaq üçün daha nə ediblər?

Açıqlamanı oxuyanda Mirqədirovun hansı gerizəkalı sistemin əlində əsir olduğunu düşünüb kədərlənirsən, eyni zamanda adamı gülmək tutur. Məsələn, sən demə, Ermənistan məxfi xidmətləri vətəndaşlarımızı pulla ələ alaraq "ölkəmizdəki ictimai-siyasi, hərbi sahədəki vəziyyət, iqtisadi layihələr, Dağlıq Qarabağ problemi ilə bağlı yürüdülən siyasətdə baş verə biləcək dəyişikliklər barədə məlumatlar toplamaq" məqsədi güdürmüş.

Sonuncudan başlayaq. Görəsən, Dağlıq Qarabağ problemi ilə bağlı yürüdülən siyasət nədir, 21 ildə bu siyasətdə nə dəyişib ki, düşmən də onun haqqında öncədən öyrənmək istəsin? Necə deyərlər, çevir tatı, vur tatı... Problemi qəsdən dondurub günahı ATƏT-in üstünə atmaq, xalqı beş-on tankla aldadıb ölkəni offşor şirkətə çevirmək, vətənpərvərliyi alver vasitəsinə çevirmək - siyasət budur? Ermənilər guya bunu bilmir? Axı burdakı sistemdən biri də cəbhə xəttinin o üzündədir! Eyni manipulyasiyalar, kasıb xalqın qanı üzərində Pirr qələbəsinin eyforik şəkildə qeyd edilməsi də Ermənistan "yapistlərinin" siyasətidir. Mirqədirov kimi dustaqlar cəbhənin o üzündə də var.

Ermənilərin iqtisadi layihələrimizi öyrənmək cəhdi növbəti absurddur. Bulvarın uzunluğu 21 kilometr olacaq, Ağcabədidə qatıq sexi açılıb, Yavər Camalov yaba buraxır, Vasif Talıbov da müəllimlərə pazı əkdirir. Buyurun, bu dəhşətli iqtisadi layihələri açıqladığım üçün, dövlətin xüsusi gizli iqtisadi məlumatlarını düşmənə ötürdüyüm üçün məni də tutun. Necə qəribə iqtisadiyyatdır... Biz içində yaşayırıq, ancaq görmürük. Ermənilər qıraqdan baxır, görə bilmir. Mirqədirov-Ceyms Bonddan yararlanmaq istəyəndə də Eldar müəllim basır tutur.

MTN-BP cütlüyünün açıqlamasında ən fısqırıq və enli hissə isə budur: "O cümlədən R.Mirqədirov Azərbaycan hakimiyyətinin guya ABŞ-a İrana hazırlanan hərbi müdaxilədə öz ərazilərindən istifadə etməsinə icazə verməsi, ABŞ tərəfindən Bakıda gizli hərbi obyektlərinin tikiləcəyi, Zığ şossesinin betondan hazırlanmaqla yol tikintisinin gələcəkdə İrana hərbi zərbələr endirilməsi zamanı hərbi təyyarələrin uçuş-enmə zolağı kimi istifadə olunması məqsədilə maliyyələşdirilməsi, qeyd olunan əraziləri və digər hərbi obyektlərin fotoşəkilləri və sxemləri ilə birgə məlumatları ötürüb".

Yəni hətta Mirqədirov bunu erməniyə ötürsə belə bunun yalan olduğunu etiraf edirlər. *("Guya" ifadəsi)*. Belə çıxır ki, yapistlər Mirqədirovu... ermənilərə yalan məlumat verməkdə suçlayırlar? Ancaq yox, çekistlərimiz düşündüyünüz qədər avam deyil. Söhbətin əsaslandırması da var. Növbəti abzası oxuyun: "Həmin məlumatlar Ermənistan xüsusi xidmət orqanları tərəfindən Azərbaycanla İran arasında mövcud münasibətlərə ziyan vurulması və düşmənçilik münasibətlərinin yaradılması üçün istifadə edilib". Sitatın sonu.

İndi mən başa düşdüm, AzTV "Almaniya dağılır" deyəndə əslində Azərbaycan və İsrail arasında mövcud münasibətlərə ziyan vurmaq məqsədi güdürmüş. İbrahim Məmmədov yenə həmin AzTV-də "Elə götürək Yaponiyanı" deyərkən Çin və Monqolustanın düşmənçilik münasibətlərini yaratmaq üçün istifadə edirmiş.

# Bakı-Ankara münasibətlərinə qəfil "U" dönüşü təhdidi



## Ərdoğandan Bakıya Qarabağ şantajı - iddia

### Rusiyanın regionda yeni müharibə planlarını Qərbin pozmaq istəyi ABŞ-ın müəllifi olduğu yeni "Yol xəritəsi"ni aktual edib; AKP namizədinin seçkilərdə qələbəsi okeanın o tayında neçə vaxtdır hazırlanan layihəyə nəfəs verə, sərhədlərin açılması tezləşə bilər; Sürix protokollarının gündəmə qayıdacağı gün uzaqda deyil...

**Ötən həftə Türkiyə qəzetlərindən birində sensasiyalı sayıla biləcək bir məlumat keçdi. Yazıda baş nazir Rəcəb Tayyib Ərdoğanın sentyabrda Ermənistanla sərhədləri açmaq göstərişi verdiyi bildirilirdi. Türkiyə Xarici İşlər Nazirliyi məlumatı dərhal təkzib eləsə də, iki gün öncə mövzu yenidən, daha qalmaqallı formada gündəmə gəlib.**

Belə ki, Türkiyənin millət vəkillərindən olan İdris Bal parlamentdə düzənlədiyi mətbuat konfransında AKP iqtidarını Azərbaycanı ermənilərlə şantaj etməkdə suçlayıb. Onun iddiasına görə, Ərdoğan Azərbaycanda Gülən məktəblərini qapatmaq üçün Bakını yolverilməz və ağlasığmaz bir üsulla təhdid edib - həmin məktəblərin bağlanmasından ötrü rəsmi Bakı Türkiyəyə qoyulmuş yatırımlarla, ən əsası, ermənilərlə təhdid olunub. Bal iddia edib ki, AKP-nin təhdidi "məktəblər qapanmasa sərhədlər açılacaq və ermənilərlə münasibətlər normallaşdırılacaq" şəklində olub.

Əlbəttə ki, dəqiqini Ərdoğan və onun azərbaycanlı həmkarı bilər, ancaq od yanmasa, tüstü çıxmır. Son vaxtlar isə "tüstü" nədənsə tez-tez görünməyə başlayıb. Məsələn, Türkiyə dövlətçiliyi tarixində ilk dəfə olaraq Ərdoğanın timsalında baş nazirin uydurma soyqırımla bağlı erməni xalqına başsağlığı verməsi, bu reveransdan az sonra Ermənistan prezidenti Sərkisyanın Türkiyənin yeni seçiləcək prezidentini *(qalibin Ərdoğan olacağı ehtimalı böyükdür)* saxta "genosidin" 100-cü ildönümü tədbirlərinə İrəvana dəvət eləməsi bu qəbildəndir.

Bir sıra təhlilçilər iki qarşılıqlı jesti eyni zəncirin həlqələri kimi qavrayır və güman edirlər ki, ortada Vaşinqtonun iradəsi və okeanın o tayında hazırlanan bir proje, gizli anlaşma var. İddiaya görə, ABŞ-ın Güney Qafqazla bağlı çoxdan hazırlamaq istədiyi çoxşaxəli layihə Ermənistanı, Azərbaycanı və Türkiyəni də öz yanına almağı, bölgədə Rusiya təsirini minimuma endirməyi hədəf götürüb. Təbii ki, projedə, yaxud yeni "Yol xəritəsi"ndə Ankara aparıcı və açar statusdadır.

Belə bir plan qonşularla "sıfır problemi" kursunu götürmüş Türkiyənin strateji maraqlarına əslində cavab verir. Aydın məsələdir ki, normal dövlətlər üçün daimi düşmən anlayışı olmur, daimi maraqlar olur. Türkiyə isə bölgədə təhlükəsizlik və demokratiya ilə bağlı xüsusi missiyası olan böyük regional oyunçudur. Qərblə Rusiya arasında münasibətlərin böhrana girməsi fonunda bu rol indi ikiqat əhəmiyyətli görünür.

Məsələ də ondadır ki, Krımın Rusiyaya ilhaqından sonra Güney Qafqazın Qərb üçün önəmi xeyli artıb. Avrasiya Birliyi layihəsini reallaşdırmaq üçün Moskva istənilən varianta, o sırada Ermənistanın əli ilə Qarabağda yeni müharibəni qızışdırmağa kimi gedə bilər ki, bu da ilk növbədə Amerika və Avropanın regiondakı energetik və təhlükəsizlik maraqlarına, yeni energetik planlarına ciddi zərbə olardı.

Qərb siyasi-diplomatik, ekspert dairələrində anlayırlar ki, Moskvanın bu planlarını məhz Türkiyə sayəsində, daha doğrusu, Ankara-İrəvan münasibətlərini qismən qaydaya salmaq və sərhədləri açmaq hesabına pozmaq olar. Ancaq Amerikada, Avropada bunun asan məsələ olmadığının da fərqindədirlər - Azərbaycan, Qarabağ problemi var çünki.

Bu xüsusda son zamanlar Bakını məmnun eləmək üçün Minsk Qrupunun amerikalı həmsədr səviyyəsində 7 rayon məsələsinin davamlı şəkildə gündəmə gətirilməsi, İlham Əliyev və Serj Sərkisyanın Paris görüşünün təşkilinə yönəlik israrlı səylər təsadüfə oxşamır. Belə diplomatik-siyasi fəallıq yeni "Yol xəritəsi"nin ruhuna tam uyğundur. Sürix protokollarının arxivə verilmədiyi də gözardı edilməməlidir.

İlk baxışda "Yol xəritəsi" tərəflər üçün məqbul görünür və hərə öz dividentini götürür: Ermənistan Rusiyanın təhdidlərindən qismən uzaqlaşır və öz təhlükəsizliyinə Türkiyə vasitəsilə Qərbin qarantını təmin eləmiş olur, ən əsası, müharibə üçün Kremlin əlində alət olmaq riskindən uzaqlaşır. Yeri gəlmişkən, son vaxtlar erməni tərəfindən tez-tez belə fikirlər səslənir ki, rəsmi İrəvan Rusiya ilə müttəfiqliyə daha etibar edə bilməz, nədən ki, Kreml günün birində Ermənistanı satacaq, o üzdən özü üçün yeni təhlükəsizlik sistemi tapmaq barədə düşünməlidir.

Türkiyəyə gəlincə, "Yol xəritəsi"nin həyata vəsiqə alması ilə Ankara regionda yeni söz sahibliyi qazanır, qardaş ölkənin Ermənistana təsir imkanları artır; Ankara ilə Qərb arasında 17 dekabr rüşvət əməliyyatı da səbəb olmaqla sərinləmiş münasibətlər qaydaya düşür *(Ərdoğan 3 aydır Ağ Evlə, Obama ilə telefon əlaqəsi qura bilmir)*, Türkiyənin Avropa Birliyinə yolu asanlaşır; nəhayət, Ankara qondarma soyqırımın 100 illiyə ilə bağlı gözlənilən güclü beynəlxalq pressinqi özündən uzaqlaşdırmış olur.

Bu və başqa amillər belə bir ehtiyatlı qənaəti diktə edir ki, qardaş ölkədə gələn ay keçiriləcən prezident seçkilərinin nəticələri üzü payıza doğru həqiqətən bölgədə keyfiyyətcə yeni qarşılıqlı münasibətlər sisteminə vəsilə ola bilər. Konfliktdə olan ölkələr üçün Amerikanın patronajlığı altında təzə dönəmin başlayacağı istisna deyil.

Bəs bu dönəm konkret olaraq Bakı-Ankara əlaqələrində "U" dönüşünə gətirə, iki qardaş ölkənin münasibətlərini zədələyə bilərmi? Yəqin ki, sualın cavabı tərəflərin ən ağrılı məsələlərdə nə dərəcədə sinxron və çevik hərəkət eləmək bacarığından asılı olacaq. Bir şey dəqiqdir ki, millət vəkili Balın da təsdiqlədiyi kimi, Ərdoğan hökumətinin Azərbaycan iqtidarına iki çox mühüm təsir rıçaqı var: azərbaycanlı oliqarxların Türkiyədəki böyük biznesi (yatırımı) və Qarabağ (sərhəd) məsələsi...

**❑ Siyasət şöbəsi**

# USAİD-lə bağlı qrant qalmaqalı böyüyür

### Təşkilat deputat Əli Hüseynlinin Hüquqşünaslar Konfederasiyasına maliyyə yardımını dayandırıb, Sahib Məmmədov isə 15 min dollar ziyana düşüb

**ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAİD) ilə bağlı qrant qalmaqalı böyüyür. Belə ki, təşkilatın mətbuata 2, 4 milyon qrant elanını gizli və qeyri-şəffaf şəkildə həyata keçirməsinin ardınca QHT-lərlə də əlaqədar qeyri-müəyyənlik üzə çıxıb.**

USAİD deputat Əli Hüseynlinin rəhbərlik etdiyi Azərbaycan Hüquqşünaslar Konfederasiyasına maliyyə yardımını dayandırıb. Təşkilatın Bakıdakı ofisindən AzadlıqRadiosunun sorğusuna cavabda belə deyilir.

İki il öncə USAİD-in 1,5 milyon dollarlıq layihəni Azərbaycan Hüquqşünaslar Konfederasiyasına verməsi bəzi QHT-lərdə narazılıq doğurub. 4 illik layihə çərçivəsində internet hüquq televiziyasının yaradılması da nəzərdə tutulmuşdu.

**USAİD bildirir:** "USAİD qadınlar və əlillər kimi ehtiyacı olan insanların hüquqlarının qorunması, hüquqi yardımın əldə olunması və Azərbaycanda hüquq sahəsində çalışanların bacarığının inkişafı üçün 1,1 milyon ABŞ dolları qrant verib. İlkin olaraq qrantın müddəti 2012-ci ildən 2016-cı ilədək planlaşdırılıb. Biz qürur hissi duyuruq ki, həmin layihə çərçivəsində sosial-iqtisadi baxımdan məhdud qruplardan 288 insana hüquqi yardım göstərilməklə yanaşı, Xəzər Universiteti nəzdində cəmiyyətin hüquqi biliyini artıran Hüquq Maarifləndirmə Mərkəzi də yaradılıb".

***

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri Sahib Məmmədov facebook səhifəsində yazıb ki, təxminən 15 min dolları bir layihəyə xərcləyəndən sonra həmin layihə ləğv olunub və pulunu ala bilməyib.

**S.Məmmədov USAİD-in layihəsinin niyə dayandırılması barədə heç bir açıqlama vermədiyini deyir. S.Məmmədov "Yeni Müsavat"a bildirdi ki, onların USAİD-ə birbaşa çıxışı olmayıb. Bununla belə, vəsait bu təşkilatdan ayrılıb. Onun sözlərinə görə, Cenevrəyə səfər, rayonlarda tədbirlərin təşkili, ekspertlər üçün monitorinqlər öz vəsaitləri hesabına həyata keçirilib:** "Təxminən 15 min dollara yaxın borcu ödəməyiblər. Təkcə Cenevrə səfərinə 3770 dollar xərclənib. Bundan başqa, əmək haqları ödənilib. Bu, partnyorluqdan kənar münasibətdir və bizi zərbə altında qoyurlar. Heç bir rəsmi açıqlama və izahat da vermirlər. Məhkəməyə vermək imkanı da yoxdur. Çünki məhkəmə Virciniyada yerləşir və böyük xərc tələb edir".

**S.Məmmədov qeyd etdi ki, USAİD-in korrupsiya ilə bağlı şübhələri varsa, indidən qətiyyətlə rədd edirlər:** "Biz ilk dəfə vəsaiti 8 ay sonra almışıq. Ona qədər nəşrlər olub və öz hesabımızdan vermişik. Bunu sizə təqdim edə bilərik. Yəni korrupsiya şübhələri varsa, bu iddianı rədd edirik. USAİD tərəfindən heç bir əsaslanma yoxdur. Sadəcə, Hüquqşünaslar Konfederasiyası ilə fəaliyyətə xitam veriblər. Ehtimal edirik ki, USAİD-in yardımları dayandırmasına səbəb layihədən kənar sifarişlərin yerinə yetirilməməsi ola bilər".

**USAİD bildirib ki, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası vəsaiti Azərbaycan Hüquqlar Konsorsiumundan alır:** "Onlar USAİD-dən birbaşa maliyyə yardımı almayıblar, USAİD-ə birbaşa hüquqi bağlılıqları da yoxdur".

**AzadlıqRadiosunun jurnalisti Xədicə İsmayılova facebook səhifəsində qeyd edib ki, USAİD vəsaiti deputat Əli Hüseynlinin rəhbərlik etdiyi təşkilata verib:** "Onlar da yeyintiyə yol veriblər. Sahib Məmmədovun da pulu ortada "itib". USAİD görüb pul gedir, hesabat gəlmir, məcbur olub maliyyə yardımını dayandırıb. Amma USAİD-də o cəsarət hardadır, YAP-çı deputatın yeyintiyə yol verdiyini deyə? Biz o vaxt təngid edəndə də deyirdilər, hər şey yaxşı olacaq".

ABŞ səfirliyinin açıqlamasında isə deyilir ki, dünyada qəbul olunmuş bütün standart prosedurlara riayət edilib, prosesə şəffaf həyata keçirilib. Xatırladaq ki, USAİD tərəfindən mətbuata 2, 4 milyon dollar gizli qrant elanı verildiyi, elanın ictimailəşdirilmədiyi iddia olunur. QHT rəhbəri Azər Həsrət təşkilatı korrupsiyada ittiham etmişdi.

**❑ E.SALAMOĞLU**

# Rəhim Qazıyevin ittihamlarına sərt cavab verildi

**Azərbaycan Xalq Cəbhəsinin yaranmasından 25 il ötdü. Bununla bağlı siyasi partiyalar yubiley tədbirləri keçirdilər. Bu tədbirlər yubileydən daha çox, qalmaqala səbəb olan tədbirlər kimi yaddaşlarda qaldı. AXC hakimiyyəti dövründə müdafiə naziri postunu tutmuş Rəhim Qazıyevin teleqraf.com-a verdiyi müsahibə ciddi qalmaqal yaradıb. Sabiq müdafiə naziri yubiley tədbirlərinə AXC İdarə Heyətinin ilk üzvlərindən biri kimi dəvət olunmaması ilə bağlı verdiyi müsahibəsində AXC hakimiyyəti dövründə yüksək postlarda çalışmış şəxslərin ünvanına ağır ittihamlar səsləndirib. Onları agent olmaqda suçlayıb.**

O, bəzi insanları AXC-nin yaradıcısı saymadığını bildirib.

**AXC hakimiyyəti dövründə dövlət müşaviri postunu tutmuş Arif Hacılı Rəhim Qazıyevin fikirlərini əsassız sayır:** "Mən 1989-cu ilin oktyabr ayından AXC Ali Məclisinin üzvü seçilmişəm. Həmin dövrdən etibarən Zaqatalada Xalq Cəbhəsinin rayon təşkilatının qurulmasında iştirak etmişəm. Təşkilatın qurucularından biri sayılıram. Bundan əlavə, 1989-cu ilin əvvəllərindən Dağlıq Qarabağın Füzuli, Qubadlı, Ağdərə, Ağdamın bəzi kəndlərində və başqa yerlərdə təşkil olunan müdafiə batalyonunun üzvü, bəzi zamanlarda isə komandiri olmuşam. Həmin dövrdən AXC hakimiyyətə gələnə qədər, hərəkatın qurulmasında, rayon şöbələrinin təşkil olunmasında, 1990-cı ildə Etibar Məmmədov, Rəhim Qazıyev kimi siyasi məhbusların azad olunması istiqamətində aktiv iştirak etmişəm. 1990-cı ilin sentyabr ayında AXC-nin namizədi kimi millət vəkili seçilmişəm. Bir il sonra rəyasət heyətinin üzvü seçilmişəm. Mən Rəhim Qazıyevdən əvvəl deputat seçilmişəm. Bu baxımdan onun mənim proseslərdə iştirak etməməyimlə bağlı fikirləri heç reallığı əks etdirmir. 1992-93-cü illərdə dövlət müşaviri olaraq, Ağdərə istiqamətində gedən döyüşlərə köməklik göstərmişəm. İsa Qəmbərlə birlikdə döyüşlər gedən bölgələrə səfər etmişəm. Belə faktları nə qədər istəsəniz, qeyd edə bilərəm. Bəzilərini sadaladım ki, Rəhim Qazıyevin fikirlərinin əsassız olduğunu hər kəs görsün. Sadəcə, Rəhim Qazıyev və ona bənzər bəzi generallardan fərqli olaraq, müdafiə işləri, ordu quruculuğu, mübarizə ilə məşğul olmuşuq. Reklam işləri ilə məşğul olmamışıq".



**Arif Hacılı:** "Rəhim Qazıyev və ona bənzər bəzi generallardan fərqli olaraq, biz ordu quruculuğu, mübarizə ilə məşğul olmuşuq"



**Pənah Hüseyn:** "Belə səviyyəsiz fikirlərə cavab vermək istəmirəm"



**Sülhəddin Əkbər:** "Bəzi adamlara cavab verməmək, ən ağır cavabdır"

**R. Qazıyevin ən çox narazılıq doğuran fikirləri bunlardır:** "Eşitmişəm ki, Pənah Hüseyn, Sülhəddin Əkbər II-III kursda oxuyan zamandan Dövlət Təhlükəsizlik Komitəsinin söz aparıb-gətirənləri olub. Nemət Pənahlı mənə dedi ki, Prezident Aparatında işləyəndə İsa Qəmbər bir aylıq həbs edilib Gəncəyə aparılmışdı. O zaman Primakov Heydər Əliyevə zəng edərək, İsa Qəmbərin azad olunmasını xahiş etdi. İndi mən haradan bilim ki, İsa Qəmbər Primakovun dostu, işçisi və ya agentidir. Bilmədiyim üçün də bir fikir söyləyə bilmirəm".

**AXC hakimiyyəti dövründə milli təhlükəsizlik nazirinin birinci müavini işləmiş Sülhəddin Əkbər barəsində səsləndirilən ittihamlara qısa cavab verəcəyini qeyd etdi:** "Mən Rəhim Qazıyevin söylədiyi fikirlərlə bağlı yalnız bunları deyə bilərəm. Bəzi adamlara cavab verməmək, ən ağır cavabdır".

AXC hakimiyyətində baş nazir postunu tutmuş Pənah Hüseyn isə səviyyəsiz fikirlərə cavab vermək istəmədiyini söylədi.

Müsahibədə adları keçən digər şəxslərin də münasibətini öyrənməyə çalışsaq da, onlar cavab verməkdən imtina etdilər. Rəhim Qazıyevin fikirlərini ciddiyə almadıqlarını bildirdilər.

❑ **Cavanşir ABBASLI**

# Ölkədə dəyişiklik üçün xarici, yoxsa daxili amil mühümdür?

## "Azərbaycanda daxili amillər hesabına nəyinsə dəyişməsi yalnız forsmajor şəraitində mümkün ola bilər"

**Azərbaycanın üzvü olduğu GUAM məkanında və hətta bir sıra ərəb ölkələrində son illər ciddi dəyişikliklərə gətirib çıxaran proseslər getdiyi bəllidir. Azərbaycanın tanınmış müxalifət siyasətçiləri isə bu proseslərdən ruhlanaraq vaxtaşırı açıqlamalar verirlər ki, dəyişikliklər növbəsi Azərbaycanındır, proses ölkəmizə də çatmaq üzrədir. Ancaq qeyd olunan proseslər Azərbaycan sərhədlərində dirənib qalır.**




Bu mövzuda fikirlərini bizimlə bölüşən **Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev** dəyişikliklər prosesinin ölkəmizdə getməməsinin bir neçə səbəblərinin olduğunu bildirdi. Ə. Əliyev hesab edir ki, xarici amilin Azərbaycan siyasətinə təsiri nəticəsində bizim siyasətçilər fikirlərini düz ifadə edirlər. Əgər diqqət yetirsək son illər ərzində baş vermiş bütün dəyişikliklər sanki xaricdən idarə olunan dəyişikliklərdir. Siyasətçilər də buna əsaslanıb proqnoz verirlər: "Bu günədək dünyada qlobal mahiyyət kəsb edəcək dəyişikliklərin kökündə təbii ki, idarə olunan proses durur. Mən inanmıram ki, "ərəb baharı"nın baş verməsində böyük dövlətlərin marağı olmayıb. Orada baş verən prosesləri izlədiyimiz zaman dünya güclərinin bu prosesə müdaxiləsinin müxtəlif formada şahidləri olmuşuq. Əgər son hadisələri analiz edəriksə, Ukraynada da baş verən hadisələr xarici dəstəksiz mümkün olmazdı. Bu, qloballaşan dünyanın bir vacib elementidir. Hesab edirəm ki, beynəlxalq dəstək Azərbaycan siyasi proseslərinə də təsir etməyənədək daxili amillər hesabına nəyinsə dəyişməsi yalnız forsmajor şəraitində mümkün ola bilər. Belə ki, hakimiyyət onda könüllü surətdə yaranmış mexanizmləri dağıda və mövcud idarəçilik üsulundan dağıdıcılıq istiqamətində fəaliyyətə qərar verə. Onda beynəlxalq amil qeyri-sabitliyin yaranması qarşılığında bu prosesə fəal dəstək verə bilər".

**VİP sədri dəyişikliklər üçün xarici dəstəyin rolunu qeyd etməklə yanaşı, həm də hesab edir ki, hər hansı bir ölkədə dəyişikliyin baş verməsi üçün daxili amillər mövcud olmalıdır:** "Təəssüf ki, bizim siyasətçilərin bir qismi hər şeyi xarici proseslərlə əlaqələndirən zaman daxili amili nəzərə almırlar. Siyasi nəticəsizliyin səbəblərindən biri hakimiyyəti dəyişə biləcək qüvvənin ərsəyə gələ bilməməsidir. Təbii ki, burada hakimiyyətin də müəyyən məqamda rolunu qeyd etmək lazımdır. Azərbaycanın tutduğu siyasi-coğrafi mövqe, onun enerji resursları, xüsusən indi Rusiya-Qərb münasibətlərinin gərginləşməsi fonunda enerji təhlükəsizliyi məsələsində rol ala bilməsi kimi potensialı Azərbaycan hakimiyyətinin manevr imkanlarını artırır. Mən düşünürəm ki, 2013-cü ildə Azərbaycan hakimiyyəti TANAP layihəsinə razılıq verməklə və Avropanın enerji təhlükəsizliyi xəritəsində öz rolunu möhkəmləndirməklə artıq növbəti mərhələ üçün xaricə təklif edəcəyi elə bir potensialı qalmayıb. Düşünürəm ki, yaxın gələcəkdə dünya, xarici amil Azərbaycanda siyasi proseslərin normal inkişafında maraqlı olacaq. Mənə belə gəlir 2015-ci il parlament seçkilərinin kifayət qədər beynəlxalq nəzarətin müdaxiləsi ilə keçməsi mümkündür". **Həmsöhbətimiz onu da dedi ki, xarici amilin Azərbaycana təsir etməməsinin kökündə həm də hakimiyyətin mənfi mənada ustalıqla manevr etməsi də durur:** "Qərb tələblərini artıran zaman Azərbaycan hakimiyyəti çox ustalıqla Rusiyaya tərəf meyl edir. Rusiya təzyiqlərini artırdıqda isə manevr edərək Qərbdən dəstək almağa çalışır. Bu taktikanı uzun illərdir hakimiyyət həyata keçirir. Düşünürəm ki, Azərbaycanın Avropa Birliyi ilə assosiativ sazişi imzalaması nə qədər səhv olsa da, Azərbaycanın obyektiv inkişafının qarşısını alan amil olsa da hakimiyyətin qorunması nöqteyi-nəzərindən gələcəkdə hakim komandanın zərərinə işləyəcək. Hakimiyyət müəyyən mərhələyə qədər manevr edə biləcək. Hesab edirəm ki, Azərbaycanda inqilabi dəyişiklikləri dünya istəmir. İnqilabi dəyişiklikləri istəməməklə yanaşı Azərbaycanda demokratik açılım olmasında artıq maraqlı görünür. Son dövrlər bunun işarətləri görünməkdədir. Son vaxtlar müəyyən prinsipial bəyanatların verilməsi 2015-ci il seçkilərinə hazırlıq mərhələsi kimi qiymətləndirilməlidir. Odur ki, daxili amil 2015-ci ilə qədər hazır olmalıdır. Müxalifət daha koordinasiyalı fəaliyyət göstərməlidir".

❑ **Etibar SEYİDAĞA**

# Çapayev haqda lətifələr olmasaydı...



**Hüseynbala SƏLİMOV**

**Həyat həyatdır. İnsanlar da insan. Elə ona görə də yubileylərdə təmtəraqlı sözlər demək elə də qəbahət deyil. Hamı belə edir, bəlağətli nitqlər söyləyir, ertəsi gün rastlaşanda da təəccüblə "Doğrudanmı lap elə belə dedim?" deyə soruşurlar.**

Bu mənada AXC-nin 25 illiyi də istisna deyil. Düzdür, indi bu tarixin, Azərbaycan Xalq Cəbhəsinin (AXC) yaranması prosesinin izlərini bəlkə 25 ildən irəlidə də axtarmaq olardı. Fəqət, hələ ki Azərbaycanda sovetlər çağındakı milli mücadilə hadisələri haqqında ciddi bir araşdırma aparılmayıb.

Amma ola bilməzdi ki, tarixdə zəif də olsa buna bənzər bir şey olmasın. Bu prosesin işartılarını sovet hakimiyyətinin ilk illərində (məşhur Gəncə üsyanını unutmaq olarmı?!), 1937-ci ilin ərəfəsində, Böyük Vətən müharibəsi illərində, hətta ondan sonrakı siyasi mühacirət dövründə axtarmaq olardı.

Əslində 80-ci illərin sonunda qeyri-adi bir hadisə baş verməmişdi, diqqətə layiq nə olmuşdusa bundan bir qədər əvvəl olmuşdu. 80 illərin sonunda isə bir növ milli-siyasi proseslərin leqallaşması baş verdi. Bütün sovet respublikalarında, ən əvvəl də Baltik respublikalarında xalq cəbhələri yarandı. Bunun əks-sədası kimi 1989-cu ildə Azərbaycanda da Xalq Cəbhəsi elan edildi. Necə deyərlər, hər yerdə yaranmışdı, burada da yaratdılar.

Qərəz, indi o tarixdən 25 il keçir. Amma nə qədər qəribə olsa da, o dövrün iştirakçılarından başqa heç kimin ağlına gəlmir ki, bu prosesə bir tarix kimi baxsın. Bəlkə də ona görə ki, həmin siyasi nəsil bu gün də (bir qədər uğursuz olsa da!) siyasətdədir. Bunu 80-ci illərdəki proseslərin özəllikləri kimi, ya da çağdaş dövrün siyasi spesifikası kimi də yozmaq olar - neçə illərdir ki, bu ölkədə yeni heç nə yaranmır...

Ona görə də bu gün də siyasətdən söz düşəndə təsəlliverici bir söz demək çətindir. Təbii ki, hamı yubileydə öz fantaziyasına meydan verə bilər, amma reallıq başqa şeydir...

Deyirlər ki, nəyinsə sonu həmişə başqa bir prosesin başlanğıcı olur. Amma bu gün belə ümidverici proses görünmür. Bəlkə də 80-ci illər nəslinin hələ də siyasətdə qalması böyük bir biabırçılığın - bu ölkənin tamam Türkmənistana çevrilməsinin qarşısını alır.

Bəzən bu fikri qəbul etmirlər. Deyirlər ki, müqəddəs yer boş qalmır. Amma inanın, qalır, özü də uzun müddət. İndi tarix kimi təqdim edilən siyasi nəsildə cəlbedici nədir? Onların hakimiyyət ambisiyası! Bəli, düz eşitdiniz, hakimiyyət ambisiyası! Ola bilsin, kimsə bunu qeyri-ciddi qəbul edəcək, hətta deyəcək ki, ruhi dispanserlərdə də Çingiz xanlar, Napoleonlar nə qədər desən var...

Düzdür. Razıyıq. Bu nəslin də siyasi ambisiyası daha çox xəstə adamın sayıqlamalarını xatırladır. Amma insanlar arasında olanda, gənclikdəki ovqata diqqət yetirəndə görürsən ki, bu nəsil sonuncudur. Bundan sonra bir müddət siyasi və ictimai səhralıq görünür. Yox, mübarizə əzmi var. Amma özünü siyasi alternativ kimi təqdim etmək gücü və həvəsi yoxdur. Hər narazılığa isə müxalifət, hər narazıya da müxalifətçi demək olmur.

"Hökumətlə hökumətlik etməzlər!", "Başını aşağı sal, öz işinlə məşğul ol!" fəlsəfəsi getdikcə daha çox adama hakim kəsilir.

Olan-qalan etirazlar da lokal məişət xarakteri daşıyır. Hətta yaşadığı yerdəki kommunal vəziyyətə etiraz edən insanlar belə ilk öncə bu hakimiyyətə qarşı olmadıqlarını, onun şüarlarını və "ideoloji ustanovka"larını bölüşdüklərini nümayiş etdirməyi özlərinə borc bilirlər.

Hər şeydən önəmli, hər şeydən irəli fikir, ideologiya müxalifətçiliyidir. Əvvəl fərqli fikir, baxış olmalıdır ki, onun ətrafında müxalifət yaransın.

80-ci illər nəslinin önəmi də məhz bundadır. İnsanlar təəssüf ki, bəzi şeyləri artıq reallıq kimi qəbul edirlər. Bu gün "işinin xatirinə" bu hakimiyyətin siyasi və ideoloji şüarlarını təkrar edən, onları hətta tirajlayan insanlar özləri də bilmədən onlara alışırlar, hamı düşünür ki, elə belə də olmalıdır. Sadəcə, bir nəsil var ki, heç olmasa, rəsmi ideologiyaya nəzəri də olsa opponentlik edir...

Düşünürük ki, bu, da az deyil. Sovetlərin vaxtında hər şey siyasi lətifələrdən başlamadımı? Bu gün bizə bu, qəribə gəlir. Amma o vaxt tələbə auditoriyalarındakı stolların üstü əsl müxalifət qəzetlərinə bənzəyirdi...

Bəlkə də indiki nəslə bu, qəribə gəlir. Amma belə idi - Çapayev haqqındakı lətifələr sovet ideologiyasını laxlatdı...

YENİ MÜSAVAT
N 182 (5891) 18 iyul 2014

# Vitse-admiralın həbs müddəti uzadıldı

## Şahin Sultanov "Yeni Müsavat"a məktub yazdı; sabiq komandan barəsindəki istintaqın obyektiv araşdırılması üçün prezidentə müraciət etdi

**İyulun 17-də müdafiə nazirinin sabiq müavini, Hərbi Dəniz Qüvvələrinin (HDQ) keçmiş komandanı, vitse-admiral Şahin Sultanovun barəsindəki həbs-qətimkan tədbirinin müddəti uzadılıb. Bakı Hərbi Məhkəməsi vitse-admiralın daha 3 ay həbsdə qalması haqda qərar verib. Ş.Sultanov həbsinin qərəzli olduğunu bildirir. Vitse-admiral saxlanıldığı Bakı İstintaq Təcridxanasından redaksiyamıza məktub yollayıb.**

"Çingiz Məmmədov HDQ-yə gəldi, öncə mənə "Qüsursuz xidmətlərə görə" birinci dərəcəli medalı təqdim etdi, sonra isə müdafiə nazirinin əmrini verdi ki, "xidməti uyğunsuzluğa görə" təqaüdə göndərilirəm"

**Vəkili Adəm Məmmədovun** redaksiyamıza təqdim etdiyi məktubunda vitse-admiral yazır: "Hər bir islahat qanuna əsaslanmalıdır. HDQ-də yeni müdafiə naziri tərəfindən aparılan islahat təəssüf ki, qanun pozuntusundan başlandı. Bu islahat HDQ-nin dağılmasına və kadr potensialının məhv olunmasına gətirib çıxardı".

**Vitse-admiral yazır ki, "Azərbaycan Respublikası Təhlükəsizlik Strategiyası"nın müəllifidir və hazırda HDQ-də baş verənlər acınacaqlı vəziyyətin yaranmasına səbəb olub:** "Bunların sübutları, şahidləri kifayət qədər var və materialları müstəqil komissiyaya təqdim etməyə hazıram".

Vitse-admiral ona qarşı istintaqın sifarişlə, şər və ciddi qanun pozuntuları üstündə qurulduğunu qeyd edir: "Mən cinayətkar olsaydım çalışardım ki, Xanlar Vəliyevlə dostluq münasibəti yaradım və onun tərəfindən qanun pozuntularına göz yumum. Lakin indinin özündə - mən həbsdə olarkən öz sözümü deyirəm və inanıram ki, bu, vətən üçün lazımdır. Hərbi Prokurorluq tərəfindən törədilən özbaşınalıqları kimsə dəmlidir. Mən otaqda oturub vitse-admiral rütbəsinə çatmamışam. Hər zaman çətinliklərlə rastlaşmışam. Bu da bir sınaqdır. HDQ-də Milli Təhlükəsizlik Nazirliyinin əks kəşfiyyat şöbəsi var. Onlar da vəziyyətə nəzarət edirlər və hər bir qanun pozuntusu aşkar olunan zaman MTN, Müdafiə Nazirliyinə yazılı məlumat verirlər. Qanun pozuntusu olsa idi, onlar məlumat verərdilər".

**Ş.Sultanov müdafiə naziri Zakir Həsənovla münasibətlərinə də toxunub:** "Zakir Həsənovla mənim hər zaman dost münasibətlərim olub. O, Dövlət Sərhəd Xidmətində çalışarkən tez-tez mənə müraciət edirdi, DSX-də gəmilərdə olan nöqsanları aradan götürmək, təmir işləri görmək üçün köməklik edim. Daxili Qoşunların komandanı olarkən biz tez-tez telefonla əlaqə saxlayırdıq. Bayramlarda təbrik edirdik və dövlət tədbirlərində birlikdə iştirak edirdik. Buna baxmayaraq, onu vəzifəyə təyin edən gündən mənə qarşı qərəzli yanaşdı və heç bir dəfə də olsun qəbul edib söhbət etmədi. Baş Qərargah rəisi Sadıqov mənə birinci gündən dedi ki, nazirlik mənim öz vəzifəmdə qalmağımı istəmir. "Niyə" sualıma cavab verdi ki, yuxarıdan belə məsləhət görülüb. "Kim məsləhət görüb" sualıma o, cavab verə bilməyəcəyini söylədi. Buna baxmayaraqb nazirin qəbuluna keçməyə çalışsam da, qəbul otağında mənə onun məşğul olduğunu dedilər. Belə olduqda mən raportla donanmadakı vəziyyəti və gələcək inkişaf haqqında təkliflərimi məruzə etdim və məxfi poçtla göndərdim. Lakin o, məni yox, 2-ci dərəcəli kapitanları çağırıb onlardan HDQ-də olan vəziyyətlə maraqlanırdı. Onlar da gəlib bunu mənə edirdi. Biz bilirik ki, hər bir sahədə, yeni təyin olunmuş rəhbər öncə əsas mütəxəssislərlə görüşərək vəziyyətlə tanış olur. Zakir Həsənov təyin olunandan, dəfələrlə görüş təklifindən imtina edib, baxmayaraq ki, bu onun vəzifə borcu olub".

**Vitse-admiral yazır ki, HDQ-nin yeni tikilən bazasına baxış zamanı fürsətdən istifadə edib və Z.Həsənovdan qəbuluna düşmək üçün xahiş edib:** "Lakin o dedi ki, "sizdə Xanlar Vəliyev yoxlama aparır, onu yola versəniz sizi qəbul edərəm". Bu da onu göstərir ki, bub planlaşdırılmış, qanunsuz bir təxribatdır.

Yoxlama ciddi qanun pozuntuları ilə başladı və mənə imkan verilmədi ki, prosesdə bir komandan kimi iştirak edim və yoxlamanın suallarına cavab verim. Yoxlama zamanı ciddi qanun pozuntularının sübutları və dəlillər var. Mən müdafiə məsələləri üzrə prezidentin köməkçisi Vahid Əliyevlə görüşüb HDQ-də baş verənləri və hərbi prokurorluq tərəfindən yoxlama zamanı buraxılan ciddi səhvləri ona bildirmək istədim. Bu xahişimə Vahid Əliyev etiraz edərək çox məşğul olduğunu söylədi. Vahid Əliyevə növbəti zənglərim nəticəsiz qaldı. Bundan sonra Nəcməddin Sadıqovla görüşüb baş verənlərə qarşı tədbir görməyini xahiş etdim. O söylədi ki, Xanlar Vəliyev MN-ə HDQ-də böyük yeyinti olduğunu bildirib və MN bunun təsdiqini almadan Ali Baş Komandana artıq məruzə edib. Beləliklə, cinayət işi açmağa razılıq alınıb".

**Vitse-admiral yazır ki, bundan sonra onu müdafiə nazirinin əmri ilə məcburi şəkildə 45 günlük məzuniyyətə göndəriblər və məzuniyyətdən qayıdan kimi işdən uzaqlaşdırıblar:** "İşdən uzaqlaşdırma - yəni təqaüdə təqdimat müdafiə naziri tərəfindən hazırlanmış ciddi qanun pozuntusudur. Cənab prezident Strasburqda Avropa Parlamentində Nazirlər Komitəsində sədrliyi qəbul etmək münasibətilə çıxış edərək qeyd edirdi ki, bizim ölkədə insan hüquqlarına hörmətlə yanaşırlar və insan hüquqlarını qorumaq dövlət siyasətidir. Hüquqlarım pozulub və cənab prezidentə müraciət göndərmişəm. Xahiş etmişəm ki, hüquqlarımı bərpa etmək üçün mənə köməklik göstərsin. «Azərbaycan Respublikası Silahlı Qüvvələrində hərbi xidmətkeçmə haqda» Qanunun 162-ci maddəsində göstərilir: "Hər bir hərbiçi ordu sıralarından buraxılarkən onunla komandiri, bilavasitə rəisi *(admiral və generallarla müdafiə naziri)* ordudan buraxılış haqda ən azı iki fərdi söhbət aparmalıdır. Birinci söhbət buraxılmağa təqdim olunmazdan qabaq aparılır və onun gedişində buraxılmanın səbəbləri, vaxtı və digər suallar aydınlaşdırılır. İkinci söhbət buraxılma haqda təqdimatın göndərilməsi vaxtı aparılır. Onun gedişində hərbi qulluqçunun birinci söhbət zamanı verdiyi suallara və xahişlərə cavab verilir. Aparılan söhbətlərin məzmunu "söhbət vərəqəsi"ndə" öz əksini tapır. "Söhbət vərəqəsi" buraxılan hərbi qulluqçu və komandir tərəfindən imzalanır, şəxsi işə tikilir və saxlanılır.

Mənimlə heç bir söhbət aparılmayıb və heç bir "söhbət vərəqəsi" mövcud deyil! Təqdimat müdafiə naziri tərəfindən gizli şəkildə hazırlanıb və ciddi qanun pozuntusu ilə cənab prezidentə təqdim olunub və bunun əsasında sərəncam hazırlanıb. Admirala heç bir şans verilməyib ki, öz sözünü desin.

Adi fəhlə Əmək Məcəlləsinə uyğun olaraq öncə işə götürən tərəfindən xəbərdar olunur ki, hansı səbəblərə görə və nə vaxt işdən uzaqlaşdırılır. Əks təqdirdə, fəhlə məhkəməyə şikayət verib öz hüquqlarını qoruyur. Mən isə vətəni qorumaq peşəsinə 40 il ömrümü həsr etmişəm, bütün çətin yollardan keçmişəm və vicdanla xidmət etmişəm. Buna sübut tərcümeyi-halımdır və təltif olunduğum dövlət mükafatlarıdır. Təqaüdə çıxmağıma hələ dörd ilim var və qanunauyğun olaraq yeni müdafiə naziri məni bu vəzifədə uyğun görmürsə, bir pillə aşağı vəzifə təklif etməlidir. Ən maraqlısı odur ki, müdafiə nazirinin müavini Çingiz Məmmədov, müdafiə nazirinin əmrini elan etmək üçün HDQ-yə gəldi və birinci mənə müdafiə naziri adından "Qüsursuz xidmətlərə görə" birinci dərəcəli medalı təqdim etdi. Sonra isə müdafiə nazirinin əmrini verdi ki, mən "xidməti uyğunsuzluğa görə" təqaüdə göndərilirəm. Bu heç bir məntiqə sığışmayan haldır. 2007-ci ildən HDQ-nin əsas yerləşdiyi yer indiki "Bayraq meydanı" və yeni bulvardır. Bu illər donanmanın söküntüsü zamanı çox böyük çətinliklərlə rastlaşdıq. Dəfələrlə hərbi hissənin bir yerdən ayrı yerə köçürülməsi, gəmilərin ayrı-ayrı yerlərə yerləşdirilməsi və bu yerlərin nizamnaməyə uyğun olaraq lazımi vəziyyətə gətirilməsi və digər problemlər olub. Bütün bu çətinliklərə baxmayaraq HDQ hər il öz döyüş tapşırıqlarını yerinə layiqincə yetirirdi. Buna sübut 2013-cü ildə keçirilən tədbirlərdir. Həmin il fevral ayında Hərbi Hava Qüvvələrinə məxsus olan helikopter qəzaya uğradı. HDQ axtarış apardı, cəsədləri və helikopterin 90 faiz hissələrini dənizin dibindən çıxardı. Mart ayında Müdafiə Nazirliyinin inspeksiyasının və aprel ayında Respublika Hərbi Prokurorluğunun yoxlaması müsbət rəy verdi ki, qanun pozuntusu yoxdur. Mayda parada hazırlıq və Müdafiə Nazirliyi xidmətləri tərəfindən yoxlamadan müsbət qiymət, iyun ayında Silahlı Qüvvələrin 95-ci ilinə həsr olunmuş paradda şəxsi heyət və gəmilər iştirak etdi. İyulda 40 gəmi ilə 3 gün Xəzər dənizində irimiqyaslı təlimlər oldu. Avqust ayında Rusiya Federasiyası Xəzər Donanmasının gəmilərin qəbulunun təşkili, Rusiya Federasiyası və Azərbaycan Respublikası prezidentlərinin gəmilərlə ziyarətinin təşkili baş tutdu. Sentyabrda üç döyüş gəmisinin Həştərxan şəhərinə səfəri oldu. Sentyabrın 16-20-də HDQ, 4-cü ordu korpusu və HHQ birlikdə Xəzər dənizində irimiqyaslı təlim uğurla keçdi.



Sentyabr ayının 11-də prezident İlham Əliyev Azərbaycan Respublikası "Dəniz Təhlükəsizliyinin Strategiyası"nı imzaladı. Oktyabrda seçkilər oldu, həmin ay Azərbaycan Respublikası "Dəniz Təhlükəsizliyinin strategiya"sından gələn tapşırıqlara uyğun layihələrin hazırlanması və yeni müdafiə nazirinin təqdimatı oldu. Bunlar 2013-cü ilin tədbirləridir. Nəticədə yeni müdafiə naziri gələn kimi məni işdən azad etdi ki, uyğun deyilsən! Hər bir hərbiçinin komandiri var və o, öz sözünü ona çatdıra bilər. Yəni müdafiə naziri imkan verMədi ölkəmizin admiralı öz sözünü desin. Mən üzümü Ali Baş Komandana tutub müraciət yazmışam və inanıram ki, bu haqsızlıqları bilən sonra o, ədalətli qərar qəbul edəcək.

Mən Ulu Öndərimiz Heydər Əliyevin yetirməsiyəm, 15 yaşımdan hərbiçiyəm və 40 il "Vətəni Qorumaq" peşəsinə ömrümü həsr etmişəm. Bu qanunsuzluqların qabağı alınmasa, onda zabitləri nə gözləyir?"

Ş.Sultanov onun müdafiəçisi Adəm Məmmədova və HDQ zabitlərinə Hərbi Prokurorluğun təzyiqlər göstərdiyini də yazıb. Həmçinin sabiq komandan bildirir ki, növbəti məktublarını da hazırlamaqla məşğuldur.

Qeyd edək ki, Respublika Hərbi Prokurorluğu tərəfindən yayılan rəsmi məlumatda bildirilirdi ki, HDQ-də aparılan kompleks yoxlamalar nəticəsində ciddi qanun pozuntuları aşkar edilib. Həmin qanun pozuntuları ilə bağlı CM-in müvafiq maddələri ilə cinayət işi başlanıb. Müəyyən olunub ki, vitse-admiral Şahin Sultanov Hərbi Dəniz Qüvvələrinin komandanı vəzifəsində xidmət etdiyi müddət ərzində vəzifə saxtakarlığına yol verməklə külli miqdarda dövlət əmlakını talayıb. Ş.Sultanov qanunazidd əməlləri sübuta yetirildiyindən o, CM-in 313 və 179.3.2. maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib.

❑ **E.MƏMMƏDƏLİYEV**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 182 (5891) 18 iyul 2014



# Ermənistan Rusiya ilə müttəfiqliyə arxayın deyil

## İşğalçı ölkədə getdikcə daha yaxşı anlamağa başlayıblar ki, Moskva üçün regionda dostluq yox, nüfuz və söz sahibliyi önəmlidir; Pol Qobl: "Azərbaycanda yanlış təsəvvür var ki, Ermənistan Kremlin dostudur..."

**Dağlıq Qarabağ məsələsi ətrafında Krımın ilhaqından sonra yaranmış qeyri-müəyyənlik davam edir. Bir çox ekspertlər, o sırada konfliktoloqlar situasiyanın mümkün inkişaf vektorları ilə bağlı müxtəlif mülahizələr yürüdür, təxminlər səsləndirirlər. Amma hələlik heç kim "bağlı boğça" Rusiyanın Qarabağ planlarını dəqiq bilmir.**
**İndiyə bəlli olan yalnız odur ki, Kreml yeni situasiyadan maksimim şəkildə öz maraqları naminə yararlanmaqda, Qarabağ məsələsindən də bu yöndə faydalanmaqda israrlıdır.**

Şimal qonşumuzun strateji hədəfi əlbəttə ki, Güney Qafqazda öz zəifləmiş dayaqlarını möhkəmlətmək, imkan düşdükcə Azərbaycanda itirilmiş hərbi-siyasi nüfuzunu bərpa eləməkdir.

Bundan ötrü Rusiya tərəfdən bölgənin açar ölkəsi olan Azərbaycana müxtəlif şirnikləndirici təkliflərin edildiyi və ediləcəyi məntiqli və anlaşılandır. Rusiya hər vəchlə Azərbaycanı öz toruna salmağa səy edir və bundan ötrü siyasi-diplomatik potensialının mühüm bir hissəsini xeyli vaxtdır işə salıb. Rəsmi Kreml "bloklara qoşulmayan" Azərbaycandan əl çəkmək məramında görünmür.

"Putinin məqsədi Rusiyanın Azərbaycanda təsirlərini artırmaqdır. Həm o, həm də onun sələfləri Azərbaycana Cənubi Qafqazda həmişə priz kimi baxıblar". Bu sözləri tanınmış amerikalı politoloq, Window on Eurasia bloqunun müəllifi **Pol Qobl** Rusiyanın Avrasiya Birliyi ilə bağlı Azərbaycana bəzi son reveranslarını, o sırada Ermənistanın bu quruma Dağlıq Qarabağsız girməli olduğu barədə mövqeyini vesti.az-a şərh edərkən deyib.

**Lakin on qənaətincə, Azərbaycanın Rusiyanın təsiri altına düşməsi Bakıya heç bir xeyir gətirməyəcək - hətta itirilən ərazilər geri qaytarılsa belə:** "Putinin istəyi ondan ibarətdir ki, Azərbaycanda sovet tipli, yalnız Moskvanın dominantlıq elədiyi bir rejim bərqərar eləsin. Mən əvvəllər də bildirmişəm ki, Azərbaycanda yanlış təsəvvür var ki, Ermənistan Rusiyanın dostudur. Ermənistan Kreml üçün sadəcə, məqsəddir, vəssalam".

**Politoloqa görə, vasitəçilərin dəyişdirilməsi ilə Qarabağ probleminin həllində irəliləyiş gözləmək əbəsdir:** "Bu, bir diplomatın işi deyil. Məsələ ilk növbədə Bakı ilə İrəvan arasında həll edilməlidir. Hətta vasitəçilərin ən gözəl niyyətləri olsa belə, bu, konfliktin yoluna qoyulması üçün kifayət deyil. Elə problemlər var ki, onların həlli ABŞ-la Rusiya arasında qarşılıqlı uzlaşmanı diktə edir. Amma elə problemlər də var ki, onlarla bağlı belə bir əməkdaşlıq mümkün deyil. Yeni mərhələdə iki ölkənin münasibətləri nə istisnasız olaraq dostluq xarakterində olacaq, nə də ki, düşmən".

***

Rusiyanın əsas hədəfini münaqişələrin həlli yox, müstəsna olaraq regionda möhkəmlətmək olması həmçinin ondan görünür ki, hazırda Rusiya Ermənistanı da, onunla müharibə vəziyyətində olan Azərbaycanı da silahlandırır. Çünki Pol Qoblun da dediyi kimi, Moskvadan ötrü Ermənistan, sadəcə, məqsəddir.

Belə durumdan təbii ki, ən çox narahatlıq keçirən işğalçı Ermənistandır. Çünki Azərbaycanın iqtisadi, insani potensialı ilə müqayisədə bu cırtdan ölkə çox zəifdir və təkbaşına ölkəmizə qarşı duruş gətirmək iqtidarında deyil. O üzdən erməni tərəfi ən müxtəlif səviyyələrdə strateji müttəfiqi Rusiyanın Bakıya müasir döyüş maşınları və sistemləri satmasını heç cür həzm edə bilmir, gərginlik keçirir. Son dəfə belə bir narahatlığı prezident Serj Sərkisyan Argentinada səfərdə olarkən dilə gətirib, Moskvadan giley-güzarını açıq şəkildə bəyan edib.



Pol Qobl

Rusiyalı politoloqlar və həbi ekspertlər isə burada qeyri-adi, qəribə heç nə görmürlər. Onların fikrincə, Rusiya üçün regionda nüfuz və təsir müttəfiqlikdən daha vacibdir. Eyni zamanda hesab edirlər ki, İrəvanın naşükürlüyünün yeri yoxdur, çünki Rusiya Ermənistana yetəri qədər yaxşılıq edib və edir. Misal üçün, Rusiya sərhədləri Ermənistanın Türkiyə və İranla sərhədlərini qoruyur ki, bu da hərbi ekspertlərə görə, İrəvana öz qüvvələrini Qarabağ istiqamətində cəmləşdirməyə imkan yaradır.

**Onların sözlərinə görə, Azərbaycana silah-sursat satılması da Moskvanın bölgədə möhkəmlənməsinə hesablanıb:** "Bakıya döyüş təyyarələrinin və vertolyotlarının, tankların və müxtəlif sistemlərin verilməsi Azərbaycanın Rusiyadan asılılığını artırır. Ona görə ki, silah satışı həm də hərbi texnikaya xidməti və ehtiyat hissələrinin alınmasını nəzərdə tutur ki, bunlar da Rusiyasız mümkün deyil".

Göründüyü kimi, Moskvanın əsas hədəfi bu iki ölkəni öz orbitində saxlamaqdır, nəinki region ölkələrindən hansısa birinə üstünlük vermək. Bunu, deyəsən, erməni siyasi isteblişmentində də anlamağa başlayıblar. Təsadüfi deyil ki, Ermənistan Müdafiə Nazirliyində adının çəkilməsini istəməyən şəxs beləcə də deyib. Daha doğrusu giley-güzar edib: "Biz müdafiə strategiyamızda Rusiyanın dəstəyinə ümid eləmirik. Aydın məsələdir ki, Rusiya üçün regionda öz təsirini saxlamaq vacibdir. Ona görə də Qarabağda döyüş əməliyyatlarının başlayacağı halda Rusiya Ermənistan qarşısında götürdüyü müttəfiqlik öhdəliklərini yerinə yetirməyə tərəddüd edəcək".

***

**Erməni milli və strateji araşdırmalar mərkəzinin direktoru Manvel Sərkisyan öz növbəsində hesab edir ki, Rusiyanın davranışı İrəvan üçün qeyri-məqbul, onun Bakı ilə silah sövdələşməsini kommersiya maraqları ilə əsaslandırması isə ikiüzlülükdür:** "Belə yanaşma qəbul edilə bilməz. Və bu barədə daha əvvəllər danışmaq lazım idi. Əgər Rusiya onun strateji müttəfiqi Ermənistanın müharibə vəziyyətində olduğu Azərbaycanı silahlandırırsa, o zaman bu müttəfiqliyin və Ermənistan ərazisində rus hərbi bazasının yerləşdirilməsinin anlamı nədir? Bu, ciddi problemdir. Rusiyanın davranışı anlaşılan deyil".

**Erməni ekspertin fikrincə, Rusiyanın Azərbaycana satdığı silahlar Ermənistana satdığı analoji silahlara adekvat deyil:** "Məsələn, hazırda Azərbaycanın arsenalında olan "Smerç" raket əleyhinə komplekslərə, "T-90" tanklarına qarşı Rusiya Ermənistana nə təqdim edib? Heç nə". Sərkisyanın qənaətincə, mövcud reallıqlar fonunda Ermənistan öz təhlükəsizliyinin təmin edilməsi barədə ciddi düşünməli və Rusiya ilə əlaqələrinə yenidən baxaraq konkretləşdirməlidir.

# İşğal altındakı ərazilərimizdə təbii sərvətlərin qiymətləndirilməsinə başlanıb




**Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində məruz qaldığımız itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupunun (İQ) qərargahında toplantı keçirilib. İQ üzvlərinin və qiymətləndirmə üzrə dəvət olunmuş mütəxəssislərin iştirakı ilə Ermənistan silahlı qüvvələrinin nəzarəti altındakı ərazilərdə təbii sərvətlərin qiymətləndirilməsi ilə bağlı, həmçinin də hesabat xarakterli növbəti müzakirə keçirilib (karabakhinfo.com).**

Tədbirdə İQ-nin geologiya üzrə mütəxəssisi Mirzəli Fətəliyevin hesabat xarakterli geniş məruzəsi dinlənilib və ətraflı müzakirə aparılıb. Müzakirə iştirakçıları İQ-nin Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nəzdində ətraf mühit və təbii sərvətlərə dair İnformasiya-Arxiv Fondunun materialları əsasında qiymətləndirilməsi üçün məqbul olan baza sənədlərinin tam surətdə kifayət edəcəyini qənaətbəxş hesab ediblər. Beləliklə, işğal altında olan ərazilərdə təbii sərvətlərimizə dəyən zərərin qiymətləndirilməsinə start verilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

**Beynəlxalq Təhsil Mərkəzi**

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks hələqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

**Elan**

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** (*vəzidə düyünlərin əmələ gəlməsi*)
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

# Kəbirə Məmmədova sahibkarın pulunu vermir

## Nahid Bağırov kömək üçün prezidentə müraciət etdi



**Sahibkar Nahid Bağırov prezidentdən kömək istəyir. Redaksiyamıza göndərdiyi məktubunda N.Bağırov "Binə" Ticarət Mərkəzinin sahibi Kəbirə Məmmədovanın ondan 6 il əvvəl 28 min dollar aldığını və bunun müqabilində ona mağaza verəcəyini vəd etdiyini yazıb: "Onun təsisçisi olduğu "Arazavia" firması ilə 03.12.2008-ci ildə müqavilə bağladıq. 28 min dollarımı alıb mənə yeni tikilən ticarət kompleksinin 13-1-39 a ünvanından 23 kvadratmetr mağazanı icarəyə verəcəyi öhdəliyini götürmüşdü. Lakin bu günə kimi nə mağazanı verib, nə də pulumu qaytarır. Bundan əvvəl sizə yazdığım şikayət Daxili İşlər Nazirliyinə göndərildi. DİN əməkdaşlarının vasitəçiliyi ilə iyunun 21-də "Binə" bazarındakı ofisində Kəbirə Məmmədova ilə görüşdüm".**

Sahibkar yazır ki, həmin görüşdə K.Məmmədova ona pulunun yalnız yarısını qaytaracağını deyib: "Dedi ki, hər ay 300 manat ödəmək şərtilə sənin pulunun yarısını qaytarıram. İndiyə kimi biz aldığımız pulları heç vaxt geri qaytarmamışıq. Razısansa gəl ayda 300 manat götür. Mən bu cür Allahsızlığı, özbaşınalığı görüb dəhşətə gəldim. Rəsmi sənədlə pul verəsən və sənə deyələr ki, yarısı bizimdir, gəl ayda da 300 manat apar! Üstəlik, Kəbirə Məmmədova söhbət əsasında yüksək çinli məmurların adını çəkərək mənə təzyiq göstərirdi".

**N.Bağırov K.Məmmədovanın Fuad adlı hüquqşünasının bir qədər gözləməsini tövsiyə etdiyini, lakin pulunu vermədiklərini yazır:** "Cənab prezident, hörmətli Mehriban xanım. Ona görə məcbur olub mənə qarşı olan dələduzluq faktına görə mətbuat vasitəsilə Sizlərə müraciət edib köməklik istəmək qərarına gəldim. Kəbirə Məmmədovaya bu ölkədə sizlərdən savayı kiminsə gücü çatmaz. Bu xanım açıq-açığına deyir ki, mən istədiyim adamın pulunu alıb mənimsəyirəm, gedib kimə deyir desin. Dövlət içində dövlət quran və hamıya meydan oxuyan Kəbirə Məmmədovanın özbaşınalığının qarşısını yalnız və yalnız İlham Əliyev ala bilər. Ona görə Sizlərdən xahiş edirəm ki, mənim halal pulumun qaytarılmasına köməklik göstərəsiniz. Mən 28 min dollar pulumun 1 manatını da Kəbirə Məmmədovaya güzəşt etməyəcəyəm".

❑ **E.HÜSEYNOV**

**P.S.** *Qarşı tərəfi də dinləməyə hazırıq.*

*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

✓ *İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!*
✓ *Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!*
✓ *Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!*
✓ *Əla tələffüz və güvənlə danışmaq*
✓ *Real ingiliscə söhbətlər*

BONUS
English EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

## Bakıda məktəblilər və valideynlər etiraza qalxdı

**Səbayel rayonu Bayıl qəsəbəsində yerləşən 49 saylı orta məktəbin şagirdləri və onların valideynləri etiraz edirlər. Buna səbəb adıçəkilən məktəbdə rus bölməsinin bağlanmasıdır.**

Məsələ ilə bağlı anspress -ə daxil olan şikayətdə bildirilir ki, 49 saylı orta məktəbdə rus bölməsi bağlandığına görə şagirdlərin Bayıl qəsəbəsində yerləşən digər təhsil müəssisəsinə - 203 saylı məktəbə köçürülməsinə başlanılıb. Valideynlərin sözlərinə görə, 203 saylı orta məktəb sürüşmə zonasında yerləşir. Buna görə də onlar narahatdırlar.

"Həmin zonada dəfələrlə torpaq sürüşmələri olur. Bundan başqa, kim bizə zəmanət verə bilər ki, 203 nömrəli məktəbdə təhsil səviyyəsi daha yaxşı olacaq".

Şikayətçilərin sözlərinə görə, şagirdlərin digər məktəblərə köçürülməsinə icazə verilimir. Belə ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) tapşırıq verib ki, şagirdlər məhz 203 saylı məktəbə yerləşdirilməlidir.

Məsələ ilə bağlı BŞTİ-dən bildiriblər ki, 49 saylı orta məktəbdə rus bölməsində müəllim çatışmamazlığını və qanunvericiliyə uyğun olaraq siniflərdə şagird komplektləşdirilməsi minimumu təmin olunmadığı üçün bağlanır. "Ona görə də bu məktəbin həm rus bölməsində çalışan müəllimlərin, həm də təhsil alan şagirdlərin yaxınlıqda yerləşən 203 saylı məktəbə köçürülməsinə dair qərar qəbul edilib.

Bununla mümkün ixtisarların qarşısı alınıb. Hər iki məktəbdə isə təhsil səviyyəsi eynidir. Qeyd edilən məktəblərin rus bölməsində çalışan müəllimləri BŞTİ tərəfindən keçirilən Sınaq Qiymətləndirilməsində yüksək nəticə göstərib".

Şagirdlərin köçürülməsinə gəlincə, BŞTİ-dən bildiriblər ki, valideynlər övladlarını istədikləri digər məktəblərə də yerləşdirə bilərlər.

## Masallıda məmur oğlu həbs olundu

### Sədi Əbilova polisə müqavimət göstərdiyinə görə 15 sutka verilib

**Masallı rayonunda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müfəttişliyinin Cənub regional idarəsinin rəisi Ərəstun Əbilovun oğlu polisə müqavimətə görə Masallı Rayon Məhkəməsinin qərarı ilə 15 günlük həbs olunub. Rayon sakinlərinin "Yeni Müsavat"a verdiyi məlumata görə, Sədi Əbilov rayon ərazisində özünə məxsus "Niva" markalı maşını nömrəsiz və kustar üsulla hazırlanmış pərdədən istifadə etməklə sürürmüş.**

Bu zaman Masallı DYP-i əməkdaşları tərəfindən saxlanılan məmur oğlu bu dəfə də polisə tabe olmaq istəməyib. Polisə müqavimət göstərsə də, onun idarə etdiyi avtomobil cərimə meydançasına aparılıb və barəsində tədbir görülüb. Rayon sakininin verdiyi məlumata görə, bu hadisə rayon ictimaiyyəti tərəfindən alqışla qarşılanıb. Çünki rayonda belə qudurğan məmur övladlarının zərərsizləşdirilməsi nadir hallardan biridir və bu da sakinlər tərəfindən müsbət hal kimi qiymətləndirilir. Rayon sakinlərinin verdiyi məlumata görə, Sədi Əbilovun belə bir hərəkət etməsinə səbəb atasının vəzifədə olmasıdır. Məlumat üçün bildirək ki, Sədi Əbilov bir müddət öncə Masallı Rayon İşıq İdarəsinin rəisi vəzifəsində çalışıb və dövlət əmlakını külli miqdarda mənimsədiyinə görə vəzifəsindən uzaqlaşdırılıb. Lakin tutduğu vəzifədən uzaqlaşdırıldıqdan sonra atasının vəzifədə olması Sədi Əbilovun həbs olunmasının qarşısını alıb.

❑ **Fərahim İLQAROĞLU**

## Bu gün 40 dərəcə isti gözlənilir

**İyulun 18-də bəzi yerlərdə 40 dərəcə isti gözlənilir, Abşeron yarımadasında gündüz saatlarında isti temperatur meteohəssas insanlar üçün əlverişsizdir. Yaxın 2 gün ərzində Azərbaycanda isti hava şəraiti müşahidə olunacaq. Lakin iyulun 19-dan başlayaraq ölkə ərazisində küləkli hava şəraiti müşahidə olunacaq, nəticədə havanın temperaturu nisbətən düşəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun baş hidroloqu Asif Verdiyev APA-ya açıqlamasında bildirib ki, arabir güclənən şimal-qərb küləyi əsəcək. Azərbaycanda müşahidə olunacaq küləkli hava şəraiti nəticəsində havanın temperaturunun iyulun 20-dən başlayaraq ötən günlərlə müqayisədə 3-5 dərəcə aşağı enəcəyi gözlənilir.

İyulun 18-də Bakı və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 22-26, gündüz 33-38 dərəcə isti olacaq.

Sabah Azərbaycanın rayonlarında əsasən yağmursuz hava şəraitinin müşahidə olunacağı, lakin axşam bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Gündüz qərb küləyi axşama doğru arabir güclənəcək.

Havanın temperaturu gecə 21-26, gündüz 33-38, bəzi yerlərdə 40 dərəcə, dağlarda gecə 11-16, gündüz 24-29 dərəcə isti olacaq.

Tibbi meteoroloji proqnoza gəlincə, iyulun 18-19-da Abşeron yarımadasında gündüz saatlarında isti temperatur diskomfort meteohəssas insanlar üçün əlverişsizdir.

İyulun 20-də isə güclü xəzri küləyi fonunda havanın temperaturunun bir qədər enməsi müsbət amildir.

YENİ MÜSAVAT
N 182 (5891) 18 iyul 2014

# "Girovları azad etməyin iki yolu var"

## Elxan Şahinoğlu: "Mübariz İbrahimov olayı göstərdi ki, istənilən Azərbaycan vətəndaşı cəbhə bölgəsini keçib qarşı tərəfi itkiyə məruz qoymaqda sərbəstdir"

**Azərbaycanlıların Kəlbəcər ərazisində Ermənistanın işğalçı qüvvələri tərəfindən girov götürülməsi xeyli müzakirələrə səbəb olub. Rəsmi Bakı işğal altındakı torpaqlarda mülkü vətəndaşların girov götürməsi ilə bağlı yetərincə sərt bəyanatlar verib onları geri istəsə də, hələlik nəticə yoxdur. Bu hadisə Azərbaycanda toplumun bəlli bir kəsimini uzun illərdən sonra savaş ovqatına kökləyib.**

Artıq insanlar sülh danışıqlarının nəticəsizliyi, işğal edilən torpaqların geri qaytarılması üçün Azərbaycanın hərbi əməliyyatlara başlamasının vacibliyindən açıq danışırlar.

**Siyasi analitik, "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğluna** görə, vəziyyəti sıradan bir durum heaab eləmir: "Bəlkə də Kəlbəcərə getməyə qərar verən 3 soydaşımız bunun hansı ciddi nəticələrə gətirəcəyinin fərqində olmayıblar. Erməni silahlı birləşmələrinin işğal altındakı Kəlbəcər rayonunda Azərbaycan vətəndaşlarını həbs etməsi yeni situasiya yaradıb. Bu situasiyanı Mübariz İbrahimov sindromu da adlandırmaq mümkündür. Mübariz İbrahimov 2010-cu ildə təkbaşına cəbhə xəttini keçərək erməni separatçıları ilə döyüşdə düşməni xeyli itkiyə məruz qoymuşdu. Onu bu addımı atmağa heç kim sövq etməmişdi. Başqa sözlə, Mübariz İbrahimovun addımı hazırda başqaları üçün də nümunədir və bu nümunədən istifadə etmək istəyənlərin sayı artır. Mübariz İbrahimov olayı göstərdi ki, istənilən Azərbaycan vətəndaşı cəbhə bölgəsini keçərək qarşı tərəfi itkiyə məruz qoymaqda sərbəstdir. Son hadisə göstərir ki, bu tendensiya artmağa doğru gedir. 3 vətəndaşımız heç bir qanunu pozmayıb, hansısa dövlətin sərhədini qeyri-qanuni keçməyib, onlar öz ölkələrinin ərazisində hərəkət ediblər. Sülh danışıqları nəticə vermir, müharibənin başlaması isə geosiyasi risklərlə bağlıdır. Odur ki, belə şəraitdə insanlar təşəbbüsü öz əllərinə almağa başlayıblar. Bu, yeni tendensiyadır".

### Bəs Azərbaycan vətəndaşlarını nə gözləyir?

**Elxan Şahinoğlu:** "Erməni tərəfi Azərbaycanın iki mülkü vətəndaşını yalnız ona görə həbs edib ki, onlar işğal altındakı Azərbaycan torpaqlarına daxil olublar. İrəvan bu iki şəxsi hərbi əsir saymır. Saxta ittihamla soydaşlarımıza qarşı cinayət işi açmaq istəyirlər, guya onlar hansısa ermənini öldürüblər. Deməli, İrəvan onları Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə geri qaytarmağı düşünmür. Ancaq əgər İrəvan iki vətəndaşımızı Bakıya təhvil verməzsə, bu, Azərbaycan-Ermənistan münasibətlərindəki gərginliyi daha da artıracaq. İrəvan Mübariz İbrahimovun da cəsədini aylarla geri qaytarmırdı və bu, bölgədə gərginliyi bir az daha artırırdı. Bu isə həmin dövrdə Azərbaycan hakimiyyətində və ictimaiyyətində müharibə əhval-ruhiyyəsini qaldırmışdı. Ermənistan müharibədə maraqlı olmadığından bir müddət sonra cəsədi geri qaytarmağa qərar verdi. Yenidən analoji situasiya yaranıb".

**Ekspertə görə, Azərbaycan hakimiyyətinin mülki vətəndaşlarını girovluqdan azad etmək üçün iki yolu var:** "Birinci yol Qırmızı Xaç Komitəsinə müraciət etməkdir. İkinci variant isə Rusiyaya müraciət etməkdir ki, Moskva məsələnin həllində vasitəçilik etsin. İrəvan bu məsələdə artıq Qırmızı Xaç Komitəsinin vasitəçiliyini qəbul etməyəcəyini açıqlayıb. Belə olan halda rəsmi Bakının ikinci alternativi Moskvadır. İrəvan Moskvanın istəyini yerə salmaz. Ancaq Moskvanın iki Azərbaycan vətəndaşının azadlığı müqabilində Bakıdan istəyi nə olacaq, bu sual açıq qalır. Digər tərəfdən, bilmək olmaz ki, rəsmi Moskva bu işə qarışacaq, ya yox".

**Elxan Şahinoğlu məsələnin uzanmasının Ermənistanın xeyrinə olmadığı qənaətindədir:** "Öz torpağında girovluq hər bir Azərbaycan vətəndaşının hissiyyatına toxunur. Demək, belə şəraitdə Azərbaycanda Ermənistanın cəzalandırılması, həmçinin müharibəyə başlamaq tələbləri artacaq. Digər tərəfdən, Azərbaycan hakimiyyəti vəziyyətdən istifadə edərək, müharibə ritorikasını sərtləşdirəcək. Onsuz da prezident İlham Əliyev Ermənistanla sülh danışıqlarının nəticə vermədiyini və münaqişənin müharibə yolu ilə həll ehtimalının artdığını deyir. Belə bir məqamda Ermənistanın iki Azərbaycan vətəndaşını girov saxlaması İlham Əliyevin əlini gücləndirir. Ona görə də Ermənistanın özünə xeyirdir ki, qısa müddətdə girovları özü üçün az diplomatik itki ilə Bakıya təhvil versin. Azərbaycan Xarici İşlər Nazirliyinin də fəallaşmasına ehtiyac var. XİN iki Azərbaycan vətəndaşının girovluqdan azad edilməsi üçün bütün beynəlxalq instansiyaları hərəkətə gətirməlidir".



Elxan Şahinoğlu

❑ Aygün MURADXANLI



# Qəzzada atəşkəs əldə olundu

## 10 gün davam edən bombardman 227 Qəzza sakininin həyatına son qoydu, 1700 yaralı var

**10 gün davam edən bombardmandan sonra nəhayət, dünən İsrail və HƏMAS arasında atəşkəs müqaviləsi imzalanıb. BBC-nin məlumatına görə, atəşkəs müqaviləsi Misirdə İsrail və HƏMAS nümayəndələri arasında davam edən danışıqlar nəticəsində əldə olunub. Razılaşmaya əsasən iyulun 18-də səhər saat 6-dan etibarən tərəflər qarşılıqlı olaraq atəşi dayandırırlar.**

Bundan əvvəl isə tərəflər qısa müddətli atəşkəs haqda razılaşma əldə etmişdilər. Ötən gün tərəflər arasında atəşkəs olması ilə bağlı razılaşma əldə olunmuşdu.

Qeyd edək ki, İsrailin Qəzzaya hücumu iyulun 8-də baş verib. Ötən ay 3 israillinin oğurlanaraq öldürülməsindən sonra İsraildə fələstinlilərə qarşı aqressiya artıb, eyni zamanda gərginlik böyüyüb. Bundan sonra İsrail hökuməti Qəzzadan raket atılmasını bəhanə edərək Qəzza zolağını bombalamağa başlayıb. Son məlumata görə, İsrailin Qəzza zolağındakı yaşayış məskənlərini bombalaması nəticəsində 227 nəfər öldürülüb, 1700 nəfərə yaxın insan isə yaralanıb. Öldürülənlərin 75 nəfəri qadın və uşaqlardır. Hazırda Qəzza zolağında dəhşətli vəziyyət yaranıb, insanlar evlərini tərk edirlər. BMT-nin məlumatına görə, son hadisələrdən sonra Qəzzada yaşayan 1 milyon 700 min nəfər insan əsas yaşayış hüquqlardan məhrum olub, minlərlə insan ev-eşiyini tərk edib.

Ötən gün HƏMAS-ın hərbi qanadı İsrail səmasına göndərdiyi pilotsuz təyyarənin çəkdiyi görüntüləri əldə edib. "Əlcəzirə" telekanalının məlumatına görə, İsrail səmasında çəkiliş aparan pilotsuz təyyarə həm də hücum təyyarəsidir və o, sağlam şəkildə Qəzzaya endirilib.

İsrail ordusu isə bəyan edib ki, atəşkəsin imzalanmasının əsas səbəbi Qəzza xalqının tibbi yardım və zəruri ehtiyaclarını təmin etmələri üçün fürsət yaratmaq məqsədi daşıyır.

Qeyd edək ki, bundan əvvəl Misir hökumətinin hazırlayaraq tərəflərə təqdim etdiyi atəşkəs planını HƏMAS "Qəzzada blokadanın qaldırılmasını nəzərdə tutmadığını" əsas gətirərək rədd etmişdi. Ötən gün İsrail hərbi donanmasının Qəzzada çimərliyi atəşə tutması nəticəsində 4 azyaşlının öldürülməsi bölgədə ciddi narazılığa səbəb olub. Yayılan görüntülərdə uşaqların bombardmandan qaçmağa çalışarkən vurulduqları və sonradan döyüşçülər tərəfindən cəsədlərinin toplandığı qeyd olunur. HƏMAS bu hərəkətə görə İsrailin müharibə cinayət törətdiyini bəyan edib. İsrail isə həmişə olduğu kimi, hadisə ilə bağlı araşdırma aparıldığını bildirib.

❑ KƏNAN

# İŞİD-in əsas komandirləri Səddam Hüseyn ordusunun keçmiş zabitləridir

## "Xilafət" barəsində sensasiyalı iddiaların sayı-hesabı bitmir...



**İraq və Suriya ərazisində "İslam Dövləti" elan edən İŞİD indi dünyanın diqqət mərkəzindədir. Daha əvvəl yalnız törətdiyi qətliamlar, kütləvi qətl və edamlarla gündəmə gələn təşkilat İraqda keçən ay fəallaşdıqdan sonra maliyyə imkanları, satdığı neft, arxasındakı qüvvələr və ən əsası rəhbərliyindəki mübhəm adamlarla gündəmə gəlir.**

Bir çox ekspertlərə görə, regional və beynəlxalq güc mərkəzləri İŞİD və onun İraqdakı fəaliyyətlərindən öz maraqları naminə faydalanmağa çalışır. Xüsusən də ABŞ-ın İraqla müttəfiq olmasına rəğmən İŞİD məsələsində müşahidəçi kimi çıxış etməsi ortada bir sıra cavabsız suallar qoyur.

Ankaradakı "Bilgesam" Araşdırmalar Mərkəzinin eksperti Orxan Qafarlı İŞİD-in əsas liderləri haqda bəzi məlumatları təqdim edib. Yeri gəlmişkən, bugünlərdə mətbuatda keçmiş ABŞ kəşfiyyatçısı Eduard Snoudenin İŞİD lideri Əbu Bəkr əl-Bağdadi haqda maraqlı açıqlaması verilib.

İslamazeri.az-ın "Globalresearch" saytına istinadən verdiyi xəbərə görə, Eduard Snouden İŞİD terror təşkilatının MOSSAD, Britaniya və ABŞ kəşfiyyatı tərəfindən yaradıldığını bildirib. Kod adı "Arı Yuvası" olan plana əsasən dünyanın müxtəlif ölkələrindən terrorçuların İŞİD-ə cəlb edilməsi üçün zəmin yaradılıb.

Əsas hədəflərinin İsrailin qorunması olduğunu bildirən Snouden İsrailin qorunması üçün yeganə həll yolunu bu üsulda gördüklərini vurğulayıb. Əbu Bəkr əl-Bağdadinin isə MOSSAD tərəfindən intensiv hərbi və natiqlik təlimləri aldığını qeyd edib.

**O.Qafarının verdiyi məlumatda isə qeyd olunur ki, İŞİD-in iki qərarverici orqanı mövcuddur. Bunlar Xəlifə Yanında Ümumi Şura və Hərbi Şuradır:** "Zəbt etdikləri torpaqlarda ümumi şəriət hökmləri iqtisadi və siyasi məsələlər Ümumi şurada müzakirə olunur. Bu şuranın gizli olmayan siyasi çəkili liderləri aşağıdakı şəxslərdir: **"xəlifə" Əbu Bəkr əl-Bağdadi 1971-ci ildə doğulub.** 2004-cü ildə ABŞ hərbi qüvvələri tərəfindən tutulub. Tutulmazdan öncə Bağdadda Fəllucə şəhərində məscidlərdə axundluq edib. Üç il həbsdə olduqdan sonra sərbəst buraxılıb. İraq İslam Dövləti adında hərbi qruplaşma yaradaraq ona rəhbərlik edib.

**İŞİD-in ikinci önəmli lideri Əbu Eyman əl-İraqidir.** Əbu Eyman əsl adı Əbu Muhannad Suveydavidir. Saddam ordusunun hərbçilərindən olub. 2007-ci ildə İraq mərkəzi hökumətinin qərarı ilə həbs edilib. Həbsdən çıxdıqdan sonra Suriyaya yollanmış Hələb Laziqiyyədə hərbi qruplaşmalara komandirlik edib. İŞİD Hərbi Şurasının dörd önəmli komandirlərindəndir. Bu gündə İŞİD Suriya torpaqlarının əmiridir.

**Üçüncü önəmli şəxs Əbu Əhməd Əlvanidir.** Əlvani Səddam ordusunun önəmli komandirlərindən olub. İŞİD-in strateji hərbi planlaşdırılmalarını Əbu Əhməd Əlvani aparır.

**Dördüncü önəmli isim Əbu Fatima Cəhəyşidir.** İraq ordusunun komandiri olub sonra ayrılıb, uzun zaman Kərkükdə yaşayıb. Hazırda Şimali İraqda Kürt və Türkmən ərazilərinin rəhbəridir. Şimali İraqın neft yataqları Cəhəyşinin nəzarətindədir.

Beşinci komandir gürcü əsilli, Pankisi dərəsində İslamı qəbul etmiş Ömər əl-Şişanidir. İŞİD-in ən qorxunc əməliyyatlarını aparan ismi olaraq tanınır. Və xaricdən gələn cihadçıların əmiridir. İŞİD Hərbi Şurasının üzvüdür.

Yeri gəlmişkən, qeyd edək ki, bugünlərdə axar.az saytında 45 alimin "İslam Dövlətinin xəlifəsi" Şeyx Bağdadiyə beyət etməsi haqda məlumat dərc olunub. Maraqlıdır ki, adları açıqlanan siyahıda tanınmış "əl-Qaidə" üzvlərinin olması da diqqət çəkib.

❑ KƏNAN

YENİ MÜSAVAT
N 182 (5891) 18 iyul 2014




# Lütf və kəramət bulaqlarının axdığı Qədr gecəsi

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim!**
**Qədr gecəsinin əhyaları dönəmini yaşayırıq. Hər bir insan bu dpnəmdə xüsusi bir həyacan yaşayır. Daxilində belə bir nigaranlıq var: "Görəsən mən mübarək əhya gecələrindən nə durumda çıxacağam?". Bizim hər baxımdan durumumuz, vəziyyətimiz müəyyən edildiyi bir vaxtda, görəsən Allahın xüsusi olaraq vurğuladığı bir gecədən necə çıxacayıq?**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## "Qədr" surəsi

**Bağışlayan və mehriban Allahın adı ilə.**

**1. Həqiqətən, Biz onu (Quranı) Qədr gecəsində nazil etdik (Quran bütünlüklə, bir dəfəyə, feyz mənbəyindən birinci səmaya, yaxud Peyğəmbərin mübarək qəlbinə Qədr gecəsində nazil oldu. Sonra isə 23 il ərzində tədriclə birinci göydən Peyğəmbərin mübarək qəlbinə və Peyğəmbərin mübarək qəlbindən də ümmətə çatdırıldı).**

**2. Sən nə bilirsən ki, Qədr gecəsi nədir?**

**3. Qədr gecəsi min aydan daha xeyirlidir.**

**4. O gecə mələklər və Ruh (Cəbrail, ya mələklərdən olmayan başqa bir şərəfli varlıq) Rəbbinin izni ilə (həmin gecədən gələn ilin Qədr gecəsinədək dünyada baş verəcək) hər bir iş(in təqdir, tənzim və sabit edilməsin)dən ötrü yerə enər.**

**5. O gecə dan yeri sökülənə qədər hamı salamatlıqda və (Allahın) rəhmət(in)də olar. Və (o gecə mələklərin yer üzündəki məsumu və saleh bəndələri) salamlama gecəsidir.**

## Min ayda yığa biləcəyimizi bir gecəyə toplayaq

İnsanın həyatına bir çox amillərin təsiri var. Nə zaman dünyaya gəlməsindən tutmuş, necə bir mühitdə böyüməsindən tutmuş, nədən qidalanmasından tutmuş, gecələrini, gündüzlərini necə keçirməsinə qədər - bütün məsələlərin hər birinin insanın durumuna, vəziyyətinə, inkişafına və yaxud geriləməsinə təsiri var. Lakin, bütün bunların içərisində elə məsələlər var ki, İslam mətnlərində onlarla bağlı xüsusi vurğulama var. Misal üçün, həftənin günləri arasında cümə gününə aid xüsusi sözlər var. Məkan olaraq, Ərəfə çölünə, Kərbəlaya, Kufəyə, Məkkə və Mədinəyə aid çox sözlər deyilir. Bəzi əməllər də var ki, xüsusi olaraq İslam mətnlərində vurğulanır. Bəlkə də mübarək Ramazan ayı qədər heç bir şeyə aid insanın mənəviyyatı üçün, insanın mənəvi durumu üçün bu qədər vurğu yoxdur. Şübhəsizdir ki, Qədr gecəsinin əhyaları kimi heç bir gecə haqqında, heç bir zaman haqqında bu qədər mühüm məsələ vurğulanmayıb.

Bu gecələrin xüsusi kəramətləri və lütfləri fövqəl dərəcədədir. İndi bu fövqəl fürsət və imkanlardan istifadə etmək hər bir insanın öz tutumuna buraxılır. Sanki bir bulaqdır və susuz insanlar o bulaqdan su götürməyə gedərlər. Həmin bulaq xüsusi lütflə həmin susuzlara su verər. Əgər bir qabın doldurulmasına adi vaxtlardta çox vaxt lazımdırsa, indi bunu xeyli tez edə bilərik. Allah Təala bizə bildirir ki, 1000 ayda yığa biləcəyimizi 1 gecədə toplaya bilərik. Bəlkə də ömrümüzün axırına qədər mənəvi qida ehtiyatı toplaya bilərik. Allah öz kəraməti ilə insanla tərəfə yönəlib. Həmin min aydan daha tez vaxtda mənəvi qablarımızı doldurmaq üçün imkan var.

## Əhli-Beytin (ə) nəzərində Qədr gecəsi

İnsanlar çox müxtəlifdir. Bəzən elə insanlar olur ki, heç bilmir ki, onun birillik müqəddəratı müəyyən edilən bir gecə var. Çeşmələrin ağzının açılmasından, min ayda doldurula biləcək qədər suyun bir gecəyə paylanmasından xəbərsizdir. Bəzən bilənlər də müxtəlif cür olur. Kimisi az qabla, kimisi çox qabla oraya yönəlir. Burada mühüm məsələ odur ki, bu gecələrdə Allah Öz teşnə bəndələrinə bulaqlarını açıb və kim nə qədər o bulaqdan istifadə edə biləcəksə, edəcək. Varlığımızdakı tutumu nə qədər hazırlamışıqsa, bu, bizdən asılıdır. Bu gecələrdən öz varlığımızın tutumuna uyğun bəhrələnmək - bizim ixtiyarımızdadır.

Qurani-Kərim Qədr gecəsinin xüsusiyyətlərini sadalayarkən heç bir gecə, heç bir vaxta aid olmayan bir neçə məsələni vurğulayır. Quranın nazil olduğu, mələklərin yerə endiyi, salamatlıq olan bir gecədir. Elə bir gecədir ki, bu gecədə olunan ibadətlərin savabı 80 ilin savabına bərabərdir. Bu qədər kəramət və lütfü olan gecədən necə və nə qədər bəhrələnmək isə insanlardan asılıdır.

Nəql edilir ki, bir nəfər İmam Baqirə (ə) ərz etdi: "Qədr gecəsinin min aydan üstün olmasında məqsəd nədir?". Əziz İmam (ə) buyurdu: "Bu gecədə yerinə yetirilən saleh əməl onda Qədr gecəsi olmayan min ay müddət ərzində yerinə yetirilən hər savab işdən üstündür". Mübarək hədisdə İmam Baqir (ə) bizlərə öyrədir ki, Qədr gecəsində yerinə yetirilən bir saleh əməl Qədr gecəsi olmayan min ayda yerinə yetirilmiş əməllərdən daha üstündür. Bu qədər xüsusiyyətləri olan gecələrə daxil olan insanlar gərək öncədən öz qəlbinin tutumuna nəzər salsın, öncədən hazırlıq işləri görsün.

## Qədr gecəsindən kim nə qədər xeyir götürə biləcək?

Sözsüz ki, Allah Təala Öz bəndələrinə mənasız yerə vədlər vermir. Allahın Qədr gecəsi haqqında bu qədər önəmli çatdırışlar etməsi əbəs yerə deyil. Allah Təala bu qədər Qədr gecəsi haqqında vurğu edirsə, deməli, burada xüsusi məsələlər var. Allahın öz bəndələrinə çatdırışı var. Rəbbimiz bir xüsusi mətləbi bəndələrinə bəyan edir. Sanki Rəbbimiz bizə müraciət edərək buyurur: **"Ey insan, sənə göstərə biləcəyim mehribanlığımın, verə biləcəyim bərəkətlərimin qapısını açmışam. Nə qədər götürə bilirsənsə, yığ, nə qədər istifadə edə bilirsənsə, istifadə et".** Bu xüsusi lütflərdən bəhrələnməmək üçün vaxtımız elə də çox deyil. Cəmi bir neçə saatımız var ki, bu nemətlərdən istifadə edə bilək. Neçə qabımız varsa, hamısını doldura bilərik. Bu gecə yığa biləcəyimiz, başqa vaxt min ay ərzində əziyyət çəkərək yığa biləcəklərimizdən daha çoxdur. Qurani-Kərim nazil olan, mələklər yerə enən, əməlləri digər min ayda yerinə yetirilən əməldən üstün edən bir gecədə, əlbəttə ki, fövqəl mükafatlar olmalıdır.

## Hətta xəstələrin belə Qədr gecələrindən istifadə etməsi tövsiyə olunur

Qədr gecəsi. Məzhəbindən, firqəsindən, məktəbindən asılı olmayaraq bütün müsəlmanlar bu gecəyə diqqət ayırırlar. Əxlaq ustadları da öz əxlaqi yüksəlişlərinə çatmaq üçün bu gecəyə xüsusi önəm verirlər. Bu gecənin o qədər əhəmiyyəti var ki, İmam Sadiq (ə) hətta xəstələrə bu gecəyə riayət etməyi tövsiyə edir. İmam Sadiq (ə) xəstə durumunda olan öz səhabəsi Əbu Bəsrə buyurur: "Ramazan ayının 21-ci və 23-cü gecələrinin hər birində yüz rükət namaz qıl. Ta o qədər ki, bacarırsan, bu iki gecəni sübh çağına qədər əhya saxla. Bu iki gecədə qüsl al". Əbu Bəsir ərz edir: "Əgər bacarmasam, ayaq üstə qılım?". İmam Sadiq (ə) buyurur: "Oturan yerdə qıl". Əbu Bəsr deyir: "Onu da bacarmasam?". İmam (ə) buyurur: "Uzanan yerdə qıl". Səhabə deyir: "Əgər yenə bacarmasam?". İmam (ə) buyurur: "Eybi yox, gecənin başında bir az yat və gecənin qalan hissəsində bacardığın tərzdə ibadət et. Çünki, Ramazan ayında asimanın qapıları açılmış, şeytan (lən) zəncirlənmişdir və möminlərin əməlləri qəbul edilir". Yəni, İmam Sadiq (ə) öz dəyərli səhabəsinin timsalında bütün xəstələrə də bu gecədən imkan daxilində istifadə etməyi tövsiyə edir. Bu gecənin imkanları o qədər fövqəl dərəcədədir ki, İmam (ə) heç kəsin onlardan kənarda qalmasını istəmir. Hətta otura, uzana, digər formalarda ibadət edə bilməyənlərə də bu gecədən mümkün qədər istifadə etmək tövsiyə edilir. Bu zaman sağlamlıq durumu yerində olanlar isə, xüsusi diqqətli olmalıdırlar.

## Bütün xeyirlərdən binəsib qalan insan

Əziz İslam Peyğəmbəri (s) Qədr gecəsinin imkanlarından istifadə etməmiş insanlara çox-çox pis qınaqla yanaşır. Yəni, Qədr gecələrindən əliboş çıxmış insana İslam Peyğəmbəri (s) çox tənqidi yanaşır. Rəsulallah (s) buyurur: "Allahdan uzaq olsun və nifrin olsun o kəsə ki, Qədr gecəsinə çata, sağ ola, amma bağışlanmaya".

İslam Peyğəmbəri (s) digər yerdə yenə buyurur: "Mübarək Ramazan ayı sizə üz tutub. Bu ayda bir gecə var ki, min aydan üstündür. Hər kim Qədr gecəsi feyzindən məhrum olar, bütün xeyirlərdən binəsib qalar və Qədr gecələrinin xeyrindən özünü məhrum edən kəsdən başqa heç kəs məhrum qalmaz".

Bir adam ki, Qədr gecəsindən əliboş çıxar, bütün xeyirlərdən kənarda qalar. İnsan əgər bu gecələrdən əliboş çıxırsa, xeyirlərdən məhrum olursa, deməli o, özü özünü bu xeyirlərdən məhrum edib.

## Saleh əməllərin mükəmməlləşdirilməsi gecəsi

Qədr gecələri haqqında digər bir xüsusiyyət də buyurulur. Mübarək mətnlərdə görürük ki, Qədr gecələri insanın saleh əməllərinin mükəmməlləşdirilməsi günüdür. Misal üçün, təsəvvür edək ki, bir insan hansısa mühüm bir hadisə üçün hazırlaşır. Bir müddət keçir, onun hazırlığı o qədər də qənaətbəxş olmur. Amma bir gün olur ki, həmin gündə hazırlaşmaq bir il hazırlaşmaq qədər əhəmiyyətli olur. Sanki həmin bir neçə gündə hazırlaşması, bütün bir ildə çatışmazlıqlarını aradan qaldırır. Mübarək İslam mətnlərində Qədr gecələri sanki buna bənzədilir. İmam Baqirdən (ə) Qədr gecələrinin mövcudiyyətinin fəlsəfəsi haqqında soruşduqda buyurur: "Əgər Allah Təala möminlərin əməllərini bir neçə dəfə artırmasa, kamal zirvəsinə çatmazlar. Amma lütfünü ifazə etmək vasitəsilə onları neçə bərabər edər, ona qədər ki, çatışmazlıqları doldurar".

Yəni mömin bir il ərzində sırf özü elədiklərinin nəticəsi ilə kamal zirvəsinə çata bilməz. Qədr gecələrində olan lütf və kəramətlər insanın bir il ərzində edə biləcəklərini birə-min dəfə artırır. Əgər mömin kamala çatmaq istəyirsə, gərək əməllərini bu yolla bir neçə dəfə artırsın. İnsan bir il nə qədər çalışsa da, nə qədər ibadət etsə də, yenə də naqisdir. Allaha Təala insana elə bir kamala çatmaq tutumu verib ki, sırf ilboyu edilənlərlə bu tutumu doldurmaq olmaz. Qədr gecələrində Allah Təala Özü əməllərimizi bir neçə qat artırar. Amma gərək ortalıqda nəsə olsun ki, Allah Təala onu min dəfə artırsın. Əgər nəsə yoxdursa, onu necə artırmaq olar?

Ola bilər ki, bir nəfər gec ayılıb, bu mətləbləri anlamayıb. Allah Təala ona da bu gecəsindən xüsusi inayətlər edər.

## Ramazan ayı boyunca nələr edək ki, Qədr gecəsini anlaya bilək?

İslam mətnlərdə Qədr gecələrində görülən əməllərin nəticələri də göstərilir. Misal üçün, bu gecədə qılınan namazların xüsusi nəticəsi göstərilir. Əziz İslam Peyğəmbəri (s) buyurur: "Hər kəs Ramazan ayının əvvəlindən sonuna qədər camaat namazında hazır olar, Qədr gecəsindən fayda ona nəsib olmuşdur". Yəni, əziz Rəsulumuz (s) Qədr gecələrində və ümumilikdə Ramazan ayı boyunca camaat namazlarının, müsəlmanların bir yerə toplaşmalarının əvəzinin çox yüksək olduğunu bizə göstərir.

Ramazan ayında halal malla iftar verməyin də insanın aqibətinə və Qədr gecələrinin bərəkətlərinə böyük təsiri var. İslam Peyğəmbəri (s) buyurur: **"Bir kəs ki, halal yolla əldə etdiyi malla oruc tutana iftar verib, Ramazan ayının bütün gecələrində mələklər ona salam göndərər və Həzrət Cəbrayıl (ə) Qədr gecəsində onunla görüşər. Həzrət Cəbrayılla (ə) müsahifəsinin nişanəsi bu olar ki, müsahifə olunanın qəlbi yumşalar, kövrək olar və göz yaşları axar".** Əgər müsəlman özündə Qədr gecəsində belə bir hal tapa bilərsə, Allah Təala Qədr gecəsinin bütün lütflərini ona nəsib edər.

Sədəqənin də Qədr gecəsində insanın tutumuna, durumuna böyük təsiri var. İmam Zeynalabidin (ə) mübarək Ramazan ayının hər günü bir dirhəm sədəqə verərdi və verən zaman buyurardı: "Ola bilsin bu işlə Qədr gecəsini dərk edim, tapım və ondan faydalanım". Bu hədis göstərir ki, Ramazan ayı boyunca görülən hər bir xeyir və savab işin Qədr gecəsindən necə istifadə edə biləcəyimizə təsiri var.

Həzrət Rəsulallah (s) buyurur: "Bir kəs ki, Qədr gecəsini əhya saxlayar, gələn Qədr gecəsinə qədər cəhənnəm əzabı ondan uzaq olar. Bir kəs ki, Qədr gecəsində qüsl alar və sübh çağına qədər əhya saxlayar, günahları bağışlanar". Bu gecənin fəzilətləri barədə məlumat verən Rəsulumuz (s) bu gecədə fövqəl imkanların olmasını çatdırır.

## Həzrət Əliyə (ə) məxsus olan bir gecə

İkinci əhya gecəsi həm də Həzrət Əliyə (ə) məxsus gecədir. Həzrət Əmirəlmöminin (ə) bir şəxsdir ki, insan o Həzrəti (ə) tanıya bilərsə, mömin olar. Əlinin (ə) mübarək şəxsiyyətini anlayan və onun şəxsiyyətindən özü üçün fayda götürən insana bütün həyatı boyunca Allaha bəndə olmaq üçün imkan var. Peyğəmbərimizin (ə) ən gözəl şagirdi və Peyğəmbər (s) bağının ən dəyərli meyvəsində hər bir şey - əxlaq, şücaət, elm, helm, İslam yolunda qılınc çəkmə, İslam yolunda sükut və səbir, yetimlərə nəvaziş və digər sonsuz sifətlər. Və hər bir xüsusiyyət - kamillik zirvəsindədir. İslama iman gətirməkdə onun tayı-bərabəri yox, düşmənlə üz-üzə gələndə, İslamın aqibəti müəyyən edilərkən Əli (ə) Zülfüqarının qarşısına çıxan bir kəs yoxdur. Həmin Əli (ə) yetim görərkən dizləri əsir. Əli (ə) elə bir zirvədir ki, bu günədək insanlıq bu fəlsəfəni dərk edə bilməyib. Əli (ə) elə bir kəsdir ki, dünyanın nə qədər əhəmiyyətsiz olmasını bəşərə göstərir.

Hər tərəfdən Həzrət Əliyə (ə) hücum var. İslamın düşmənləri niyə Əliyə (ə) məhəbbət göstərmirlər? Çünki Əli (ə) olan yerdə mənəviyyat, səmimiyyət, səfa olacaq. Artıq kimlərsə İslam adına, din adına öz murdarlıqlarını yeridə bilməyəcəklər. Əli (ə) zəkasını, Əli (ə) nurunu, Əli (ə) zirvəsini anlamayanlar təbii ki, onunla düşmənçilik edəcəkdi. Bu gün də, dövrümüzdə də Əli (ə) ilə düşmənçilikləri olanlar var və səbəbi də natamamlıq kompleksləridir.

Qədr gecəsinin ikinci əhyasında Əli (ə) bizə dünya ilə necə əlvida etməyi öyrədir. Mübarək Ramazan ayının 21-i - İmam Əlinin (ə) şəhadət günüdür. Əslində həmin gün Həzrət Əmirəlmöminin (ə) dünyadan ayrılmağın yolunu müsəlmanlara öyrədir. Buyurur: "And olsun Kəbənin Rəbbinə ki, artıq qurtuldum". İmam (ə) bununla dünyaya bu cür münasibətin əhəmiyyətini öyrədir.

Allahım, bizlərə mübarək Qədr gecəsini, onun əhyalarını dərk etməyi və bu gecənin xüsusi inayətlərindən bəhrələnməyi nəsib et! Allahım, bizlərə bu gecələrin lütflərindən daha çox aparmaq üçün tutumlarımızı artırmağı nəsib et! Allahım, bizləri Əli (ə) nuruna daha yaxın et! Amin!

YENİ MÜSAVAT
N 182 (5881) 18 iyul 2014

**Ötən il mayın 25-də Bakının Nərimanov rayonu, Həsən Əliyev küçəsi, ev 92, mənzil 8 ünvanında tibb elmləri namizədi, ürək-damar cərrahı, Tibb Universitetinin nəzdində fəaliyyət göstərən müalicə klinikasının kardiologiya şöbəsinin müdiri, 1977-ci il təvəllüdlü Cavid Həmişəyevin vəhşicəsinə öldürülməsi mətbuatın diqqətindədir. Mərhumun atası Zaməddin Həmişəyev KİV-lərə bildirib ki, onun oğlunun qətlə yetirilməsini gəlini İradə Orucova sifariş verib. İ.Orucovanın nümayəndəsi, tanınmış vəkil Aslan İsmayılov isə Z.Həmişəyevin söylədiklərinin həqiqət olmadığını, onun qətlə yetirilmiş oğlunun əmlakına sahiblənmək üçün gəlininə şər atmaqdan çəkinmədiyini söyləyib.**

# Gizli evində öldürülən məşhur həkimin atasından sensasion açıqlamalar

## "Oğlumun qətlində Mərkəzi Klinik Xəstəxananın həkimlərindən şübhələnirəm"

Bu qətli törədən üç şəxs - Türkan Bağırlını, Yasin Ərəbovu və Koroğlu Məmmədovu hüquq-mühafizə orqanlarının əməkdaşları həbs edib. 2014-cü il iyunun 23-də Bakı Ağır Cinayətlər Məhkəməsində bu səs-küylü qətldə təqsirləndirilən adıçəkilən şəxslərin cinayət işi üzrə proses başlayıb. Hər 3 şəxs tamah məqsədi ilə qəsdən adam öldürməkdə ittiham olunurlar.

"Yeni Müsavat" qanlı cinayətdə təqsirləndirilən Türkan Bağırlının müstəntiqlərə verdiyi ifadəsini dərc etdikdən sonra mərhum həkimin atası Zaməddin Həmişəyev redaksiyamıza gəlib və yazılı şəkildə təqdim etdiyi mövqeyinin dərc edilməsini istəyib.

Z.Həmişəyev yazır ki, Nərimanov Rayon Prokurorluğunun müstəntiqi Vüqar Kərimov, bu cinayət işini bilərəkdən 180 dərəcə səhv istiqamətə yönəldib. Zakir Qaralova ümidini ifadə edən Z.Həmişəyev baş prokurorun qəbulunda olduğunu və cinayətin izini azdıran müstəntiqlərin cəzalandırılacağına vəd aldığını açıqlayıb:

"Biz valideynlər, bu ağır cinayətin materialları ilə indiyədək tanış ola bilməmişik. Bilirsiniz niyə? Bax, bu, çox ciddi sualdır".

**Z.Həmişəyev vəkil Aslan İsmayılovu hədəf götürərək yazır:** "Onun hüquqi məsləhətləri ilə və Nərimanov Rayon Prokurorluğunun müstəntiqi Vüqar Kərimovun havadarlığı və birbaşa iştirakı ilə oğlumun həyat yoldaşı İradə Oruclu, yas mərasiminin 2-ci günü, Cavidin ailəvi dostları - həkimlər Fərid Əliyev, Kamran Yaqubov, İkram Rüstəmov və onların həyat yoldaşları ilə birlikdə, Bakıya qayıtmış, mərhumun valideynlərinin xəbəri belə olmadan Aslan İsmayılovu may ayının 29-da rəsmi vəkil tutmuş və onun hüquqi məsləhəti ilə, həmçinin Vüqar Kərimovun birbaşa köməyi ilə özünü bir növ sığortalamışdır! Özünü zərərçəkmişin hüquqi varisi etdirmişdir ki, biz ondan şübhələnməyək, bu cinayət işinin materialları ilə nə biz, nə də nümayəndəmiz tanış ola bilməyək. Qanunlarımız isə ikinci şəxsin zərərçəkmiş kimi tanınmasına imkan vermir. Əslində isə bu cinayət işinin izləri Mərkəzi Klinikada olan şübhələndiyimiz həkimlərə aparıb çıxarır. Cavidin kardiologiya sahəsində uğurları onların bu yola əl atmalarına, ona qarşı peşə paxıllığı və tamah hisslərinin güclənməsi olaraq, Cavidin həyat yoldaşı və onun Ədliyyə Nazirliyi sistemində çalışan qardaşı - İsgəndər Əsəd oğlu Orucovun əməlləridir! Oğlumun *(xoşagəlməz ifadə işlədir-E.M.)* həyat yoldaşı İradə Oruclu sonradan etiraf edib ki, onsuz da son iki ildir ki, biz Cavidlə ər-arvad münasibətində yaşamırdıq. Cavidin anasına deyib ki, son altı ay Cavidi izlədib. Oğlumun və gəlinimizin bizim ailədən cidd-cəhdlə gizlətdikləri *(İradə Oruclunun valideynlərinin tövsiyəsi ilə, əlbəttə...-Z.H.)* bir çox



Cavid Həmişəyev

**Zaməddin Həmişəyev:** "Bu qətlin sifarişçiləri arasında gəlinim və onun ədliyyə sistemində çalışan qardaşı İsgəndər Orucov da var"

məqamlar, naqisliklər bizə çox sonralar məlum olub. Halbuki yeganə oğlumuzun valideynləri kimi, bizimlə hər bir işin əvvəlindən məsləhətləşməli idilər. Bəs niyə etmədilər? Qazax rayonunda bir çox kriminal hadisələrin *(həbs etdirmək, qətl, ölüm, ailələri sahibsiz qoymaq və s.)* iştirakçısı və təşəbbüskarı olanlardan bundan artıq nə gözləmək olardı?! Nə isə, bütün bunlar hamısı məhkəmələrdik, Ağır Cinayətlər, Apelyasiya, Ali Məhkəmə və Avropa Məhkəməsi! Həqiqət tam üzə çıxıb öz yerini tutanacan! Əmin olsunlar buna. Tutulan (saxlanılan) cinayətkarların ömürlük cəza alacağı şübhəsizdir. Bunu qoy onlar da dərk etsinlər. Hələ gec deyil, açıq etiraf etsinlər həqiqəti. Saxlanılan Türkan ilk hazırlıq iclasında etiraf etdi ki, ifadə vermək istəmir! "Rusiya səfirliyindən nümayəndə tələb edirəm" dedi. Ardınca da "çünki məndən ifadəni müstəntiq Vüqar məcbur edib" - masadakı su busan qanını pula satan vicdansızlar!

Keçən ilin avqust ayının 9-da müstəntiq Vüqar Kərimov mənə və nümayəndəm - vəkil Əlövsət Ağamoğlanova bildirmişdi ki, sizə "bomba" xəbər deyəcəm! Vaxt çatanda isə "bilirəm, ancaq deməyəcəm. Əlinizdən gələni edin! Lap Zakir Qaralova şikayət edin, istəsəniz lap İlham Əliyevə", deməyəcəm. Kefim belə istəyir". O, prokuror işçisinin etik norma və qaydalarını pozmuş və vəzifə səlahiyyətlərini aşıb..."

**Z.Həmişəyev cidd-cəhdlərinə baxmayaraq istintaq materialları ilə tanış ola bilmədiklərini yazır:** "Görəsən, hansı məqsədlə Türkanın "yazıq və yetim" obrazını yaradıblar?! Hansı ki, bu hadisəni boynuna götürən üç qatildən biridir. Qatilləri cəmiyyətimizə mələk libasında təqdim edənlər nə məqsəd güdür? Özü də məhkəmənin getdiyi zamanda... Belə çıxır ki, bi-

tulkalarına işarə edib - "qol çəkdiriblər" - söylədi.

Həmçinin o biri saxlanılan cinayətkarlar - Koroğlu və Yasin. Onların ilk yazılı ifadələri ilə, həmçinin telekanallarda isti-isti verdikləri ifadələrlə məhkəmədəki ifadələri arasında böyük təzadlar var. Vicdansız müstəntiqlər uydurma ifadələrlə öz işlərini bitmiş hesab ediblər. İn-

zim şübhələndiklərimizin birbaşa sifarişi ilə xüsusi killer bu cinayəti törədibdir. Daha bunu ört-basdır edə bilməzlər.

**Cinayətkarlar nə qədər maskalansalar da üzləri açılacaq, ifşa olunacaqlar. Çünki Türkan məhkəmə iclasında, birmənalı olaraq, hamının eşidəcəyi tərzdə etiraf edib dedi:** "Mən heç bir vaxt Cavid həkimlə heç bir ünsiyyətdə olmamışam. Onun öldürülməsinə də razı olmamışam! O, çox yaxşı insan idi... Təbii ki, onun ifadəsi cinayət prosesinin protokolunda öz əksini tapıbdır. Bu cinayət işinin ədalətlə araşdırılması, sifarişçilərin və cinayəti törətmiş olanların cinayətə cəlb olunmaları üçün respublikamızda tanınmış akademiklər, xalq şairləri, ziyalılarımız, Milli Məclisin bir çox deputatı, Qazax rayonun ictimaiyyəti ölkə prezidentinə, baş prokuror Zakir Qaralova müraciətlər ediblər. Bu müraciətlərin bir real nəticəsi olacaqdır. Olmasa, sonda Apelyasiya Məhkəməsi, Ali Məhkəmə və Avropa Məhkəməsi var! Faşistlər Böyük Vətən müharibəsi illərində ağ xalat geyinmiş həkimləri öldürmürdülər. Bir həkimi öldürmək - minlərlə insanı məhv etmək deməkdir! Ona görə inamımız böyükdür ki, bu cinayət işi Prezident Administrasiyası və Baş Prokurorluğun ciddi nəzarətindədir! Bu cinayətin əsl kökündə paxıllıq dayanır. Təkcə bizim ailə deyil - xalqımız bir layiqli övladını itirdi. Təki bu son olsun!

Bizim faciəmizə gizlincə sevinənlər isə bütün xalqımızın düşmənidirlər! Xalq düşməni!

Cavid özü idmanın bir çox növləri ilə məşğul olmuşdu. Sambo, karate növləri ilə. "Lokomotiv" idman klubunda futbol isə onun əsl hobbisi idi. Hər həftənin 5-ci günü həkim dostları ilə futbol oynayardı. Qətl günündən bir gün öncə də belə olub. Ona görə də saxlanılan Koroğlu və Yasinin onu müqavimətsiz qətlə yetirmələri ağlabatan deyil. Onun əlinin içində, üz nahiyəsində bıçaq izləri qalardı. Əfsus ki, burda həkim psixoloq terapevtin "əməyi" olub. Huşsuzlaşdırıb bütün qan dövranı damarlarını kəsib - tutulmuş canilərə böyük pul müqabilində boyunlarına götürmələrini planlaşdırmışlar. Sifarişin motivi əsl paxıllıqdır!"

❑ **E.MƏMMƏDƏLİYEV**

**P.S.** *Növbəti saylarımızda cinayətin digər iştirakçıları Yasin Ərəbov və Koroğlu Məmmədovun da istintaqa verdiyi ifadələri dərc edəcəyik.*

# İçimizdən gələn səs



Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Yadınızdadırmı, ötən əsrin 70-80-ci illərini "durğunluq dövrü" adlandırdığına görə bir alim salondan qovuldu. Səbəb də, nəticə də üzdə idi - sən demə, kommunizm ideologiyasının at oynatdığı bir zamanda baş verənlər Azərbaycandan yan keçibmiş, böyük imperiyadan fərqli olaraq onun bir parçasında müstəsna idarəçilik mövcud imiş. İndi də bunu israrla təkrarlayırlar. Özü də keçmişdən danışanlar elə təsəvvür yaratmaq istəyirlər ki, imperiyanın müstəmləkəsi olan ölkənin keçmişi ilə bu günü arasında heç bir bölücü xətt yoxdur. Bunun səbəbləri də üzdədir...**

Kiməsə "xalq yazıçısı", "xalq şairi" titulu bağışlananda da istər-istəməz suallarla üz-üzə qalırsan: nəyə görə? Axı ən azından, bu ada layiq görülənlər son 20-25 ildə yadda qalan heç bir əsər yazmayıblar. Sonra bəlli olur ki, bu adı da 30-40 il əvvəl yazılana görə verirlər. Tamam fərqli ideoloji mühitin meyvəsi olsa da, yeni heç nə yaranmadığından mükafat da az qala yazıçı, şair olduğu unudulanlara verilir... Yeni nəsil isə bu 25 il ərzində özünü təsdiq edə bilməyib...

Hakimiyyət ədəbiyyatın, musiqinin, teatrının, kinonun mövcudluğunu təmin etmək üçün dekorasiyalar qurur. Əslində isə böyük sənətə gedən yol bağlanıb. Heç "aşağıdan" da bu maneəni aradan qaldırmağa cəhd göstərilmir. "Yuxarılar" isə korrupsiyanın bütün dəyərləri tapdadığı bir ölkədə sənətin hakim dairələri mədh etməsi üçün bütün resurslardan yararlanırlar.

Böyük sənət dövrün, zamanın neqativlərinə qarşı mübarizədə yaranır. Bizim ölkədə böyük rüşvət elə psixoloji mühit formalaşdırıb ki, sənət bütün neqativlərə göz yumub.

Əslində ötən əsrin 80-ci illərindən bəri yaradıcı bir təşkilata eyni adamın rəhbərlik etməsi də məntiqə uyğundur - yeni ədəbiyyat yaranmayan ölkədə köhnəni dəyişməyə ehtiyac varmı?

Əslində yeni ədəbiyyatın yaranması üçün mənəvi stimullar daha da çoxdur. Biz müstəqilliyə qovuşduq...

Torpaqlarımızın işğalına qarşı savaşda on minlərlə şəhid verdik. Yüz minlərlə insan öz yurdundan-yuvasından didərgin düşdü. Bizim qollarımıza buxov kimi keçən rüşvətxorluq daha da azğınlaşdı... Amma bütün bunlar ədəbiyyat, kino, teatr, musiqi üçün mövzu olmadı... Sovet imperiyasının sərt qadağaları şəraitində yaranan sənət yeni dövrdə mədhiyyədən o yana keçmədi...

Təbiidir ki, belə mədhiyyə yarışı cəmiyyət tərəfindən qəbul edilmədi. Ən azından, kütlə buna çox sakit və səssiz şəkildə etiraz etdi. Kitabları almadı, bir vaxt əsərlərini oxuduqları müəlliflərə səssiz bir etirazla arxa çevirdilər.

Nədən 30-40 il əvvəl əsərləri əl-əl gəzən Anarın, Elçin Əfəndiyevin, Əkrəm Əylislinin, Mövlud Süleymanlının indi min nüsxə ilə çap olunan kitabları elə mağazalardaca rəflərdə qalır? Nə baş verdi, bu qədər kütləviləşən, əsərləri 50-100 min tirajla nəşr olunan yazıçılar niyə unuduldular? İnsanlar bir neçə il ərzində kitab oxumağı yadırğadımı? Bir vaxtlar sevilənlərlə, indi unudulanlar arasında belə bölücü məsafə nədən yarandı? Səbəb isə üzdədir, yeni dövrdə "köhnə" yazıçılar insanların çəkdiyi əzablara, haqsızlığa göz yumdular. Ədəbiyyat xalqın içindən gələn səsə çevrilmədi... Halbuki böyük ədəbiyyat üçün mövzular - yetərincə idi.

Özü də belə "quraqlıq" ədəbiyyatla məhdudlaşmadı. Kinomuz, teatrlarımız, musiqimiz, təsviri sənət də eyni aqibətlə üz-üzə qaldı... Sanki heyrət doğuran bir güc eyni vaxtda bütün sahələrə əl gəzdirdi...

Hakimiyyət ona yarınmağın, daha doğrusu, belə susmağın qarşılığında bacardığı qədər "xalqın unutduğu" adamların qayğısına qalır. Ən azından hələ də böyük sənətin mövcud olduğunu xatırlatmaq üçün dekorasiyalar qurulur... Tamaşaçı üzünə həsrət qalan teatrlar təmir edilir, böyük konsert salonları tikilir...

Musiqi sahəsindəki ifrat yaltaqlıq isə bütün əndazələri aşıb. Təkcə son on ildə "xalq artisti" adı alanların uzun siyahısına diqqət yetirin... Bayağı ifaçılıq böyük sənət ənənəsi olan ölkədə acı ironiyaya dönür... İnanmaq olmur, Bülbül, Rəşid Behbudov, Şövkət Ələkbərova, Rübabə Muradova, Zeynəb Xanlarova kimi korifeylərin mövcud olduğu ölkədə ifaçılıq bu qədər cılız vəziyyətə düşüb... Amma hakimiyyət dairələri mədhiyyə oxumaq yarışına qoşulanları mükafatlandırmağı yaddan çıxarmır...

Bütün neqativlər üst-üstə qalaqlananda isə insanlar bax belə acı bir aqibətlə barışırlar...

YENİ MÜSAVAT

Son səhifə

N 182 (5891) 18 iyul 2014



# Obamaya məktub həyatını zəhər etdi

Amerikada yaşayan Şanon Riçardson adlı qadının həyatı yazdığı məktublara görə zəhərə çevrilib. Amerika mediasından yayılan məlumatlara görə, 36 yaşlı qadın Şanon bir neçə dəfə ölkə prezidenti Barak Obama və Nyu-Yorkun sabiq bələdiyyə bacısı Mişel Blumberqə üzərində "risin" maddəsi olan məktublar göndərib. Məktubların üzərində zərərli maddələr olduğu məlum olduğu zaman Şanon haqqında cinayət işi açılıb. Hakim prezidentə üzərində zəhərli maddələr olan məktub göndərdiyi üçün ona azadlıqdan məhrumetmə cəzası verib. Üstəlik, pul cəzası da alıb. Ş.Riçardson əvvəlcə polislərə prezidentə məktub yazmadığını, ərinin ona tələ qurduğunu deyib. Polislərin araşdırmasından sonra Şamonun məsələ ilə bağlı heç bir əlaqəsi olmadığı məlum olub. Baş vermiş hadisədən sonra Şamonun əri ondan boşanıb.

# 2 milyonluq saat

Dünyanın ən məşhur saat firmalarından birinin rəhbəri olan Riçard Millenin hazırladığı saatlar hələ satışa çıxmadan tükənib. Qiyməti 2,2 milyon dollar olan və sadəcə 10 ədəd olan bu saatlar "Gizli milyarderlərin saatı" kimi tanınır. "EM 56-02 Sapphire Tourbillion" markalı saatların hər iki üzü şüşədən hazırlanıb. Beşinci dərəcəli titandan hazırlanan saatların üzərində sapfir qaşlardan da istifadə edilib. Riçard Mille hər il 3 min ədəd saat istehsal edir. Üstəlik, bu saatların ən ucuzu 700 min dollardır. Frmanın ən önəmli müştərisi isə ispaniyalı idmançı Rafael Nadaldır.



# Qarğıdalının xeyri

İnsan bədəninin ehtiyac duyduğu lifin 23%-ni qarğıdalı qarşılaya bilər. Qarğıdalı 18.3 % lifdən ibarətdir. Bu tərəvəzin tərkibində zülal, kalsium, dəmir, fosfor, A və B2 vitaminləri var. Nişastası son dərəcə zəngin olan bu bitki ağ, sarı, qırmızı rənglərdə olur. Qeyd edək ki, vətəni Mərkəzi Amerika olan qarğıdalı ilk dəfə Xristofor Kolumb tərəfindən kəşf edilərək Avropaya gətirilib, oradan da bütün qitələrə yayılıb. 100 qramında 345 kalori olan bu tərəvəz amin turşusu, həmçinin lipid, protit və qlosit turşuları baxımından da çox zəngindir.

Faydaları:

- İnsan bədəninin ehtiyac duyduğu lifin 23%-ni qarğıdalı qarşılaya bilər.
- Ağciyər xərçəngi riskini, stressi azaldır və enerji verir.
- Ürək xəstəlikləri üçün çox yararlıdır
- Böyrəyin funksiyalarını yaxşılaşdırır
- Qarğıdalıda olan liflər qanda şəkərin miqdarını stabilləşdirir
- Bununla bərabər qarğıdalının saçağı qaynadılıb içilərsə bir çox xəstəliklərin şəfası olar.





# Dünyanın ən yaşlı kişisi

Braziliyada yaşayan 126 yaşlı Jose Anguinelo dos Santos dünyanın ən yaşlı adamı ola bilər. Afrikalı kölə bir ailənin uşağı olaraq 7 iyul 1888-ci ildə dünyaya gələm Jose heç evlənməyib və uşağı yoxdur. Yaşı çox olsa da, əsa ilə yeriyə bilir, gündə 4 dəfə yemək yeyir və 50 ildir hər gün bir paket siqaret çəkir. Joseni hər kəs Ze adı ilə tanıyır. Ailədəki 5 uşaqdan biri olan Jose Braziliyada əsirlərin yaşadığı düşərgələrin birində dünyaya gəlib. Lakin o, doğulduqdan 2 ay sonra Braziliyada əsrliyə son verilmişdi. Sao-Paula köçən kişi həyatının uzun illərini burada keçirib. Hələ də eyni şəhərdəki qocalar evində qalan Jose zarafat etməyi və mahnı oxumağı çox sevir. Ən nifrət etdiyi iş isə vanna qəbul etməkdir. Həkimlər onun qan təzyiqi, şəkər, əsəb kimi xəstəliklərdən uzaq olduğunu deyiblər.




**QOÇ** - Mənfi enerjili Ayın bürcünüzdə olması səhhətinizə mənfi təsir göstərə bilər. Bu səbəbdən də ehtiyatlı davranış, qidalara xüsusi diqqət yetirmək sizin üçün olduqca vacibdir. Yeni işlərə də başlamayın.

**BUĞA** - Görəcəyiniz işləri əvvəlcədən konkretləşdirin. Unutmayın ki, ilin bu dövrü karyeranız üçün həddindən ziyadə uğurlu ərəfədir. Amma bugünkü vaxtınızı konkret olaraq sevgiyə həsr edin.

**ƏKİZLƏR** - Gileylərinizi qabartmayın. Özünüzü təmkinli, eyni zamanda qürurlu göstərin. Düşünülməmiş qərar çıxarmaq, risk etmək sizə uğur gətirməyəcək. Qohumlarınızla münasibətləri tənzimləyin.

**XƏRÇƏNG** - Əgər qarşıdakı bir həftəni səmərəli şəkildə başa vurmaq fikriniz varsa, bu gündən ciddi ölçü götürməlisiniz. Xəyallar qoynundan düşüb real addımlar atın. Müştərək fəaliyyət üçün də uğurludur.

**ŞİR** - Ehtiyatlı olun. Göy qübbəsi ciddi yanlışlığa yol verə biləcəyinizi bəyan edir. Mövcud situasiyaları kontrolda saxlamağa çalışın. Ürəyinizcə olmayan təklifləri düşünmədən təxirə salın.

**QIZ** - Bir qədər gərgin situasiyalara cəlb oluna bilərsiniz. Odur ki, iş yoldaşlarınızla və ayrı-ayrı şəxslərlə davranışlarınızı tənzimləməlisiniz. Ağlınız kəsməyən işlərə girişməyin.

**TƏRƏZİ** - Günün ümumi axarı enerjinizi ikiqat artıracaq. Bu isə şəxsi işlərinizdə böyük irəliləyişlərin start götürəcəyinə şərait yaradacaq. İndiki halda gələcəyə ümidlə baxmalısınız.

**ƏQRƏB** - Güzəştə getməyi sevməyən təbiətin bu çağında bacardığınız qədər təmkin göstərin. Yaxşı olar ki, yorucu işlərə ara verib istirahət edə, həzin bir musiqiyə qulaq asasınız.

**OXATAN** - Əşyalarla, xüsusən də elektrik cihazları ilə ehtiyatlı davranın. Əks təqdirdə, xəsarət ala bilərsiniz. Axşama yaxın əsəblərinizi sakitləşdirmək üçün gəzintiyə çıxın.

**OĞLAQ** - Yeni əlaqələr yaratmaq fikriniz varsa, saat 15-ə qədər əzmkarlığınızı artırın. Söhbət və müzakirələr zamanı özünüzü qürurlu aparmağa çalışın. Sonrakı saatlarda isə istirahət edin.

**SUTÖKƏN** - Mövcud sıxıntılarınıza görə dünyanı ittiham etməyin. Baş verənlərin səbəbini insanlarda və özünüzdə arayın. İxtiyarınızda olan bu təqvimdə yalnız bu barədə düşünün. Sevgi amilinə də diqqəti artırın.

**BALIQLAR** - Maliyyə sövdələşmələrində iştirak etmək üçün ideal gündür. Şəxsi büdcənizi artırmaq üçün bir az siyasətçi olun. Axşama yaxın çoxdan görmədiyiniz adamlarla rastlaşacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Oruc tutmayana 5 ay həbs



Ramazan ayında küçədə yemək yeyən adama məhkəmə 5 ay həbs cəzası verib. Afrikada yerləşən Fas Krallığında Ramazan ayında açıq-aşkar yemək yemək qadağan olunduğu üçün sözügedən şəxsə həbs cəzası verilib. "Əl-Haber" qəzetinin xəbərinə görə, Tiznit şəhərinin mərkəzi küçələrinin birində yemək yeyən Hasan B. adlı şəxs polislər tərəfindən nəzarətə götürülüb. Hasan B. haqqında araşdırmalar bitdikdən sonra məhkəmə onun 5 ay müddətinə azadlıqdan məhrum edilməsinə qərar verib.

Qanuna qarşı çıxanlara 6 aydan 2 ilə qədər həbs cəzası verilir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565